XANIM QASIMOVA

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN DİLİNDƏ TERMİN YARADICILIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

BAKI – 2009

ÖN SÖZ

Son dövrlərdə Azərbaycan dilinin müxtəlif sahələrinin terminoloji sistemləri, onun əsas xüsusiyyətləri, spesifik cəhətləri ilə bağlı araşdırmalar aparılmışdır. Bu istiqamətdə bir sıra tədqiqat işləri aparılsa da, terminologiya ilə bağlı aktual problemlərin həlli zəruridir. Bu, bir tərəfdən terminologiyanın ayrı-ayrı nəzəri problemləri ilə bağlıdırsa, digər tərəfdən dilin müxtəlif sahə terminlərinin özünəməxsus, spesifik fərqləndirici əlamətlərinin əhatəli şəkildə öyrənilməməsi ilə bağlıdır. Azərbaycan dili terminologiyasının müstəqillik illərində inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, onların linqvistik baxımdan monoqrafik şəkildən tədqiq edilməsi dilçiliyin ən aktual problemlərindəndir. Çünki terminologiya elm və texnikanın, iqtisadiyyat və mədəniyyətin, sənaye və kənd təsərrüfatının, ictimai-siyasi həyatın müxtəlif sahələrinə məxsus anlayışları ifadə edən xüsusi funksiyalı leksikanı əhatə edir. Müasir elmi-texniki tərəqqi, sosial-iqtisadi inkişaf, cəmiyyətin həyatında baş verən dəyişikliklər yeni elmi anlayışların yaranmasına səbəb olur. Bu, dilin terminoloji leksikasını dəyişməsinə, yeniləşməsinə təsir edir. Müstəqillik illərində baş verən dəyişmələr, Avropa ölkələri ilə qarşılıqlı əlaqə, terminologiyanın zənginləşmə mənbələrində yeniləşmələr, xüsusən rus dilindən və onun vasitəsilə dilimizə keçən terminlərin güclü axınının qarşısı alındı. Tarixən terminoloji qata daxil olan, onun əsas hissəsini təşkil edən terminlərin bir çoxu dilimizin daxili imkanları əsasında yeniləri ilə əvəz olundu. Bəziləri də dildən tamamilə çıxaraq öz işləkliyini itirdi. Bazar iqtisadiyyatının inkişafı, yeni neft strategiyasının həyata keçirilməsi, ictimai-mədəni həyatın müxtəlif sahələrində baş verən yeniliklər terminologiyanın inkişaf istiqamətlərini müəyyənləşdirməyi zəruri etdi.

Monoqrafiyada qeyd edildiyi kimi, dildə formalaşan yeni anlayışların yaradılmasında əsas mənbə - Azərbaycan dilinin daxili imkanları nəzərə alınmalıdır. Dilin daxili ifadə imkanlarının geniş olduğunu nəzərə alaraq,

yaranan məfhumları ifadə etmək yolları müəyyənləşdirilmişdir: dilin lüğət tərkibindəki sözlərə əlavə məna verməklə; milli sözlərə şəkilçilər artırmaqla; kökü alınma olan sözlərə türk mənşəli şəkilçilər artırmaqla; iki və daha artıq sözün birləşməsilə; köhnəlmiş sözlərdən istifadə etməklə; alınma sözlərin milli sözlərlə əvəz olunması ilə; dialekt sözlərdən istifadə etmək yolu ilə.

Ümumiyyətlə, elmi terminologiyanın inkişafı üçün xalq dilinin əsas mənbə, tükənməz qaynaq olduğu unudulmamalıdır. Tədqiqatda dilin daxili imkanları əsasında termin yaradıcılığı yolları və üsulları zəngin faktlarla təhlil olunmuşdur. Bu üsullarla yaranan terminlərin dilimizin fonetik, qrammatik quruluşuna uyğun olması, termin üçün səciyyəvi olan dəqiqlik, konkretlik tələblərinin gözlənilməsi əsaslandırılmışdır. Bununla yanaşı, monoqrafiya müstəqillik illərində terminologiyanın inkişafını xarakterizə etmək üçün Azərbaycan dilində terminologiyanın inkişaf meyilləri; termin yaradıcılığının mənbə və üsulları: semantik, morfoloji, sintaktik, kalka; alınma terminlərin dilimizin lüğət tərkibində yeri, leksik-semantik, struktur-qrammatik xüsusiyyətləri, standartlaşma yolları tədqiqata cəlb olunmuşdur.

Tarixi inkişafın qanunauyğunluğunu özündə əks etdirən dilin lüğət tərkibi müxtəlif mənbələrdən alınan terminlər hesabına daha da zənginləşir. Yəni dildə yaranan yeni terminlər həm dilin öz daxili imkanları, həm də alınma sözlər əsasında yaranır. Çünki elm və texnikanın sürətli inkişafı, ölkələrlə qarşılıqlı əlaqə, dünya ölkələrinə inteqrasiya yeni terminologiyanın beynəlmiləl səciyyəli olmasını, yəni məhdud dairədə deyil, beynəlxalq səviyyədə işlənməsinə şərait yaradır. Bu nəzərə alınaraq dilin inkişafında xüsusi rol oynayan alınma terminlər də tədqiq olunmuşdur. Belə ki, müstəqillik illərində terminalmanın mənbələri də dilin əvvəlki inkişaf dövrlərindən fərqlənmişdir ki, bu da cəmiyyətdə gedən proseslərlə bağlıdır. Yəni əgər müstəqillik illərindən əvvəlki dövrlərdə dilimizə alınma terminlər əksər hallarda terminin hansı dilə mənsub olmasından asılı olmayaraq rus dilindən alınırdısa, müstəqillik illərində cəmiyyətin müasir inkişaf istiqamətlərinə uyğun olaraq rus dilindən deyil, termin alınmasında üstünlük

daha çox əlaqələrin genişləndiyi Avropa dillərinə verilmişdir. Bununla yanaşı, termin yaradıcılığında türk dillərindən mənbə kimi istifadə dairəsi genişlənmişdir, çünki Türkiyə ilə hərtərəfli əlaqələrlə bağlı iqtisadi, siyasi, elmi anlayışlar ifadə edən terminlər dilimizə keçmişdir. Bu terminlər leksik-semantik cəhətdən araşdırılmışdır. Ümumiyyətlə, monoqrafiyada terminologiyanın zənginləşməsi, mənbə və üsullarda yeniləşmələr, inkişaf istiqamətləri, termin yaradıcılığı prosesinə təsir göstərən amillər, terminlərin ədəbi dildə normalaşması prosesi, unifikasiyası elmi əsaslarla araşdırılmışdır.

filolofiya elmləri doktoru

Sayalı Sadıqova

GİRİŞ

Müstəqillik qazanmış millət maddi və mənəvi sərvətlərinin sahibidir. Mənəvi sərvətimiz sayılan dil zorakı, yad təsirlərdən uzaqlaşmaq, əsl dövlət dili səviyyəsinə yüksəlmək imkanı qazandı.

Elmi-texniki, ictimai, iqtisadi və mədəni həyatda baş verən yeniləşmələr dildə öz təsirini aydın göstərir. Bu təsir bütün elmi anlayışları ifadə etmək imkanına malik olan, daim yeniləşən və zənginləşən terminologiyamızda daha qabarıq müşahidə olunmaqdadır.

Cəmiyyətin ictimai-siyasi həyatında baş verən dəyişikliklər dilin daxili inkişaf qanunlarına, onun leksik qatının, o cümlədən terminologiyanın yeniləşməsinə təsir edən əsas amillərdən biridir. Respublikamızda, o cümlədən dünyada baş verən dəyişikliklər dilimizə müxtəlif istiqamətlərdə təsirlər göstərir.

Elmi-texniki tərəqqi, Avropaya inteqrasiya, ictimai-siyasi yeniləşmə bir çox terminlərin meydana gəlməsi ilə nəticələnir. Elmi üsluba məxsus olan terminlərin bir çoxu mətbuatda, elmi əsərlərdə işlənir və bir müddətdən sonra ümumişləklik qazanır, məsələn: spiker, inteqrasiya, qloballaşma, referendum, sanksiya, internet, monitorinq, aksiya və s.

Son dövrlər bir sıra elm sahələrinin inkişafı ilə bağlı onların terminoloji sistemləri formalaşmışdır. Yeni elm sahələrinə məxsus terminlərin əsas hissəsi yarandığı ölkənin dilindən alınmışdır. Sözsüz ki, elmi kəşflərin meydana gəldiyi coğrafi məkanda dilin morfem və leksemləri terminin yaranmasında əsasdır.

Müxtəlif terminoloji sistemlərin lüğət tərkibində alınmalar üstünlük təşkil edir. Alınmalar müxtəlif yollarla Azərbaycan dilinin terminoloji qatına daxil olur:

1. heç bir fonetik, leksik, qrammatik dəyişikliyə uğramadan;
2. müəyyən dəyişikliyə uğrayaraq.

Alınma terminlər müxtəlif elmi terminologiyaların əhatə dairəsinin genişlənməsində və inkişaf etməsində əsas rol oynayır.

Müstəqillik qazandıqdan sonra əvvəlki dövrlərdə terminalmada əsas mənbələrdən olan rus dili əvəzinə, Qərbi Avropa, xüsusilə ingilis dilinin əsas rol oynaması müşahidə olunur. Bu, təbii bir axındır, lakin milli terminlərin yaranması prosesi də gücləndirilməlidir. Hər bir dilin lüğət tərkibinin əsas hissəsini təşkil edən terminoloji qat yalnız əcnəbi sözlər hesabına deyil, milli terminlərin yaradılması hesabına da zənginləşməlidir. Bunun üçün Azərbaycan dilinin geniş funksional imkanları vardır.

Alınma terminlər dilə gəldikdən sonra onunla paralel qarşılığı da yaranır. Bu, paralelliyə yol açsa da, alınmanın milli sözlə əvəz olunması cəhdi kimi qiymətləndirilməlidir. Doğrudur, bu cəhdlər hər zaman uğurlu olmur, lakin milli terminologiya yaratmaq yolunda nailiyyət hesab oluna bilər.

Elə alınmalar var ki, onlar alındığı dildə olduğu kimi reseptor dildə işlənir və onun qarşılığı olmur, məsələn; internet, koalisiya, menecer, motodrom, mitinq, lisey, disk, disket, depozit, alyans və s.

Qarşılığı olan alınmalar paralel işlənir və leksik dubletlər yaranır, məsələn:

bankrot- iflas
auksion-hərrac
kvorum – yetərsay
interval- məsafə
jurnal- toplu, dərgi, məcmuə

Müstəqillik illərində termin yaradıcılığında dilin daxili imkanları və alınma terminlər mənbə rolunu oynayır.

Azərbaycan dilində alınma və beynəlmiləl terminlərin çoxluğu onların bir hissəsinin ədəbi dildə normativləşməsi ilə nəticələnir. Dil aydınlığı əsas xüsusiyyəti olan kütləvi informasiya vasitələrində mənası hamı üçün anlaşıqlı olmayan terminlərin işlənməsinə tez-tez rast gəlmək olar. Mətbuat bugünkü ictimai, siyasi və elmi terminologiyada, bir sözlə, dildə gedən prosesləri özündə əks etdirir.

Termin yaradıcılığında türk dillərindən mənbə kimi istifadə etmək meyilləri də məhz müstəqillik illərində daha geniş yayılmışdır. Eyni kökdən törəyən qohum türk dillərinin sovet dövründə uzun müddət bir-birindən ayrı düşməsi onların leksikasında müəyyən fərqlərin yaranmasına səbəb olmuşdur. 1990-cı ildən sonra türk dövlətləri, xüsusilə Türkiyə ilə hərtərəfli əlaqələr nəticəsində siyasi, ictimai, iqtisadi və mədəni həyatda işlənən çoxlu termin, termin-birləşmə yaranmışdır. Bu terminlərin bir hissəsi olduğu kimi, digər hissəsi isə dilimizin qayda-qanunlarına uyğun olaraq istifadə olunur.

Sözsüz ki, eyni kökdən törəmə və morfoloji cəhətdən iltisaqi dil tipinə mənsubluq Azərbaycan və Türkiyə türkcəsinin yaxınlaşmasına və bir-birindən bəhrələnməyə əsas verir.

Monoqrafiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

I FƏSİL Azərbaycan dilində terminologiyanın inkişaf meyilləri

§ 1.1. Azərbaycan dilində terminologiyanın inkişafı

Hər bir dilin inkişaf yolunun onun daşıyıcısı olan millətin tarixi inkişafı ilə sıx bağlı olması bir həqiqətdir. Cəmiyyətdə baş verən hadisələr, dəyişikliklər birinci növbədə dildə öz əksini tapır. Belə ki, iqtisadi-mədəni həyatda baş verən dəyişmələr dilin inkişafına, xüsusilə onun lüğət tərkibinə güclü təsir göstərir. Bu cür dəyişikliklər uzun tarixi dövr ərzində tədricən baş verir. Belə ki, dilin inkişaf prosesi eyni ardıcıllıqla davam etmir, tarixin müxtəlif dövrlərində inkişaf tempi bir-birindən fərqlənir. Dövlətçilik tarixində baş verən sosial dəyişikliklər dilin leksik tərkibinə, o cümlədən terminoloji sistemə təsir edir.

Dilin lüğət tərkibinin ümumişlək olmayan qrupuna daxil olan terminlər dilçiliyin xüsusi bölməsi olan terminologiyada öyrənilir. Ədəbi dilimizin inkişaf tarixində leksik qatın mühüm hissəsini təşkil edən terminoloji leksika müəyyən elmi anlayışlar sistemi ilə bağlıdır. Dilin lüğət tərkibinin mühüm bir hissəsini terminlər təşkil edir. M.Ş.Qasımov yazır: «Terminologiya müstəqil bir elm sahəsi olmaq etibarilə: elmi texniki anlayışlar, onların mahiyyəti, əlamətləri, sistemləri və təsnifatları haqqında, anlayışların təsbit edilməsi vasitəsi olmaq etibarilə onların təyinatları haqqında: anlayışları ifadə etmək üçün dilin məntiqi vasitələri olmaq etibarilə terminlər haqqında: indekslər (qısa işarələr) və anlayışların ifadəsi üçün olan başqa vasitələr haqqında biliklərin məcmusundan təşəkkül edir». [41,28]

Terminologiyanın inkişaf tarixini indiyədək tədqiqatçılar müxtəlif mərhələlərə ayırmışlar. Bu şərti bölgülər ədəbi dilin inkişaf tarixinin mərhələlərinə əsasən müəyyənləşmişdir. M.Ş.Qasımov terminologiyanın inkişaf mərhələlərini aşağıdakı kimi bölmüşdür:

1. VII-XIII əsrlərdən XIX əsrin 30-cu illərinə qədərki dövr
2. XIX əsrin 30-cu illərindən Azərbaycanda sovet hakimiyyəti qurulana qədərki dövr (milli dil əsasında vahid dilin yaranması və

sabitləşməsi dövrü)

3. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı dövr (Azərbaycan ədəbi dilinin hərtərəfli inkişaf etməsi dövrü)» [41,45]

Bu dövrləşmə Azərbaycan ədəbi dilinin Dəmirçizadə tərəfindən 30-cu illərin sonlarında verdiyi bölgüyə uyğundur. Məlumdur ki, ərəb və fars dilllərinin uzun müddət hökmran olduğu dövrlərdə terminlərin də əksəriyyəti ana dilində deyil, məhz həmin dillərdə yaranırdı.

M.Qasımovun «Azərbaycan dili terminologiyasının əsasları» əsərində terminologiyanın yaranmasi nəzəri cəhətdən əsaslandırılaraq tarixi aspektdə tədqiq olunmuşdur. Azərbaycan dilində terminologiyanın inkişafı ilə əlaqədar görülən işləri sovet hakimiyyəti dövründə aşağıdakı mərhələlərə ayırmaq olar:

a) 1920-1929-cu illər

b) 1929-1944-cü illər

c) 1944-1952-ci illər

d) 1952-ci ildən sonrakı dövr [43,67]

Rus dilinin güclü təsirinə baxmayaraq, terminlərin yaranmasında dilin daxili imkanlarından istifadə, Avropa və türk mənşəli terminlərin terminoloji qata daxil olması intensiv şəkildə baş vermişdir. Bu dövrlərdə yaranan terminlərin tədqiqi göstərir ki, ərəb və fars dilləri yeganə mənbə olmamış, rus, yunan, latın və türk mənşəli sözlər də terminologiyanı zənginləşdirmişdir.

S.Sadıqova Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı tarixini aşağıdakı şəkildə dövrləşdirmişdir:

1. VI-VII əsrlərdən XV əsrə qədərki dövr
2. XVI-XVIII əsrlərdə terminologiyanın təşəkkülü.
3. XIX əsrin 30-90-cı illərində terminologiyanın inkişafı.
4. XX əsrin I rübündə terminologiyanın inkişafı.
5. XX əsrin 20-90-cı illərində terminologiyanın inkişafı.
6. XX əsrin 90-cı illərində (müstəqillik illərində) terminologiyanın inkişafı

[67,33].

Bu mərhələlərdə terminologiyanın inkişafı müxtəlif səviyyələrdə olmuşdur. Bu cür müxtəliflik elm sahələrinin ayrı-ayrı dövrlərdə inkişaf sürəti ilə bağlıdır.

N.A.Baskakov yazır: «İstənilən dilin leksikasının terminlərlə zənginləşməsi bütün zamanların və xalqların elmi və bədii kəşfləri ilə əlaqədar olaraq mövcud olmuşdur». [74,45]

Hər bir dövr termin yaradıcılığının xüsusiyyətlərini müəyyən dərəcədə əks etdirir. Qədim dövrlərdə terminlər lüğət tərkibinin az hissəsini təşkil etdiyi halda, müstəqillik dövründə ictimai tələbata uyğun olaraq termin yaradıcılığı daha sürətlə inkişaf etmişdir.

Birinci mərhələdə terminologiyanın inkişafına nəzər salsaq, görərik ki, ədəbi dilin formalaşması, təşəkkülü şifahi ədəbi dilin inkişafı ilə bağlıdır. Şifahi ədəbi dilin daha erkən meydana gəldiyini nəzərə alaraq ilk şifahi ədəbiyyat nümunələrindən olan «Kitabi-Dədə Qorqud» dastanlarında işlənən terminlərin müxtəlif sahələrə aid olduğunu müşahidə edə bilərik.

«Kitabi-Dədə Qorqud» dastanı «Oğuznamə»lərdən biridir. Nəzərə alsaq ki, dastanın dili VI-VII əsrlərə aiddir, onda belə qənaətə gəlmək olar ki, «Kitabi-Dədə Qorqud» dastanının dilində işlənən terminlər daha əvvəlki dövrlərdə də işlənmişdir.

«Hələ XII-XIII əsrlərdən əvvəl Azərbaycan dilində termin yaranması üçün şərait var idi. Həqiqətən də, bu dövrdə dilimizdə qohumluq münasibətlərinə, kənd təsərrüfatı işlərinə, təbabətə, nəbatata, nücuma, sərfə aid bir sıra terminlər meydana gəlmişdir». [41,44]

Doğrudan da, ilk yazılı abidədə verilən ədəbiyyat nümunələri sübut edir ki, termin yaradıcılığı abidənin yarandığı dövrdən də əvvələ aiddir.

«Oğuznamə»də işlənən atalar sözləri və məsəllərini tədqiq edən S.Əlizadə yazır: «Oğuznamə» ulu babalarımızın dil və təfəkkür incilərini sistemli şəkildə bizə çatdıran Azərbaycan və türk dilləri tarixini müxtəlif cəhətdən öyrənmək işinə xidmət edəcək çox qiymətli yazılı abidədir. [20,5]

Milli dildən bir mənbə kimi istifadə olunması birinci dövr termin yaradıcılığı üçün səciyyəvi cəhət hesab oluna bilər. Dastanlardakı terminlər də ümumxalq dilinə əsaslanaraq yaradılmışdır. Həmin terminlər müxtəlif sahələri əhatə etmişdir. Abidədə istifadə olunan terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Geyim adları: qaftan, don, kürk və s.

a) 1. Aftan olsun, oftan olsun,

Dək oğlana ***qaftan*** olsun. [20,54].

b) 2. Ər ondur, doqquzu ***dondur***. [20,55].

c) Gününə görə ***kürkün*** gey [20,168].

Yemək adları: aş, mərcimək, süd, şəkər və s.

a) Elin ağzında mərcimək islanmaz. (səh.58)

b) ***Süd*** dadın tana bilir. [20,58].

c) ***Şəkər*** dadın yeyən bilir. [20,120].

Heyvan adları: inək, dəvə, qurd, aslan və s.

a) ***İnək*** südünə görə mələr. [20,62].

b) ***Dəvəyə*** nəl yoq. [20,107].

c) ***Qurd*** yanında quş da doyar. [20,101].

4) ***Bədən üzvlərinin adları:*** ayaq, burun, üz, qulaq, baş və s.

a) ***Ayağa*** eşq yolunda çalı ilməz. [20,66].

b) ***Burun yüzdən*** düşməz. [20,73].

c) Buynuz umup, ***qulaqın*** çıkma. [20,74].

Saylar: bir, iki, beş, doqquz, on bir, in iki, min və s.

a) Bir daş ilə iki quş vurulmaz. [20,70].

b) Beş də beş, beş buçuq da beş. [20,47].

c) Ondan keç, toquzu qalsın. [20,21].

Göründüyü kimi, ilk yazılı abidələrdə işlənən terminlər daha çox insanların məişəti, məşğuliyyəti və sənəti ilə bağlı yaranıb. Bu terminlər sırf elmi anlayışları ifadə etməkdən çox, ümumişləklik daşıyan sözlərdir.

Qeyd edək ki, «Kitabi-Dədə Qorqud» dastanında işlənən saylar

«Oğuznamə»də də işlənmişdir. «Terminologiyanın tarixini aydınlaşdırmaqda şifahi ədəbi dilin böyük rolu var. Bu cəhətdən Azərbaycan şifahi ədəbiyyatının ilk zəngin abidələrindən sayılan «Kitabi-Dədə Qorqud» dastanı diqqəti cəlb edir. Dastanda ən çox işlənən saylardır. Saylar isə riyazi terminologiyanın formalaşmasında əsasdır». [66,47]

Ə.M. Dəmirçizadə dastanda işlənən terminləri bir neçə qrupa ayırmışdır. «Kitabi-Dədə Qorqud» dastanlarının lüğət tərkibində bir sıra sözlər var ki, bunlar o dövrün istehsal üsullarını, adət-ənənələrini tədqiq etmək nöqteyi-nəzərindən də çox maraqlıdır» [17,157]

Bu qədim abidədə milli dildən bir mənbə kimi istifadə olunaraq yaranan terminlərin bir qismini aşağıdakı kimi qruplaşdırmaq olar: Dastanın dilində işlənən saylar riyazi təfəkkürün ifadəsidir. Məsələn:

1) ***Saylar:*** bir, yeddi, on, üç, otuz, qırx, bin və s.

a) Xanlar xanı xah Bayandır ildə bir ildə bir kərə toy edib Oğuz bəylərin qonaqlarıdı. [40,16].

b) Yeddi dərə qoxuların tülkü bilir. [40,16].

2) ***Dini ifadələr:*** tanrı, quran, kafir, qadir, namaz və s. Məsələn:

a) Yazılıb - düzülüb göydən endi tanrı elmi quran görklü. [40,13].

b) Tovla - tovla şahbaz atların kafir minmiş. [40,33].

c) Qadir sənin alnına qada yazsın, Çoban! - dedi: [40,33].

3) ***Geyim adları:*** cübbə, don, şalvar, çuxa, kömləg, çarıq, duvax və s.

a) Çiyni quşlu cübbə don vergil bu oğlana,
Geyər olsun-hünərlidir. [40,20].

b) Şalvar, cübbə, çüxa verdi: [40,41].

c) Vardı kömləgi qana-quna batırdı. [40,53].

4) ***Heyvandarlıq terminlər:*** quluncuqu, quzucuq, qoç, at, qulun, ayğır və s.

a) Quluncuğu kişnəyib belə keçdi: [40,77].

b) Quzucuğu məkrəşib belə keçdi: [40,77].

c) Qara qoçda qazlıq at bundan keçdi. [40,77].

«Kitabi-Dədə Qorqud»un dilində terminololoji məzmunlu leksika ümumişlək leksikadan müəyyən qədər ayrılmışdır: təsərrüfat leksikası, hərbi terminologiya, dini leksika və s. Bu cür diferensiallıq abidənin dilinin mükəmməlliyini göstərir». [34,112]

VI-VII əsrlər və daha əvvəlki dövrlərin dil xüsusiyyətlərini bütün dolğunluğu ilə əks etdirən bu möhtəşəm abidə -«Kitabi-Dədə Qorqud» dastanı uzun müddət tədqiqat obyekti olmuş və hər bir tədqiqatçı ondan bəhrələnmişdir.

Dilimizin lüğət tərkibinə daxil olan terminlərin əksəriyyəti milli sözlər əsasında yarandığından qədim dövrlərdən bu günə qədər gəlib çatmışdır və bu gün də işlənməkdədir. Bədən üzvləri (baş, göz, qulaq, əl, ayaq və s.), zoonimləri (qaz, keyik, şahin, dovşan, siçan və s.) ifadə edən terminlər uzun əsrlərin sınağından çıxaraq bu günümüzə gəlib çatmışdır.

Yazılı ədəbi dilin inkişafını şifahi ədəbi dilin səviyyəsi müəyyən edir. XI-XIII əsrlərdə farsca yazmaq ənənəsi güclü olduğuna baxmayaraq, şifahi ədəbiyyatda termin yaradıcılığı daha çox ümumişlək sözlərdən istifadəyə əsaslanırdı.

XIII əsrdən XIX əsrin 30-cu illərinə qədərki dövr bir mərhələ üçün çox böyük zaman vahididir. Lakin bədii üslubun aparıcı olması, digər üslublar üçün mənbə rolunu oynaması və bu dövr terminologiya yaradıcılığını öyrənmək üçün daha çox bədii və bədii-fəlsəfi əsərlərə müraciət olunması XIII əsrdən XIX əsrin 30-cu illərinə qədər davam etməsi danılmaz faktdır.

XI-XIII əsrlərdə bir sıra müəlliflər öz əsərlərini farsca və ərəbcə yazırlar. Dəmirçizadənin fikrinə görə, «Ədəbi dildə işlədilən terminlərin demək olar ki, 90 faizi fars, o cümlədən, ərəb dilindən alınmışdır. Həmin dövrdə termin yaradıcılığında Azərbaycan dili nəinki əsas, hətta ikinci dərəcəli mənbə kimi özünü göstərirdi.

Yalnız bu dövrün sonlarında Azərbaycan dili az da olsa, bəzi terminlərin yaranmasında mənbə dil funksiyası daşıya bilir».[80,257]

Tədqiqatçı İkram Qasımov Dəmirçizadənin bu fikirlərini qeyd-şərtsiz

qəbul etməyin mümkün olmadığını yazır və onun «Azərbaycan ədəbi dili tarixi» əsərindəki faktı önə çəkir. «Məlum olduğu üzrə XI-XIII əsrlərdə vahid Azərbaycan xalqı formalaşdığı kimi, bu xalqın hamısının ünsiyyət vasitəsi vahid ümumxalq Azərbaycan dili də artıq mövcud idi və geniş dairədə işlənirdi». [16,69]

İ.Qasımov bu fikrə münasibətini bildirərək yazır: «Artıq formalaşmış və bütöv bir xalqın ünsiyyət vasitəsinə çevrilmiş bir dildə termin yaradıcılığının mövcud olması, bizcə, heç kimdə şübhə doğurmamalıdır. Hələ Azərbaycan dilinin digər türk dilləri ilə yanaşı, qonşu xalqların dillərinə təsirini, mənbə dil kimi, digər dillərin terminoloji sisteminə sözlər verməsini nəzərə aldıqda XIX əsrə qədər Azərbaycan dilindəki terminoloji vahidlərin 90 faizə qədərinin ərəb və fars mənşəli olması fikri şübhə doğurmaya bilmir. Deməli, dilimizdə ərəb və fars mənşəli terminlər mövcud olsa da, hər halda terminlərin əksəriyyətini təşkil etmir» [43,107]

XI-XIII əsrlərdə ədəbi nümunələrdə işlənən terminlər müxtəlif elm sahələrinə aid olmuşdur.

Məsələn, farsca yazıb-yaradan Xaqaninin yaradıcılığında terminlərdən istifadəyə daha çox təsadüf olunur. Onun əsərlərində göy cisimlərinin, riyazi rəqəmlərin, coğrafi terminlərin işlənməsi üstünlük təşkil edir. Xaqaninin əsərlərindən nümunə göstərdiyimiz terminləri aşağıdakı kimi qruplaşdırmaq olar: [30]

1) 1. Riyazi terminlər: məs: çərək, beş, yeddi, dördüncü və s.

a) Göydə iki çərək var: biri sarı, biri ağ. [30,353].

b) Qoysa da şəşxanədə beş hiss, dörd ünsür məni,

Udmuşam nərd oynayan dünyada hər üç növbəni. [30,260].

Fəlsəfi terminlər olan «cahan», «dünya», «dövran», «fələk» anlayışları Xaqaninin əsərlərində çox zaman sinonimlər kimi işlənir.

İntibah dövrünün ən böyük nümayəndəsi sayılan dahi Nizami Gəncəvinin əsərlərindəki termin sıxlığı həm şairin, həm o dövrün elmi inkişaf səviyyəsindən xəbər verir. Təbabət, astronomiya, həndəsə, fəlsəfə

elmində öz dərin bilik və dünyagörüşünü əks etdirən Nizami poemalarında terminlərdən bol-bol istifadə edib. «Biruninin Yerin kürə şəklində olması və Günəş ətrafında hərəkət etdiyi, cazibə qanununu, ayın işığı Günəşdən alması və söz haqqındakı fikirləri şairə tanış idi. İbn Sinanın geologiyaya dair - dağların, dərə və uçurumların əmələ gəlməsi haqqında yürütdüyü mühakimələrə Nizami yaxşı bələd idi və o, əsərlərində yeri düşdükcə bu baxımdan söz açmağı, oxucunu onlarla tanış etməyi vacib bilirdi [64,55].

XIII əsrdə başlayaraq anadilli ədəbiyyatımızın yaranması dilimizin leksikasının milli terminlərlə zənginləşməsinə təsir edən əsas amillərdən olmuşdur. XIII əsrə aid olan «Dastanı - Əhməd Hərami» məsnəvisinin dilində xeyli termin sözlər işlənmişdir. Bu terminlər məişətin, təsərrüfatın müxtəlif sahələrinə aiddir.

1. Oluq dən ayı göydən endirəydi [6,110]
2. Yazardı xət rəqəm tutmuş elmdə. [6,111]
3. Bu gün damarlarım sakit deyildir. [6,113]
4. Yaşı on yeddisində kəndi məhri. [6,133]

Nümunələrdən göründüyü kimi, «Dastanı - Əhməd Hərami»-nin dilində işlənən terminlər müasir ədəbi dilimizdə işlənən terminlərlə çox hallarda üst-üstə düşür: Məsələn: ay, rəqəm, damar, on və s.

«Dastanı - Əhməd Hərami»də əksini tapmış termin səciyyəli sözlərin müəyyən qismi bu gün üçün anlaşıqlıdır və anadili terminologiyamızın öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, XIII əsrdən sonra yaranan terminologiyanın xeyli hissəsi ərəb-fars mənşəli olsa da, ümumxalq dilində işləklik qazanan sözlərdən ibarət olmuşdur. Qazi Bürhanəddin, Nəsimi, Füzuli, Vaqif, Vidadi kimi klassiklərin ədəbi irsində termin səciyyəli sözlərin işlənmə tezliyi bunu sübut edir. Lakin buna baxmayaraq, «Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrünün ilk mərhələsində (XIII-XIV əsrlərdə), göründüyü kimi, bir tərəfdən, funksional üslub tipologiyası yaranır». [34,162]

Həsənoğlunun bizə məlum olan ana dilində yazılmış üç qəzəlində, Qazi Bürhanəddinin qəzəl və tuyuqlarında işlənən terminlər panteist-sufi səciyyə daşıyır və öz dövrünün fəlsəfi terminoloji təşəkkülünü əks etdirir.

«Heç şübhəsiz, Həsənoğlunun birinci qəzəli kimi, ikinci qəzəli də panteist - sufi təfəkkürünün məhsuludur - onu, məsələn, Qazi Bürhanəddinin eyni mövzulu tuyuqları ilə müqayisə etmək mümkündür: hər iki halda panteist - sufi terminologiya əsasən ümumxalq danışıq dilindən alınmış, yaxud ümumxalq dili tərəfindən bu və ya digər dərəcədə qəbul edilmiş vahiddir: yüz, sevmək, xoş məqsud, içmək, sirr, faş eləmək, güy, yol, bəndə və s. [34,168] Qazi Bürhanəddinin qəzəllərində işlənən terminlər anlaşıqlı, xalq danışıq dilinə yaxın və ümumişləklik qazanan sözlərdir. Məsələn: yürək, cigər, müştəri, günəş, ay, nöqtə, dəniz, xətt və s.

1. Bənizin sarusı narıncı olur yaşum ilə,

Oldu **yürək cigər** ikən qara almasiyilə [6,85]

2. Şol **müştərüdür** ol ki, çəkər Zöhrə sazım

Söylə **günəşdir** ol ki, qılur söhbər **ay ilə.** [6,36]

Azərbaycan dilində yazıb yaradan şairin tuyuqlarında termin-paralellərin işlənməsinə təsadüf olunur. Məsələn: aləm-dünya-cahan [6,87,88] allah-tanrı [6,89]. Maraqlıdır ki, eyni anlayışı ifadə edən sinonim terminlər şeirlərdə yanaşı işlənmişdir.

Nizami Xuduyevin fikrincə, XIII-XIV əsrlərə nisbətən XV-XVI əsrlərdə türk mənşəli sözlərin miqdari bir neçə dəfə artır və bu mərhələdə klassik üslubda işlənən alınma sözlərin anlaşıqlı olmayanlarından həmişə ən azı iki dəfə çox olur. [34,225]

XIII-XIX əsrlər arasında yaranan terminologiyanın xeyli hissəsini etnoqrafiya terminləri təşkil edir. Bu, Azərbaycan xalqının həyat tərzinin, məişətinin zənginliyi və məşğuliyyət növlərinin müxtəlifliyi ilə bağlıdır.

Məişətdə işlənən müxtəlif əşya, alət, xörək, geyim, oyun adları və leksik qatı təşkil edən etnoqrafik leksikanın ayrı-ayrı tematik qrupları maddi-mənəvi mədəniyyətimizin aynası sayıla bilər.

Nəsimi yaradıcılığında bu cür etnoqrafik terminlərə tez-tez rast gəlmək olar. Məsələn: çovkan, qənd, həlva, şərbət, şəkər, şal, atlas.

1. Aşıq ol meydanə dir kim, top ilə ***çövkan*** budur. [7,92]

2. Qutusundan dünü gün ***qəndilə həlva*** tökülür. [7,71]

3. Kövsərin şərbətinə qəndilə-***şəkər*** dedilər? [7,73]

4. Sufi ətləs geyər, safı səgərla,

Fəqirin geydiyi ***şal*** onda neylər? [7,92]

Maraqlıdır ki, Nəsimi eyni beytdə şəkər və qənd sözlərini yanaşı işlədib. Nəsimi qəzəllərindən gətirilən nümunələrin bir qismi sırf milli (çovkan, şal), bir qismi ərəb (şərbət, şəkkər, qənd, ətləs), bir qismi isə fars mənşəli (şəkər) sözlərdir. Alınma terminlər daha çox anlaşıqlı olan, hamı tərəfindən asanlıqla başa düşülən sözlərdən ibarətdir.

Klassik poeziyamızın əlçatmaz zirvəsi sayılan Füzuli şeirlərini araşdırarkən aydın olur ki, o dövr üçün məlum olan bir sıra elm sahələrinə aid terminoloji leksika ədəbi dildə fəal şəkildə işlənmişdir. Fəlsəfə, təbiət, ədəbiyyatşünaslıq, ilahiyyət, musiqi və başqa elm sahələrini əhatə edən terminoloji leksikadan istifadə daha çox diqqəti cəlb edir. Ana dilində yazılmış nəzm və nəsr əsərlərində alınma terminologiya üstünlük təşkil edir.

1) Musiqi terminləri: ney [5,82], qopuz [5,98], çəng, dəf [5,99] və s.

2) Dini terminlər: tanrı, allah [5,46], büt, mömin, kafir [5,87], fatihə [5,99] və s.

3) Dilçilik terminləri: sual [5,101], nöqtə [5,103], söz [5,59] və s.

4) Ədəbiyyatşünaslıq terminləri: nəzm, əşar [5,259], qəzəl [5,345], mürəbbə [5, 345] və s.

Füzulinin ana dilində yazılmış qəzəllərində və «Leyli və Məcnun» poemasında işlənən terminlər mövzuca daha rəngarəng və müxtəlifdir. Lakin göstərilən nümunələrdən də məlum olur ki, Azərbaycan ədəbi dilində terminlərin işlənmə sıxlığı, onlardan istifadə daha çox olmuşdur. "Dərin və hərtərəli biliyə malik olan Füzuli elmi anlayışı ifadə edən terminləri müxtəlif mənbələrdən - həm ana dilindən, həm də ərəb-fars dilindən alıb

işlətmişdir". [67,108] Bu da həmin dövrdə milli terminologiyanın qeyri-sabitliyindən, hələ milli zəmində tam şəkildə formalaşmamasından irəli gələn bir hal olmuşdur. Məsələn: tanrı-allah; günəş-xurşid, ay-mah; söz-ləhz-süxən.

«Ümumən, Füzuli öz əsərlərində fəlsəfi məfhumların, ictimai məsələlərin, elm, mədəniyyət, din və sənət ilə əlaqədar hadisələrin ifadə olunması zərurəti nəticəsində də ərəb və fars dillərindən söz-termin alıb işlətməli olmuşdur. Çünki hələ Füzuli dövründə də bu növ anlayışları ifadə etmək üçün Azərbaybcan dilində belə termin mahiyyətli vahidlər yox dərəcəsində idi, həm də belə anlayışları bədiiləşdirilmiş halda məcazi mənalarda, epitet və sair kimi formalarda istifadə etmək üçün Azərbaycan dili vahidləri üzərində lazımi əməliyyat da, demək olar ki, aparılmamışdır».[16,118] Bununla belə, azərbaycan dili maddi-ictimai zəminə malik olduğuna görə sürətlə inkişaf edirdi. Faktlar göstərir ki, getdikcə azərbaycan ədəbi dilinin işlənmə dairəsi genişlənmiş, təkcə bədii üslub deyil, həm də elmi üslüb inkişaf yoluna qədəm qoymuşdur.

Belə ki, ədəbi dilin xəlqiləşməsi XVII əsrdən sonraya təsadüf edir. Bu dövrdən sonra meydana gələn bədii üslubda işlənən söz və ifadələr daha çox xalq danışıq dilinə əsaslanır və lüzumsuz alınma sözlər dildən sıxışdırılıb çıxarılırdı. Terminoloji leksika haqqında bunu demək olmaz. Elmi üslubun terminoloji qatı daha çox alınma sözlərdən təşkil olunurdu. Ə.Dəmirçizadə XVIII əsr ədəbi dili haqqında yazırdı: «Alınma sözlər, ifadələr, tərkiblər bu mərhələdəki ədəbi dildə, xüsusən bədii üslubda bir qədər azaldılmış, lakin elmi üslubda terminlər hesabına artmışdır» [16,259]

Alınma terminologiyanın üstünlük təşkil etməsi terminlərin yaranmasında milli dildən bir mənbə kimi istifadə edilməməsi və ana dilinin imkanlarının nəzərə alınmaması ilə bağlıdır.

«Klassik şairlərin, xüsusən Xətai, Füzuli, Qövsi Təbrizi, Vaqif kimi sənətkarların dilindən işlənən ürək, qan, tibb, sümük, bağır, ciyər və s. sözlər emossional-ekspressiv çalarlara malik olduğundan onların terminoloji

mənası qabarıq görünmür. Eyni üslubda isə bu sözlər hissi çalarlar bildirmək baxımından neytrallaşır». [18,68]

Ayrı-ayrı dövrlərdə termin yaradıcılığının inkişaf istiqamətləri olmuşdur. Məsələn, birinci mərhələdə (VI-VII əsrlərdən XIII əsrə qədər) dövrdə, əsasən, türk mənşəli; ikinci mərhələdə (XIII əsrdən XIX əsrin 30-cu illərinə qədər) ərəb və fars mənşəli; üçüncü mərhələdə (XIX əsrin 30-cu illərindən XX əsrin I rübünə qədər) ərəb, fars dilləri ilə yanaşı, rus dilindən alınan terminlər də üstünlük təşkil edirdi.

XIX əsrdə milli dilin təşəkkülü, elmi üslubun formalaşması və leksik qata yeni-yeni terminlərin daxil olması terminologiyanı daha da zənginləşdirdi. Publisistik və rəsmi-epostolyar üslubun meydana gəlməsi terminlərdən geniş istifadəyə imkan yaratdı.

Elmi-üslubun müxtəlif sahələrini əhatə edən terminoloji leksika müxtəlif üsullarla yaranırdı. Xalq dilində işlənən bir sıra sözlər termin kimi işlənərək yeni məna kəsb edir.

XIX əsrdə fəaliyyət göstərən yazıçı və publisistlərin - M.F.Axundovun, H.Zərdabinin, N.Vəzirovun və başqalarının xalq danışıq dilində işlənən sözlərin elmi anlayışları ifadə etmək üçün istifadə etmələri terminologiyanın zənginləşməsinə xidmət etdi.

«M.F.Axundov, xüsusən, ayrı-ayrı fəlsəfi anlayışların ifadəsi üçün ərəb-fars və Azərbaycan sözlərini seçib işlətmişdir. Lakin dramaturq sözlərdən tamamilə yeni anlayış-fəlsəfi kateqoriya bildirmək üçün istifadə etmişdir.

Məsələn: əşya, mahiyyət və əslində səbəbə möhtac deyil, o ancaq bir növdən başqa bir hala keçməsində səbəbə möhtacdır. (M.F.Axundov, II 49), Din və inamla elm və fəlsəfə iki zidd halətdir. (M.F.Axundov, II 150)» [10,61]

XIX əsrdə publisistik üslubun meydana gəlməsi nəticəsində terminoloji leksika daha da zənginləşdi və istifadəsi geniş miqyas aldı. «Əkinçi» canlı xalq dilindən və hətta onun ayrı-ayrı dialektlərindən geniş istifadə edərək, bir çox sözləri məhdud məhəlli çərçivəsindən çıxarıb ilk dəfə mətbuat

səhifələrinə (ədəbiyyat) daxil etməklə ümumxalq malı etmişdir». [21,185]

XIX əsrdə meydana gələn terminoloji leksikanı yaranma mənbəyinə görə üç qrupa bölmək olar:

1. Ümumxalq dili əsasında meydana gələn terminlər;
2. Ərəb-fars mənşəli sözlər əsasında yaranan terminlər;
3. Rus-Avropa mənşəli terminlər;

XIX əsr elmi üslub mənbələrində alınma (qeyri-türk mənşəli) terminologiyanın funksionallığı, demək olar ki, yüksəkdir; buraya: a) anlaşıqlı ərəb-fars mənşəli; b) qeyri-anlaşıqlı (çətin anlaşılan, perspektivi olmayan) ərəb, fars mənşəli; c) rus-Avropa mənşəli terminlər daxildir, hər üç qrupdan bir sıra nümunələrə diqqət yetirək: a) xalq, mədaxil, məxaric, ticarət, vücud, sərmayə, rütubət, toxum, ittifaq, pəhriz, ifadə, ibarə, rəis, təhlil, təbabət, tibb, iqlim, təqvim, təcrübə; b) müberizeyi-zindəgani, nəşvü-nüma, elmi-kimya, dərəceyi-izafı; c) ustav, ekonomiya, zakon, palajeni, doxod, iştraf, telefon, teleqraf, lineyni, batalyon, çastni, jaloba, taun, redaktor, qəzetə».

Dilimizin leksik qatına daxil olan terminlər elmi üslubda ümumişləklik qazanmaq üçün elmi-kütləvi mətbuat orqanlarının nəşri vacib idi. Görkəmli maarifçi Həsən bəy Zərdabinin nəşr etdiyi «Əkinçi» qəzeti və bu qəzetdə çap olunan elmi məqalələri elmi texnologiyanın yaranmasına təkan vermiş və müxtəlif elm sahələrinə aid terminlərin mətbuata gəlməsinə şərait yaratmışdır.

«Həsən bəy Zərdabi termin yaradıcılığı üçün əsas mənbə olaraq ümumxalq dilini götürmüşdür. O, eyni zamanda azəri dilinin ayrı-ayrı dilalekt və şivələrindən də istifadə edərək bir çox sözləri məhdud dairədən çıxarmış, ədəbi dilə gətirmişdir». [34,11]

«Əkinçi» qəzetinin dilində işlənən terminlərin bir qismi alınma, bir qismi isə milli sözlərdən ibarətdir. Tibb, iqtisadiyyat, hüquq, siyasət, kənd təsərrüfatı və başqa sahələrlə bağlı terminlərin işləndiyi «Əkinçi» qəzeti XIX

əsr elmi terminologiyanın real mənzərəsini əks etdirir. Rus dilindən alınan terminlərin hələ müəyyənləşmədiyindən və ya az işlək olduğundan H.Zərdabi rus mənşəli terminlərdən olduğu kimi istifadə edirdi. Məsələn: sud, mirovoy sud, politika, advokat və s.

«Əkinçi» qəzetinin dilində işlənən terminlərin aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Tibb terminləri: titrədib-qızdırma, yatalaq, ishal, yel və s. [25].

2) İqtisadiyyat terminləri: ticarət, alış-veriş, tamojna, kömrük, podrat, icarə, xırda ticarət, xırda ticarət şəhadətnaməsi və s. [25].

«Əkinçi» qəzetinin dilində söz birləşməsi şəklində olan terminlər də işlənir; Məsələn: kənd sudları, mirovoy sud, okrujnoy sud. Söz birləşməsi şəklində olan terminlərin bəzən hər iki, bəzən də bir tərəfi alınma sözlə ifadə olunur.

Paralel terminlərin işlənməsi «Əkinçi» qəzetinin dilində tez-tez müşahidə olunur. Bu, həmin dövrdə eyni anlayışı bildirən terminlərin paralel olaraq müxtəlif dillərdən alınaraq işlənməsi idi. Podrat-icarə, advokat- vəkil termin cütlüyündə birinci terminlər rus, ikincisi isə ərəb mənşəlidir.

«Əkinçi»nin Azərbaycan ədəbi dili tarixində ən böyük xidməti terminologiyamızı yeni terminlərlə zənginləşdirmək və onu xalqın bütün təbəqələrinə çatdırmasıdır. "Ümumiyyətlə, "Əkinçi" XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı, habelə təbiətşünaslıq elminə aid terminlərin öyrənilməsi üçün qiymətli məxəzdir ". [65,141]

«Elmi» üslubun keyfiyyəti, birinci növbədə, terminologiyaya münasibətdə müəyyənləşdirilir - məsələ belədir ki, əsrin əvvəllərində terminologiya bir tərəfdən (M.F.Axundov və «Əkinçi»dən gələn ənənənin tələbi ilə) milli dilə, digər tərəfdən (müxtəlif elmlərin marağı da burada böyük əhəmiyyət kəsb edir) Şərq və Qərb tendensiyalarına əsaslanır». [34,429]

XIX əsrin sonu, XX əsrin əvvəllərində milli terminologiyamızın sistemli yaranması və milli dilin termin yaradıcılığında əsas mənbə rolunu oynaması

mərhələsi başlanır. M.F.Axundzadə və C.Məmmədquluzadənin əsərlərində, eləcə də «Molla Nəsrəddin» jurnalının dilində işlənən terminlər həm mənbə, həm də mövzu baxımından müxtəlif olmuşdur.

«Ədəbi dilin terminoloji sahəsinə mənsub sözlərin XIX əsrdə elmi dil vahidlərinə çevrilməsində bədii üslubun əhəmiyyətli rolu olmuşdur». [18,68]

XIX əsrin 30-cu illərindən XX əsrin birinci rübünə qədərki dövrdə əvvəlki dövrlərə nisbətən termin yaradıcılığı daha məhsuldar olmuşdur. İctimai iqtisadi və mədəni həyatın müxtəlif sahələrinin inkişafı ilə əlaqədar olaraq rus dilindən alınan, eləcə də beynəlmiləl terminlərdən daha çox istifadə olunmuşdur. Termin yaradıcılığı prosesində həm ədəbi dildən, həm də dilimizin ayrı-ayrı dialekt və şivələrindən bəhrələnərək yeni-yeni milli terminlər yaradılmışdır. Kənd təsərrüfatı ilə bağlı yaranan terminlərin meydana gəlməsində dialekt sözlərdən istifadəyə üstünlük verilirdi. Lakin bu dövrdə terminologiya sahəsində bir sıra nöqsanlar olmuşdur. Belə ki, ərəb-fars mənşəli terminlərin rus və Avropa dillərindən alınan terminlərlə əvəzlənməsi prosesi güclənmişdir. Bu isə uzun müddət terminologiyanın lüğət tərkibinin qeyri-sabitliyinə və paralel terminlərin işlənməsinə gətirib çıxarmışdır.

M.F.Axundzadənin əsərlərinin və H.Zərdabinin «Əkinçi» qəzetinin dilində işlənən terminlər çox hallarda sinonimlik təşkil edir. Bu, əsasən, eyni anlayışı adlandırmaq üçün müxtəlif dillərdən alınaraq işlənən terminlərdən istifadə etməklə yaranır. Həm ərəb-fars, həm Avropa dillərinin ədəbi dilə təsiri XIX əsrdə güclü idi. Azərbaycan dilində işlənən rus mənşəli alınmaların daha surətlə dilimizin lüğət tərkibinə daxil olması bu dövrdən başlayır.

Elmi üslubun müxtəlif sahələr üzrə inkişafı terminologiyanın zənginləşməsində əsas amildir. Bu, XIX əsr terminologiyasının irəliyə doğru inkişafına təkan vermişdir. Müxtəlif elmi anlayışları adlandıran terminlərin ümumişləklik qazanması məhz bu dövrdə mümkün oldu. Elmi və publisistik üslubda hüquq, tibb, təbiət, kənd təsərrüfatı ilə bağlı terminlər müxtəlif

üsullarla yaranırdı. Söz və söz birləşməsi şəklində olan bu terminlər həm milli, həm də alınma terminlər əsasında yaranırdı.

Müəyyən elmlərlə bağlı məfhumları ifadə etmək zərurəti yarandıqda terminləri ya hazır şəkildə başqa dillərdən götürməli, ya tərcümə etməli, ya da onların müvafiq qarşılığı yaradılmalı idi. V.Ədilov XIX əsr terminologiyası haqqında bunları qeyd edir: «Terminoloji leksikanın anlayışlar sistemi ilə bağlılığı XIX əsr ümumədəbi dilinə məxsus termin səciyyəli sözlərdə daha çox özünü göstərir. Həmin sözlərin tərkibi və onların elmi üsluba daxil olma yolları müxtəlifdir». [18,68]

Bu baxımdan terminləri iki qrupa ayırmaq olar :

a) Ümumədəbi dilə məxsus bəzi sözlər elmi üsluba birbaşa daxil olur və konkret məfhumlarla əlaqədar olduğu üçün elmi üslubun terminoloji sistemdə yeni yaranan terminlərdən fərqlənir. Tibb əlyazmalarında təsadüf etdiyimiz sinir, qabırğa, beyin, ənsə, suluq, yanıq, topuq, öd, dalaq, damaq və s.

b) XIX əsr tibb əlyazmalarının dilində işlənən ümumədəbi dilə məxsus terminlərin bir qismi birbaşa deyil, başqa üslubların vasitəsilə elmi üsluba gətirilmişdir.

Göründüyü kimi, terminlərin elmi anlayışlarla bağlı olaraq meydana gəlməsi prosesi XIX əsrdə bütün elm sahələrini əhatə edirdi. Müxtəlif elm sahələrinin yaranması və inkişaf etməsi terminologiyanın əhatə dairəsini genişləndirirdi.

Azərbaycan dilində terminlərin yaranması üçün əsas mənbə Azərbaycan dilinin lüğət tərkibi götürülürdü. A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi yaradıcılığında işlənən elmi istilahlar - terminlər yaşadıqları dövrün terminologiyasının ümumi mənzərəsini yaradırdı. Bu və ya başqa müəlliflərin elmi əsərlərində astronomiya, coğrafiya, dilçilik, tarix, iqtisadiyyatla bağlı işlətdikləri terminlərin əksəriyyəti həmin dövr terminologiyasının, ümumiyyətlə, dilin lüğət tərkibinin zənginləşməsinə xidmət etmişdir. Bu gün azacıq semantik, fonetik dəyişikliyə uğrasa da,

tarixən mövcud olmuş ərəb-fars mənşəli terminlərin bir qismi işlənməkdədir.

Alınma terminlərin geniş işlənməsi zamanı milli qrammatik, fonetik normaya uyğunlaşması prosesi həmin dövrdə də müşahidə olunur.

Müəyyən elm sahəsi ilə bağlı terminlərin yalnız həmin termin sahəsində izlənməsi çərçivəsindən çıxıb daha da genişlənməsi prosesi XIX əsr ədəbiyyatında müşahidə olunur.

«Elmi üslubun formalaşması prosesinin tədqiqi ümumədəbi dilə məxsus leksik vahidlərin elmi dil leksikasına münasibətini, terminoloji məna və termin yaradıcılığı ilə bağlı problemləri ön plana çəkir». [18,67]

XIX əsr elmi üslubunun formalaşmasında termin yaradıcılığı mənbələrinin genişlənməsi, ərəb-fars mənşəli terminlərlə yanaşı, rus-Avropa mənşəli terminlərin də fəal şəkildə istifadəsi həmin dövr alim və ədiblərinin əsərlərində öz əksini tapmışdır.

Xalq danışıq dilindən alınan milli mənşəli terminlərin də tədricən eyni anlayışı ifadə edən alınma terminlərlə əvəz olunması bir tərəfdən həmin dövrün ictimai-siyasi vəziyyəti ilə bağlı idisə, digər tərəfdən Avropa və rus dillərinə maraq olduğu üçün başqa ölkələrin terminlərinin tərcümə edilmədən - olduğu kimi dilə daxil olunması ilə bağlı idi. Bu terminlər bir neçə yolla dilimizə daxil olurdu: rus, Avropa, türk alim və ədiblərinin əsərləri vasitəsilə; mədəniyyətin, mətbuatın, teatrın, maarifin inkişafı ilə; iqtisadi həyatda baş verən dəyişikliklərlə bağlı; dildə alınma terminin milli qarşılığı ilə paralel işlənməsi ilə.

Birinci vasitə ilə dilimizə keçən forma, kvadrat, termometr, kalsium, karbon, spirt, fotoqraf, tamaşa, tema, problem terminləri M.F.Axundzadənin, F.Köçərlinin, C.Məmmədquluzadənin əsərlərində tez-tez işlənmişdir.

Akademiya, tragediya, universitet, loja, aktyor, dram, tiraj, jurnalist, pedaqoq, kandidat, klub, akademik, professor, student, etnoqraf, intelligent, marka, teleqraf, rejissor, teatr kimi terminlər mədəniyyətin, mətbuatın, teatrın, maarifin inkişafı ilə bağlı meydana gəlmişdir. Bu terminlərin bəziləri

fonetik tərkibi nisbətən dəyişmiş şəkildə xalq danışıq dilində də işlənirdi.

Üçüncü vasitə ilə dilimizə keçən alınma sözlər yalnız iqtisadiyyatla bağlı elmi əsərlərdə deyil, publisistik və bədii üslubda, həm də xalq danışıq dilində də işlənirdi: tamojna, pensiya, zakaz, podrat, politika, proqress və s.

Alınma terminlərin üstünlük təşkil etdiyi XIX əsrdə bəzi rus, Avropa mənşəli terminlərin milli və ya ümumişlək sözlə əvəz edilməsi cəhətləri də olmuşdur. Bu da hər hansı elmi anlayışın paralel terminlərlə ifadəsinə səbəb olurdu. M.F.Axundzadə, C.Məmmədquluzadə, Q.Zakir və F.Köçərlinin əsərlərində bu cür paralelliyə rast gəlmək olur: podrat-icarə, deputat-vəkil, sud-məhkəmə, proqres-inkişaf, politika-siyasət, tamojna-kömrük, palajenie-vəziyyət, intelliqent-ziyalı və s.

Alınma və milli terminlərin paralel işlənməsi xalqın öz məişətində bu cür terminləri işlətmək, ondan istifadəyə ehtiyac duymaq tələbindən irəli gəlirdisə, digər tərəfdən Rusiya əsarətində olan Azərbaycan torpaqlarında hökm sürən rus üsul-idarəsi ilə bağlı idi. İqtisadi, siyasi və mədəni sahədəki rəsmi-işgüzar sənədlər, idarələrdəki yazışmalar, əsasən, rus dilində aparıldığından həmin dildən alınan terminlərin də işlənməsinə zərurət yaranırdı.

«XIX əsrdə Azərbaycan dilində terminlərin yaranma mənbəyi çoxalmış ərəb, fars, türk dilləri ilə yanaşı, Azərbaycan, rus və Qərbi Avropa dilləri də bu mənbələr sırasına daxil olmuşdur. Əlbəttə, terminlərin yaranma mənbəyinin artması dövrün, həyatın qarşıya çıxardığı yeni tələblərdən irəli gəlmiş, elmi bu tələblərə uyğun qurmaq, yeni məfhumları ifadə etmək ehtiyacından doğmuşdur». [66,72]

XIX əsrin 30-cu illərindən XIX əsrin I rübünə qədərki dövrdə dilin daxili imkanları hesabına lüğət tərkibinin terminoloji qatının zənginləşməsi prosesi əvvəlki dövrlərdən fərqli olaraq daha çox nəzərə çarpır.

Bu dövrün ən böyük ədiblərindən olan C.Məmmədquluzadənin ədəbi irsini tədqiq edərkən onun dil məsələsinə, ədəbi dilə, lüğət tərkibinə münasibətinin tez-tez şahidi oluruq.

«O vədə cəmi türk kütlələri üçün ümumi və ədəbi dil məsələsi bizi məşğul eləyə bilməzdi, çünki hərənin bir məqsədi və şüarı olan kimi, bizim də şüarımız dil yaratmaq idi, necə ki, yetirdik. Yetirdik də və cavab da alırdıq ki, sonra hədd və hesabsız müxbirlərin əks-sədası bu sözümüzə şahid oldu». [52,162] Ədəbi dilin saflığı uğrunda uzun müddət fəal mübarizə aparmış Mirzə Cəlilin əsərlərində alınma sözlərin mümkün qədər milli sözlərlə əvəz olunması müşahidə olunur.

Dilimizin saflığının, təmizliyinin qorunması işində «Molla Nəsrəddin» məcmuəsinin çox mühüm rolunu da qeyd etmək lazımdır. «Necə ki, oxucularımıza məlumdur ki, «Molla Nəsrəddin» məcmuəsini açıq ana dilində yazmağa başladıq. Biz bu dilə o səbəbdən ana dili adı qoyuruq ki, bu dildə yazı yazılanda və ortalığa «ana» söhbəti gələndə biz «ana» da yazırıq, amma qeyri yazıçılarımız, xah o vədə, xah indi yazılarında «ana» ləfzi rast gələndə «ana» sözü əvəzinə «madər» yazanlar və «ata»nı «pədər» yazanlar dəxi qeyri-türk sözlərini də habelə səbəbsiz yerə fars və ərəb sözünə dəyişirlər». [53,159]

«Molla Nəsrəddin» məcmuəsi 25 ilə yaxın bir dövr ərzində dilin saflığını müxtəlif yad təsirlərdən qorumaq üçün əhəmiyyətli işlər görmüşdür. C.Məmmədquluzadənin ədəbi irsini nəzərdən keçirtdikdə də bunun şahidi oluruq. Bacardıqca daha aydın başa düşülən, ümumişlək olan, milli dilin qrammatik xüsusiyyətlərinə uyğunlaşan istilahlardan istifadəyə can atan ədib alınma terminlərə də ehtiyatla yanaşmış, onların xalq arasında daha tez anlaşılanını işlətməyə cəhd etmişdir, məsələn həmişəlik barışıq, su təsərrüfat işləri, əkin suları, işçi-kəndli müfəttişliyi, tədris ləvazimatı, şuralar qurultayı, neftin imtiyazı, səfirlik və s.

Dövrün ədəbi dilinə ərəb-fars və rus-Avropa təsirlərinin hələ də mövcud olduğu bir dövrdə ədibin alınma söz və terminlərdən istifadəsi qaçılmaz idi. Bu zərurət üzündən ədib əsərlərində hər iki mənbədən - ərəb-fars, rus-Avropa dillərindən dilimizə keçən, milli dildə hələ də qarşılığı olmayan və müasir dövrdə öz işləkliyini saxlayan terminlərdən də istifadə

etmişdir.

Ədibin yaradıcılığında işlənən terminləri mənşəcə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. ərəb-fars mənşəli terminlər: bəyanat, məcmuə, tətil, şivə, ruznamə, firqəçi, tədris ləvazimatı və s.
2. rus-Avropa mənşəli terminlər: teleqraf, anomalogiya, atrebut, burjua, sirk, kuryer, konfrans, teatr, metod, aklad, doktorlar klubu və s.
3. türk mənşəli terminlər: dəmir yol, əkin suları, barışıq, kömrük və s.

Müşahidələr göstərir ki, C.Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan «Molla Nəsrəddin» jurnalınında ədibin özünün və onun müasirlərinin işlətdiyi alınma terminlər çoxluq təşkil etmişdir. Bu, o dövrdə müxtəlif elm sahələri üzrə terminologiyaların, əsasən, alınma olduğunu, milli terminlərlə paralel işləndiyini söyləməyə əsas verir.

Ümumiyyətlə, XX əsrin əvvəllərində termin yaradıcılığı istiqamətləri və meyilləri milli, ərəb-fars və rus-Avropa dillərinə əsaslanırdı.

§ 1.2. Müstəqillik illərində terminologiyanın inkişaf istiqamətləri

1990-cı ildən sonra respublikamızda əldə olunan müstəqillik xalqımızın tarixində ən əlamətdar hadisə oldu. Milli mədəniyyətin tərkib hissəsi olan Azərbaycan dilində müxtəlif dillərin və fərqli istiqamətlərin nəticəsində zənginləşməsi prosesi getməyə başladı. Qərbi Avropa, qonşu türk dövlətləri ilə qarşılıqlı əlaqə terminologiyanın inkişaf istiqamətlərinə təsir etdi.

Avropa və türk dillərindən istifadə müəyyən tarixi köklərlə bağlıdır. Hələ XIX əsrdən başlayaraq dilimizdə rus dili vasitəsilə keçən Avropa mənşəli terminlər işlənməkdə idi. Əsasən, beynəlmiləl səciyyə daşıyan bir çox terminlər ayrı-ayrı ölkələr və dillər arasında müəyyən sahələrdə əlaqələrin yaranmasının nəticəsi idi.

«Müasir dövr elm və texnikanın, mədəniyyət və idmanın, cəmiyyətin digər ictimai sahələrinin sürətli inkişafı ilə səciyyələnir. İnternasional terminologiya fondu dünya dillərinin bir-birinə yaxınlaşmasına güclü təkan verən başlıca amildir. Hətta elə hallar olmuşdur ki, internasionalizmlər ilə dolğun terminoloji laylar vasitəsilə vahid dünya dilinə keçməyin mümkünlüyü mülahizəsini irəli sürmüşlər». [31,27]

Müstəqillik illərində müxtəlif elm sahələrinə aid terminlərin yaranmasında aşağıdakı istiqamətlər müşahidə olunur:

1) Dilimizin daxili imkanları əsasında yaranan terminlər;
2) Avropa dillərindən alınan terminlər;
3) Türk dillərindən alınan terminlər.

Son dövrlərdə Azərbaycanın müstəqil olması dilimizin daxili imkanları əsasında termin yaradıcılığını əsas istiqamətlərdən birinə çevirmişdir. «Klassiklərimizin əsərlərində, yazılı abidələrdə, «Əkinçi» (1875) qəzetindən başlamış bütün sonrakı mətbuatda da terminologiya məsələlərinə ərəb, fars, Avropa mənşəli bəzi terminlərin qarşılığının tapılmasına xüsusi

əhəmiyyət verilmişdir. Ziyalılarımız müxtəlif elm sahələrinə aid alınma terminlərlə yanaşı, Azərbaycan dilinin daxili imkanları hesabına termin yaradılmasını həmişə ön plana çəkmişlər». [51,20]

Əsasən, XX əsrin 60-cı illərindən başlayaraq, dilimizin lüğət tərkibində yaranan özləşmə meyilləri daxili imkanlara əsaslanaraq meydana gəlirdi. Bu meyil alınma sözlərin yerində millisini işlətməklə səciyyələnirdi. Doğrudur, bu meyil nəticəsində müəyyən miqdarda alınmalar dilin lüğət tərkibinin imkanları nəzərə alınmaqla, milli sözlərlə əvəz olunmuşdur, lakin bunu bütün alınmalara tətbiq etmək qeyri-mümkündür.

«Özləşmə dedikdə, hər cür yeni söz yaradıcılığı başa düşülmür. Bu elə prosesdir ki, daha çox mövcud qeyri-türk mənşəli sözlərin işlədilməsi əleyhinə yönəlir və məhz həmin sözlər üçün qarşılıq tapmaq cəhdindən ibarət olur».

Özləşmə üç yolla gedir: 1) hər hansı söz ustasının qədim mənbələrdən, xalq dilindən söz götürməsi, yaxud mövcud oxşarlıq əsasında söz yaratması yolu ilə; 2) cəmiyyətin özündə müəyyən hadisə ilə bağlı «söz partlayışı» yolu ilə; 3) türk dillərinin təsiri ilə. [24,123]

Dil daxilində gedən təbii proseslərdən biri olan alınma sözlərin türk mənşəli sözlərlə əvəz olunması prosesi əvvəllər də olmuş və bunun nəticəsində bir sıra sözlər yaranmışdır. Məsələn, ildönümü (yubiley), görüntü (mənzərə), bildiriş (elan), soyad (familiya), toplum (cəmiyyət), çağdaş (müasir), soykökü (nəsil) və s.

1990-2000-ci illlərdə qonşu türk dövlətləri ilə, xüsusilə Türkiyə ilə qarşılıqlı mədəni əlaqələrin inkişafı da bu prosesin sürətlənməsinə kömək etdi. Belə ki, eyni kökdən olan Azərbaycan və Türkiyə türkcəsi üçün ortaq olan, lakin rus dilinin uzunmüddətli təsiri nəticəsində lüğət tərkibimizdə işlək olmayan bir sıra ortaq türk sözləri alınmaların qarşılığı olaraq işlənməyə başlandı. Terminlərin işlənməsində paralellik meydana gəldi. Hər bir sözün yenicə daxil olduğu dilə uyğunlaşması, adaptasiya prosesi başlandı. 2000-ci ilin sonlarında bu paralellik hələ də qorunub saxlanırdı: transilyasiya-canlı

yayım; kompyuter – bilgisayar; vəziyyət – durum; ərazi – bölgə; koomunikasiya – rabitə; atmosfer – mühit; jurnal – toplu – dərgi ; kontrabanda – qaçaqmalçılıq; kvorum – yetərsay.

«Son on ildə Türkiyə türkcəsindən bir sıra sözləri çıxmaq şərti ilə çoxlu lüzumsuz söz və ifadələr gətirilir. Özü də bunu, əsasən, savadlı təbəqə, ziyalılar edir. Onda belə bir haqlı sual doğur ki, məgər başqa türk dillərindən belə sözlər gətirməyə ehtiyac yoxdurmu? Mənə müxtəlif sərt cavablar verilə bilər, lakin fakt faktlığında qalacaq: patuş (şəhər meri), toplum yapmaq, fədakarlıq yapmaq, kuruyer, öncələr, ərənliklər yapan,hörqut, mazis (tarixi keçmiş), köşə yazılar, anayasa, gündəmə gətirmək və s. Nazim Hikmət deyirdi ki, sizin «bildirişiniz» bizim canımızı ərəblərin «elan»ından qurtardı. Başqa türk dillərindən belə sözlər gətirilməlidir» [23,86].

Müəllif haqlı olaraq, kortəbii şəkildə dilimizə, terminologiyamıza daxil olan yeni sözlərin normativləşməsini, yalnız dar çərçivədə işlənməsini qeyd edir və bunun dilimizə zorla daxil edilməsinə qarşı çıxır.

Son illərdə türk dillərinin, xüsusilə Türkiyə türkcəsinin təsiri termin yaradıcılığında müsahidə olunur. Milliləşmə prosesinin və onun müəyyənləşdirilməsinin də özünəməxsus xüsusiyyətləri mövcuddur.

«Bu, hər şeydən öncə dillərin müəyyən qanunauyğunlugu, imkanları çərçivəsində baş verir. Dillərin müasir inkişafının perspektivləri göstərir ki, türk dilləri içərisində milliləşmə prosesini daha canlı şəkildə nümayış etdirən Türkiyə türkcəsidir. Milliləşmə, bu türkcədə təkcə sözdə deyil, əməldə də həyata keçirilir. Məs.: diskussiya-tartışma, disput-tartışma, differensasiya-ayrımlaşma peyzaj-görünüm, perifraz-dolaylama, period-dönəm və s.» [37,10].

Müstəqillik illərində meydana çıxan bir sıra terminlər söz birləşməsi şəklində yaranır və tərəfləri alınma, milli sözlərlə ifadə olunur. Bu cür birləşmələr, əsasən, ismi birləşmələr olur və tərəflərin ifadəsinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. tərəfləri yalnız milli sözlərlə ifadə olunanlar: özəlləşdirmə payı, çirkli pulların yuyulması, axtarma qurğusu və s.
2. bir tərəfi milli sözlə ifadə olunan: maraq dairəsi, ekoloji çirklənmə, təşkilatların dəstəyi, əhali gəlirləri və s.
3. bütün tərəfləri alınma olanlar: investisiya mübadiləsi, milli strategiya, enerji layihəsi, real istehlak həcmi.

Tərəfləri alınma sözlərlə ifadə olunan terminlərin ifadə vasitələri də fərqlidir: 1. yalnız Avropa mənşəli sözlərlə ifadə olunanlar; 2.yalnız ərəb və fars mənşəli sözlərdən ibarət olunanlar; 3. Avropa, ərəb və fars mənşəli sözlərlə ifadə olunanlar;

Dil yalnız alınma sözlərin hesabına zənginləşmir, həm də lüğət tərkibində heç bir alınma qarşılığı olmayan yeni laksemlər yaranır. Bu sözlər müəyyən tarixi şəraitin nəticəsi olur. Zaman keçdikcə bu sözlərin bir hissəsi lüğət tərkibində qorunub saxlanılır, bir qismi isə tarixizmə çevrilir: soyqırım, soydaş, istilikölçən, çağdaş və s.

Mətbuatda daha çox reallaşan yeni terminlərə bəzən obyektiv deyil, subyektiv yanaşma olur. Bu, dil daşıyıcısının dil faktında dəyişmə aparması ilə nəticələnir. Son dövrlər mətbuatda tez-tez rast gəldiyimiz və "milli komandamız" əvəzinə "millimiz" sözünün işlənməsi belə faktlardandır.

Hər bir söz və ya termin müəyyən dəyişikliyə uğrasa, onun ifadəsi və başa düşülməsi çətinləşər. İdman termini olan "milli komandamız" əvəzinə "millimiz" işlənməsi təbii proses olsa da, lakin bütünlükdə lüğət tərkibində məfhumu tam ifadə edə bilməyərək söz öz terminoloji qatından kənarda daha geniş və fərqli anlayış ifadə etmək imkanı qazanır. Bunun nəticəsində sözdə məna genişlənməsi baş verir. Milli strategiya, milli siyasət, milli kadrlar, milli bayramlar, milli musiqi birləşmələrinin millimiz sözü ilə ifadə etmək mümkün olmasa da, idman sahəsində işlənən milli komandamız terminində bu proses baş verib.

Alınma mənşəli bir çox terminlər şəkilçilər və termin elementlərlə birlikdə dilə daxil olurlar. Bu termin elementlər mənşəcə müxtəlif olur.

N.Məmmədli termin yaradıcılığında rol oynayan bu elementləri funksionallığına görə iki qrupa ayırır:

1. Prepozitiv (söz əvvəlinə qoşulan) elementlər;
2. Pastpozitiv (söz sonuna qoşulan) elementlər.

Müəllif prepozitiv elementləri iki qrupa bölür:

a) konservativ termin elementlər

b) deformativ termin elementlər. [56,7-8]

Termin tərkibində müstəqilliyini saxlaya bilən prepozitiv elementlər konservativ şəkilçi xarakteri daşıyanlar və deformativ elementlər adlanır. Fikrimizcə, terminlərlə birlikdə dilimizə daxil olan bu şəkilçi və elementlər yeni söz yaradıcılığında o qədər də işləklik qazanmır. Bu, bir tərəfdən şəkilçi və elementlərin mənsub olduğu dildən dilimizə söz kökləri ilə birlikdə keçməsi ilə bağlıdırsa, digər tərəfdən dilimizin iltisaqiliyi ilə bağlıdır.

-avia, -avto, -aqro, -anti, -arxe, -mono, -makro, -mikro, -dez, -de, -an, -be və s. konservativ və deformativ elementlər alınan dildə termin yaradıcılığında məhsuldardır; aviakassa, avialayner, avtonim, aqrotexniki; monoqrafiya, makromühit, mikromühit, dezodorasiya, devalvasiya və s.

Müəllif bununla bağlı yazır: «Termin yaradıcılığında yunan və latın dillərinə məxsus beynəlmiləl sözdüzəltmə elementlərinə, qrammatik vahidlərə üstünlük verilməsinin müxtəlif səbəbləri vardır. Əvvəla, bu müəyyən tarixi ənənə ilə bağlıdır, ikincisi, fikir dəqiq, aydın və variantsız ifadə edilir, üçüncüsü, ölü dillər hesab olunan yunan və latın dillərinin kök-şəkilçi sistemi arasındakı daxili əlaqələr inkişafdan qaldığı üçün dil elementləri sabitliyini qoruyub saxlayır və həmin elementlərdən hətta müxtəlif linqvistik sistemli dillərdə eyni şəkildə istifadə edilir; ən başlıcası isə konkret bir dildə həmin elementlər süni surətdə mexaniki birləşdirilir, lakin düzələn termin həmin dilin öz vahidi hesab olunmur». [56,6]

Göründüyü kimi, terminologiyanın inkişaf istiqamətləri müstəqillik illərində ayrı-ayrı mənbələrə əsaslanır, lakin dilin daxili imkanları, Avropa, türk dilləri əsasında termin yaradıcılığı aparıcıdır. Bu istiqamətlər arasında

müəyyən fərqlər olsa da, onları birləşdirən əsas cəhət odur ki, yaranan və alınan termin dilimizin fonetik, leksik, qrammatik qaydalarına əsaslanmalıdır.

§ 1.3.Müstəqillik illərində yaranan terminoloji lüğətlər

1990-cı ildən başlayaraq ictimai, iqtisadi, mədəni, elm sahələrinin inkişafı ilə bağlı olaraq yaranan terminoloji leksikanı əhatə edən lüğətlərin tərtibi leksikoqrafların gərgin və məhsuldar fəaliyyətinin nəticəsidir. Müasir dövrdə elmi tərəqqi ilə bağlı, elmi-texniki, texniki terminologiyaların lüğət tərkibini əhatə edən bir çox lüğətlərin tərtibi zərurətdən irəli gəlirdi. Bu zərurət nəticəsində iki, üç, dörd dilli lüğətlər nəşr olunmuşdur. Çoxdilli lüğətlərin yaranması bir tərəfdən dünya ölkələri ilə müxtəlif sahələrdəki əlaqə ilə bağlıdırsa, digər tərəfdən xarici ölkələrdən respublikamıza gələn iş adamlarının bu lüğətlərə olan tələbatı ilə əlaqədardır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra dilimizə çox sayda terminlər daxil olmuşdur. Lüğətçiliyin inkişafı, təkmilləşməsi nəticəsində müxtəlif sahələrinin lüğət fondunu tam və geniş şəkildə əhatə edən yeni terminoloji lüğətlərin yaranmasına ehtiyac vardır.

S.Kərimov yazır: «Terminologiya probleminin həlli hər bir sahənin səviyyəsini nəzərə almaqla hazırlanan izahlı terminoloji lüğətlərin yaradılması deməkdir». [38,17].

«Terminoloji bazanın yaradılması üçün müxtəlif sahələrə aid terminoloji lüğətlərin tərtibi vacibdir. Doğrudur, indiyədək çap olunmuş terminoloji, lüğətlərdən bəziləri bugünkü tələbatı ödəmir. Çünki bu gün elm və texnikanın, iqtisadiyyatın, diplomatiyanın belə sürətli inkişafı nəticəsində dilimizə gündən-günə xeyli termin daxil olmaqdadır» [38,74].

Mahmud Kaşğaridən müasir dövrə qədər lüğətçilik uzun bir inkişaf yolu keçmişdir. Lüğətlərin formalaşması üçün lazım olan bir sıra qaydalar müəyyən edilir. Bu sahədə M.Qasımovun irəli sürdüyü prinsipləri qeyd etmək olar:

1. Terminoloji lüğətlər tərtib edilərkən birinci növbədə elm və texnikanın terminologiya cəhətindən ehtiyac hiss edilən sahələri nəzərə alınmalıdır.
2. Terminoloji lüğətlərin hansı sahələr üzrə yaradıldığı, nə qədər termin əhatə edəcəyi, eləcə də məqsədi respublikamızda elmin və texnikanın, mədəniyyətin inkişaf perspektivi ilə, azəri ədəbi dilinin inkişaf perspektivi ilə əlaqələndirilməlidir.
3. Terminoloji lüğətlərin sözlüyündə elm və texnikanın bu və ya digər sahəsində tez-tez işlədilən, mətbuatda, orta və ali məktəb dərsliklərində özünə möhkəm yer tutmuş və həqiqətən ehtyac hiss edilən terminlər verilməlidir.
4. Rusca-azərbaycanca terminoloji lüğətlərin sözlüyünə daxil edilən terminlər isim formasında, həm də adlıq halda işlədilməlidir.
5. Terminoloji lüğətin sözlüyü elm və texnikanın müasir inkişaf mərhələsini əks etdirməlidir.
6. Artıq köhnəlmiş, yeni məfhumlara və anlayışlara müvafiq olmayan terminlər lüğətlərə daxil edilməməlidir. [25, s.41-42]

M.Qasımovun müəyyənləşdirdiyi bu prinsiplərin bir çoxu müasir lüğətçilik üçün də vacibdir.

Son illər, xüsusilə 1980-ci ildən sonra müxtəlif sahələr üzrə terminoloji lüğətlərin yaranması prosesi başlanır. «1980-cı illərin xüsusiyyəti odur ki, müxtəlif sahələr üzrə terminoloji sabitləşmə başlayır. Bu illərdə və bu illərdən qabaqkı onilliklərdə, əlbəttə, inkişaf, zənginləşmə açıq-aydın görünür. Lakin bununla yanaşı, vahid prinsip izlənir. Bu illərin mühüm əlamətlərindən biri də odur ki, Azərbaycan dilinin materiallarına, milli

leksikoqrafiyaya xüsusi diqqət verilmiş, lüğət tərtib olunaraq nəşr edilmişdir» [2, 42].

«Terminoloji lüğətçilik məsələləri» adlı əsərdə [14] B.Cəfərova terminoloji lüğətlərin müasirlik aspektindən növləri, tərtibi prinsiplərini işləyib hazırlamış, lüğətlərin həm dil, həm də tərkibi baxımından təsnifini vermişdir. Müəllif müasir terminoloji lüğətlərin təsnifində aşağıdakı prinsipləri gözləmişdir:

1. Təqdim edilən dillərin sayına görə – birdilli, ikidilli, çoxdilli.

2. Terminlərin sayına və izahına görə izahlı və ensiklopedik.

3. Təqdim olunan sahə və bilik sahələrinə görə müəyyən sahə və ixtisasına aid darsahəli, çoxsahəli terminoloji lüğətlər.

«Məlum olduğu kimi, sovet dövründə azərbaycanlı vətəndaşların böyük əksəriyyətinə bir əcnəbi dil – rus dilini bilmək zəruri idi. Yəni onlara iki lüğət: azərbaycanca-rusca və rusca-azərbaycanca lüğət kifayət idi. Azərbaycan müstəqillik qazandıqdan sonra yaxın xariclə əlaqələr yaratmaq üçün yararlı olan rus dilindən əlavə həmvətənlərimizin uzaq xariclə əlaqə yarada bilməsi üçün ən azı daha bir dil, yəni beynəlxalq aləmdə daha geniş yayılmış ingilis dilini də öyrənmək problemi ortaya çıxmışdır. Deməli, onlar üçün daha iki lüğət: azərbaycanca-ingiliscə və ingiliscə-azərbaycanca lüğətlər də vacib oldu» [62,42].

Son dövrlərdə dar sahələr üzrə terminoloji lüğətlər daha çox tərtib edilir. Müəyyən elm sahəsi, hətta həmin elm sahəsinin bölmələri əsasında terminoloji lüğətlərin yaranması da təqdirəlayiqdir. 1980-cı ildə «Rusca-azərbaycanca informasiya-ölçmə texnikası terminləri lüğəti; [94,], 1982-ci ildə «Rusca-azərbaycanca dəftərxana və mühasibat terminləri lüğəti» [108], 1984-cü ildə «Rusca-azərbaycanca izahlı hərbi terminlər lüğəti» [109], 1993-cü ildə «Rusca-azərbaycanca bazar iqtisadiyyatı terminləri lüğəti» [107], 1994-cü ildə «İqtisadiyyat terminləri lüğəti» [103], 1998-ci ildə «Azərbaycan kənd təsərrüfatı terminləri» [99], «Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti» [89], 1999-cu ildə «İzahlı psixoloji lüğət»

[100], 2002-ci ildə «Kino, televiziya, radio terminləri izahlı lüğəti», [98], 2003-cü ildə «Rusca-azərbaycanca fövqəladə hallarla bağlı terminlərin izahlı lüğəti» [97], 2004-cü ildə «Qaynaq istehsalına aid izahlı terminlər lüğəti» [93], «Rabitə terminləri lüğəti» [105], və başqa yeni lüğətlər nəşr olunmuşdur.

S.Sadıqova terminoloji lüğətlərin tərtibində bu prinsipləri gözləməyi əsas tutaraq yazır:

1. Ümumən elmlərin, ayrı-ayrı sahələrin əsas anlayışlarını müəyyənləşdirmək.

2. Həmin anlayışların dəqiqliyini müəyyənləşdirmək və anlayışları sistemə salmaq.

3. Əgər mövcud terminoloji sistem bu və ya başqa şəkildə pozulmuşdursa, onu müəyyən bir meyar əsasında yenidən təkmilləşdirmək. [65, 178].

Sözsüz ki, müəlliflər bu prinsipləri irəli sürərkən lüğətlərdəki sözlərin elmilik, konkretlik, məntiqilik kimi əsas meyarlarını gözləməyi də vacib saymışlar.

2002-ci ildə nəşr olunan «Kino, televiziya, radio terminləri izahlı lüğəti» bu sahədə yaradılan ən sanballı lüğətlərdəndir. Kütləvi informasiya məkanında baş verən yeniləşmələr, terminologiyasının zənginləşməsi bu lüğətdə geniş əks olunub. Lüğətə ön söz yazan S.Sadıqova terminologiyanın müxtəlif inkişaf meylləri ilə bağlı bunları qeyd edir: «Kino, teleradio istehsalı və yayım texnologiyasının inkişafı ilə bağlı xarici dillərdə yaranan saysız-hesabsız terminlər sürətlə Azərbaycan dilinin də lüğət fonduna daxil olur. Mütəxəssislər bu terminlərin mümkün, uyğun qarşılığını tapmağa və onu praktikada işlətməyə çalışırlar. Lakin bu terminlərin əksəriyyətinin uzun müddət rus dilində, indii isə daha çox ingiliscə işlədilməsi səbəbindən mövcud sahənin həm elmi-nəzəri, həm praktik sahəsində, həm də tədris prosesində çoxsaylı çətinliklər yaratması faktdır». [98,4]

Lüğətdə həm dilin daxili imkanları əsasında yaranan, həm də başqa dillərdən alınan kino, televiziya, radio terminlərinin izahı verilmişdir. İzahla yanaşı, terminlərin azərbaycanca-ingiliscə-rusca qısa lüğətinin verilməsi də məqsədəuyğun sayılmışdır.

Dilimizin daxili imkanları əsasında yaranan terminlər üzərində aparılan müşahidələr göstərir ki, bir, iki, üç və daha çox sözdən ibarət olan terminlərin tərəfləri, əsasən, milli şəkilçilərlə formalaşır. Ağartma, yayım, yazı, gücləndirici, bölüşdürülmə və s. terminlər bir və ya daha artıq milli leksik şəkilçilərlə, işıq axını, geniş yayım, çəkiliş ölçüsü, baxış boşluğu və s. ismi birləşmə şəklində olan terminlərin isə hər iki tərəfi həm milli sözlər, həm də şəkilçilər vasitəsilə yaranıb.

Nəzərə alsaq ki, kino, televiziya, radio Avropa ölkələrində yaranıb və inkişaf edib, o zaman alınma terminlərin aktiv işlənməsi danılmaz faktdır. Bu baxımdan lüğətdə əhatə olunan terminologiyanın əsas hissəsini alınmalar təşkil edir.

Kino, televiziya radio terminlərinin izahlı lüğəti üzərində aparılan araşdırmalar göstərir ki, milli və alınma olan terminlərin əsas hissəsi bir və ya iki sözdən ibarətdir. Termini səciyyələndirən bu cəhət, yəni az komponentli olması tez qavranılmasına və asanlıqla işlənməsinə kömək edir.

Lüğətdəki terminlərin qarşısında alındığı dildəki variantı da verilmişdir. Milli və alınma olan terminləri və birləşmələri mənşəyinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1) milli sözlərdən ibarət olan: arxa işıq, çəkiliş ölçüsü, özəl yayım, baxış boşluğu və s.

2) I tərəfi milli və II tərəfi alınma sözlərdən ibarət olan: aralıq pozuntusu, seçilmiş piramida, döşəmə stativi və s.

3) I tərəfi alınma, II tərəfi milli sözlərdən ibarət olan: məlumat göstəricisi, kamera işığı, kadrda çıxış və s.

4) Hər iki tərəfi alınma olan: maqnit antenası, passiv mikser, akustik perspektiv, reklam kompaniyası və s.

Lüğətdə kalka üsulu ilə yaradılan bir çox terminlər, termin-birləşmələr var. Bu kalkaların yaranmasında milli şəkilçilərdən də istifadə olunmuşdur. Məsələn: təsvir-asma, işığın səpilməsi, mikrafonların təsnifatı və s.

Son dövrlər terminologiyada müşahidə olunan istiqamətlərindən biri də türkdilli dövlətlərin dilindən termin alınması prosesinin fəallaşmasıdır. Bu, «Kino, televiziya və radio terminləri» izahlı lüğətində öz əksini tapmışdır, məsələn: özəl, zaman ayarlaması, yayımçı və s.

Yuxarıda qeyd etdiyimiz kimi, lüğətdə çoxkomponentli terminlərin miqdarının az olduğunu müşahidə etdik. Bu, kino, televiziya, radio terminlərinin az zamanda formalaşması, termin yaradıcılığında, əsasən, yığcamlıq, konkretlik, dəqiqlik prinsiplərinin gözləndiyini göstərir.

Müşahidə etdiyimiz üç və bəzən də dörd sözlü termin-birləşmələr də daha aydın başa düşülən, tez yadda qalan sözlərdən tərtib olunmuşdur; məsələn: müstəqil rəqəmli, yaddaş sistemi, obyektivin açıq qalma müddəti, filmin geri fırladılması, obyektivin arxa kəsiyi, başlıqların avtomatik tənzimlənməsi və s.

Lüğətdə alınma terminlərin milli şəkilçilərlə birlikdə işlənməsi zamanı, əsasən, aşağıdakı şəkilçilərdən istifadə olunmuşdur:

-çı[4]; montajçı

-lık[4]; ambivalentlik

-lı[4]; komponentli

-laş[2]+dır[4]+ma; kodlaşdırma, balanslaşdırma və s.

Morfoloji üsulla yaradılan alınma terminlər çox zaman alındığı dilin leksik şəkilçiləri ilə birgə işlənir:

-ma; anaqramma, diafraqma,

-iya; kinomatoqrafiya, sublimasiya, kolliziya.

-izm; maklüenizm, lakonizm.

Ümumiyyətlə, lüğət Azərbaycanda kino, televiziya, radio sahəsinə aid ilk geniş həcmli lüğətlərdəndir.

Müstəqillik illərində bir çox sahələrdə, xüsusilə dəqiq elmlər sahəsində xeyli terminlər yaranmışdır. Bu da yeni-yeni lüğətlərin yaradılmasını və nəşrini zəruri edir. 1991-ci ildə müstəqilliyimizin ilk illərində yaranan «Rusca-azərbaycanca elektrotexnika terminləri lüğəti» [106] nəşr olundu. İkidilli lüğətin yaranmasının əsas səbəbi son nəşrdən xeyli vaxt keçməsi və bir çox terminlərin köhnəlməsi və yenisi ilə əvəz olunmasıdır. «Azərbaycan dilində elektrotexnika terminləri lüğəti» ilk dəfə 1931-ci ildə prof.A.Axundov və b. tərəfindən hazırlanmışdır. Təkmilləşdirilmiş və əlavələr edilmiş ikinci belə bir lüğət isə Z.İ.Kazımzadə və M.M.Salamzadənin təşəbbüsü ilə 1958-ci ildə çap olunmuşdur.

Lüğətdə 5400-dən artıq termin və termin-birləşmə işlənmişdir. Lüğətin tərtibçiləri Zəki Kazımzadə və Rəna Kazımzadədir.

Elektrotexnikanın inkişaf etmiş və istehsalatda geniş tətbiq olunmuş elm sahəsi olduğunu nəzərə alsaq, lüğətin terminologiya sahəsində faydalı bir mənbə olduğunu söyləməyə ehtiyac yoxdur. Termin yaradıcılığında leksik, morfoloji, sintaktik və kalka üsulundan istifadə etməklə yeni-yeni terminlərin yaranması prosesini bu lüğətdə müşahidə etmək olar:

1. leksik yolla: addım mühərriki, sürüncək qığılcım, sarğac və s.
2. morfoloji üsulla:

- ma[2], çevirmə, ayırma, tənzimləmə və s.

-lık[4] qutbilik, ardıcıllıq, nüfuzluq, içlik və s.

-ıcı[4] çevirici, kəsici, qırıcı və s.

-ış[4]; açılış, çıxış və s.

3. sintaktik üsulla: fotoelement, fotocərəyan, əksetmə, meyletmə araölçən, süzgəc xanası, ara qatı işəsalma, hasaraalma və s.
4. kalka üsulu ilə: ölçü kompleksi, budaq dəyişməsi, veriliş əmsalı, atom qazanı, həssaslıq əyrisi, doyma gərginliyi və s.

1993-cü ildə informatika üzrə üçdilli (rusca-azərbaycanca-ingiliscə) və 1997-ci ildə dörddilli (rusca-azərbaycanca-ingiliscə-türkcə) izahlı terminoloji lüğətin hazırlanması bu sahədə ən uğurlu işlərdən sayıla bilər. Bu lüğətlərin tərtibçisi AMEA-nın müxbir üzvü S.Q.Kərimov aşağıdakı prinsipləri gözlədiklərini qeyd edir:

1. «Yeni terminlərin ekvivalentinin seçilməsində beynəlxalq miqyasda işlədilən ingilis dilindəki terminlərə üstünlük verilir. (məs., kompüter, printer, piksel, servis, dialoq, skaner, intropera bellik, repozitor və s.)».

2. Termin yaradılarkən onun şərti mənası deyil, daşıdığı məna nəzərə alınır.

3. Texnikanın müxtəlif sahələrində müxtəlif məna kəsb edən omonim terminlər mövzu sahəsinin xüsusiyyətlərinə görə təyin olunur. Məsələn, latınca produstio sözündən yaranmış qısa «produküiə» sözünün dilimizdə işlədilən «məhsul» ekvivalenti informatikada bəzən «məhsul» (məs., proqram məhsulu) bəzən isə «produküiə» kimi (ekspert sistemlərində) işlədilir.

4. Azərbaycan dilində bir neçə variantda ifadə oluna bilən rus termininin lakonik və mənaca daha uyğun gələni ekvivalent kimi seçilir. (məs., struynıy printer-şırnaqlı printer, prokrutka izobrajeniə-təsvirin burulması).

5. Beynəlxalq miqyasda işlədilən sistemlərin, tədqiqi proqram paketlərinin, redaktorların və s. adları ingilis dilində olduğu kimi saxlanılır. (məs., MS-DOS,Windows, Word, Excel, FoxPro).[38,17]

İnformasiyaya aid nəşr edilmiş terminoloji lüğətlərdən biri də «İnformatika, telekommunikasiya, radiotexnika üzrə ingiliscə-rusca-azərbaycanca terminoloji lüğət» adlanır. Lüğət üç sahəyə aid olsa da, burada əsas yeri informatika ilə bağlı terminoloji vahidlər tutur. Bu lüğətdə 5000-dən artıq terminin üç dildə qarşılığı verilmişdir. Əvvəlki informatika lüğətlərindən fərqli olaraq bu lüğətdə yeni informasiya texnologiyası ilə bağlı terminoloji vahidlərə çox üstünlük verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Terminologiya Komissiyasının qərarı ilə 2002-ci ildə nəşr olunan «Azərbaycanca-türkcə-rusca-ingiliscə ehtimal nəzəriyyəsi və riyazi statistika lüğəti» [88] son dövrlərdə yaranan ən mükəmməl lüğətlərdən biridir. XX əsrin ikinci yarısında sürətlə inkişaf edən ehtimal nəzəriyyəsi və riyazi statistika bu gün mühüm tətbiqi əhəmiyyət daşıyan elm sahəsidir. Azərbaycanda riyaziyyat elmi qədim tarixə malik olduğundan onun terminologiyası da zəngin və əhatəlidir. Ona görə də bu lüğətdə toplanan sözlər həm milli, həm də beynəlmiləl səciyyə daşıyır. Terminlərin dörd dildə verilməsi həm ehtimal nəzəriyyəsi və riyazi statistikaya aid müxtəlif dillərdə olan elmi mənbələrdən istifadə etməyə imkan verir, həm də ayrı-ayrı dillərdə işlənən terminlərin müqayisəli təhlilinə şərait yaradır.

«Qeyd edirik ki, biz lüğəti tərtib edərkən Azərbaycan və türk dilindəki terminlərin eyni olmasına çalışdıq. Arzu edirik ki, türkdilli xalqlar üçün vahid terminoloji lüğət tərtib olunması istiqamətində alimlər tərəfindən də müvafiq addımlar atılsın». [88,5]

Onu da qeyd etmək lazımdır ki, lüğətdə termin və anlayışların Azərbaycan və türk dillərində müvafiq qarşılığı seçilərkən tərcümə olunan termin və anlayışların hansı dildə ilkin yaranması, əvvəl işlənməsi müəlliflər tərəfindən nəzərə alınmışdır.

Lüğətlə tanışlıq göstərir ki, verilmiş terminlərin xeyli hissəsi, söz birləşmələri şəklində olan terminlərin özləri də müxtəlif üsullarla yaranmışdır. Diqqətəlayiq haldır ki, bu sahədə işlənən beynəlmiləl terminlərlə yanaşı, milli sözlərdən ibarət söz birləşməsi şəklində olan terminlər də kifayət qədərdir.

Hər iki tərəfi milli sözlərdən ibarət olan ehtimal nəzəriyyəsi və statistika terminləri hər hansı elmi anlayışın yığcam və daha konkret ifadəsinə xidmət edir. "Aparıcı ölçü", "çoxluğun kəsiyi", "paylanmalar qarışığı", "kəsik seçim", "keçid sıxlığı" kimi terminlərin hər iki tərəfi milli sözlərdən təşkil olunmuşdur.

Birinci tərəfi beynəlmiləl, ikinci tərəfi milli terminlərdən ibarət birləşmələr lüğətdə elmi anlayışların izahına xidmət etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Requlyar axın, loqistik paylanma, majorlanmış yığılma ordinar axın, informasion ölçü və s. termin-birləşmələrin yaranmasında isim düzəldən şəkilçilərdən istifadə olunmuşdur. Termin yaranması prosesində bu işin əski də baş verir. Birinci tərəfi milli, ikinci tərəfi alınma olan- termin birləşmələrə də rast gəlmək olur: toplu korelasyonu, yığım prosesi, paylanma funksiyası, parçalama metodu və s.

«Müvafiq elm sahələrinin yüksəlişi və inkişafı və ortaya çıxan ən yeni problemlərin yenidənqurma baxımından qavranılması ilə bağlı leksik-terminoloji materialların çoxalması, adətən, ənənəvi üsullarla reallaşır. Burada yeni söz və terminlərin başqa dillərdən alınması və ya bəzi hallarda dildəki söz və terminlərin yeni məna kəsb etməsi mühüm yer tutur ki, bu da dilin zənginləşməsinin birinci və əsas xəttini təşkil edir». [68,23]

Lüğətdə tərəfləri üç və daha artıq sözdən ibarət olan termin – birləşmələrin bəzilərində tərəflər yalnız terminlərdən ibarət olanları üstünlük təşkil edir. Məsələn: diskret zamanlı skalyar proses, ehtimal fazasının hasili, eksperimentin plan matrisi, xarakterik funksiyalar metodu, asimrtotik lokal optimal plan və s.

Hər hansı elmin terminoloji leksikası həmin elm sahəsinin gerçək ifadəsi hesab oluna bilər. Bu baxımdan «Azərbaycanca-türkcə-rusca-ingiliscə ehtimal nəzəriyyəsi və riyazi statistika terminləri lüğəti» və «Kimya terminlərinin izahlı lüğəti» bu elm sahələrində mövcud olan anlayışlar, nəzəriyyələr sisteminin ifadəsidir. Bu lüğətlərdə terminlərin gələcəkdə daha məhsuldar işlənəcəyinə və bu sahənin tədqiqatçılarının istifadəsi üçün vacib bir mənbə olacağına ümid edirik.

Ehtimal nəzəriyyəsi və riyazi statistika terminoloji sistemində işlənən termin söz birləşmələrini aşağıdakı qruplara bölmək olar:

1. iki termin komponentindən ibarət olan termin söz birləşmələri; diffuziya əmsalı, dinamik model, imtina intensivliyi, qayıdışsız paylanma, məhdud tamlıq;

2. üç termin komponentindən ibarət olan termin-söz birləşmələri: məhdud təsadüfi kəmiyyət, diskret ehtimal ansamblı, mütənasib intensivliklər modeli, paylanmanın avtomodel limiti, simmetrik paylanma funksiyası;

3. dörd termin, komponentdən ibarət termin-söz birləşmələri: diskret stasionar erqodik sıxlıq;

4. beş termin komponentdən ibarət termin-söz birləşmələri: asimptotik normal təsadüfi kəmiyyətlər ardıcıllığı, aşağıdan yarıkəsilməz sonsuz bölünən proses, güclü normal təsadüfi kəmiyyətlər ailəsi;

5. altı termin komponentlərdən ibarət termin-söz birləşmələri: hissəciklərin qruplarla eyni ehtimalla yerləşmə sxemi, dual öncəsöylənən proyeksiya və ya təsadüfi ölçü kompensatoru, idarəolunan adartiv diskret zamanlı təsadüfi proses, intensivlik funksiyası orta mənada azalan paylanma.

Lüğətdə çoxkomponentli terminlər iki, üç komponentdən ibarət olan terminlərə nisbətən azlıq təşkil edir. Azkomponentli terminlərdən istifadə elmi üslubda çətinlik törətmir.

Çoxkomponentli terminlərin mürəkkəb ixtisarına lüğətdə az təsadüf olunur. Mürəkkəb ixtisarların verilməsi çoxkomponentli termin-söz birləşmələrin yazılması və oxunması prosesini asanlaşdırır.

Müstəqillik illərində müxtəlif sahələrlə bağlı lüğətlərin yaranması prosesi sürətlənmiş və daha geniş miqyas almışdır. 2000-ci ildə İ.O.Nəsibov və Ə.Ə.Məmmədovun müəllifliyi ilə nəşr olunan «Kimya terminlərinin izahlı lüğəti» [102] son illərdə lüğətçilik sahəsində əldə edilən nailiyyətlərdən sayıla bilər. Bu lüğətdə kimya elmində işlənən terminlərin, elmi anlayışların əsas hissəsi əhatə olunmuşdur. Alınma terminlərin daha çox üstünlük təşkil etdiyi terminoloji leksikamızda kimya sahəsinə aid

terminlərin öz xüsusi çəkisi var. Lüğətdə verilən bilestillat, assimilyasiya, dissimilyasiya, asimetrik karbon atomu terminləri alınma mənşəlidir. Onu da qeyd etmək lazımdır ki, assimilyasiya dissimilyasiya terminləri dilçilikdə başqa elmi anlayışı ifadə etməyə xidmət edir.

Lüğətdə morfoloji üsulla əmələ gələn terminlərin çox hissəsi milli şəkilçilər vasitəsilə yaranıb.

-ma[2] şəkilçisi ilə: törəmə, qovma

-lu[4] şəkilçisi ilə: xlorlu, halogenli

-ləş[2]+dir[4]+mə[2] ilə: aminləşdirmə, dezalkilləşdirmə, vulkanlaşdırma, dezaminləşdirmə. Bəzi terminlər kəşf edən müəllifin adı ilə adlanır. Məsələn: Boyl-Mariot kəşf edən şəxsin adı ilə bağlıdır.

Mürəkkəb ixtisarlardan istifadə çoxkomponentli terminlərin daha sadə şəkildə istifadəsinə və yazılmasına imkan yaradır. Məsələn: DDD[4.4]-dixlodifenildixlormetilmetan, DDQ[4,4] –dixlordifeniltrixlometilmetan və s.

Müstəqillik illərində meydana gələn terminoloji lüğətlərdə bir sıra nöqsanlar da var. Bu nöqsanlardan ən birincisi çoxkomponentli terminlərin üstünlük təşkil etməsidir.

«Termin dəqiq olmaqla bərabər, həm də qısa olmalıdır. Terminin qısalığı onun asan mənimsənilməsi, yadda yaxşı saxlanılması üçün əsas şərtdir. Lakin təcrübədə bu prinsip pozulmuşdur. Bəzi lüğətlərdə bir anlayışın ifadəsi üçün iki və daha artıq terminlərdən istifadə olunmuşdur». [65,194]

«Dilin qarşılıqlı əlaqəsi zəminində informasiyaverici dilin informasiya alan dilə təsiri müşahidə olunur. Lakin bu təsir sözlərin heç də həmişə hazır şəkildə alınması ilə nəticələnmir. İnformasiya verən dilin təsiri ilə informasiya alan dilin leksik-semantik imkanları üzə çıxır. Beləliklə də, informasiyaverici dilə məxsus sözün müqabilində informasiya alan dildə müvafiq qarşılıq yaranır. Bu qarşılıq həm struktur, həm də semantik informasiya verən dildəki vahidə uyğun seçilir». [46,93]

Lüğətlərdə verilən yeni terminlərin seçilməsində beynəlxalq miqyasda işlədilən ingilis dilindəki terminlərə üstünlük verilir, Azərbaycan dilində bir neçə variantda ifadə oluna bilən rus mənşəli terminin mənaca uyğun gələni ekvivalent seçilir, terminin daha çox daşıdığı məna nəzərə alınır.

Müstəqillik illərində lüğətlər dilimizin lüğət fondunda, xüsusilə terminoloji qatında baş verən yeniləşmə və dəyişmələri özündə əks etdirir.

Elmi və texniki tərəqqi dilimizin terminoloji qatınının daha da zənginləşməsinə, beynəlmiləl terminologiyadan istifadə olunmasına yol açır. Beynəlxalq əlaqələrin inkişafı, elmlərin müəyyən çərçivədən çıxıb beynəlmiləl səciyyə daşıması, dünya elminə inteqrasiya terminologiyamızın kəmiyyət baxımdan zənginləşməsinə səbəb olur. Müxtəlif elm sahələri üzrə kəşflər, yeniliklər müəyyən termin və anlayışlarla ifadə olunur. «İstənilən dilin leksikasının terminoloji cəhətdən zənginləşməsi bütün zamanlarda xalqının elmi və bədii kəşfləri ilə bağlıdır».[76,20] Yeni terminlərin şərhini, izahını verən isə lüğətlərdir. Lüğətlərin yaranmasının böyük əhəmiyyəti vardır. Müəyyən elm sahəsi uzrə işlənən, eləcə də yeni alınan terminlərin mənası və ya izahı verilən lüğətlər yalnız həmin elm sahəsi üzrə çalışan ixtisasçılar üçün deyil, həm də dili, onun terminologiyasını öyrənənlər üçün faydalı bir vəsaitdir.

Ümumiyyətlə, müstəqillik illərində leksikoqrafiyanın inkişafı terminoloji lüğətlərinin həm kəmiyyətcə artmasına, həm də keyfiyyətcə dəyişməsinə, təkmilləşməsinə şərait yaratdı, təkcə lüğətlərin ayrı-ayrı elm sahələri üzrə deyil, elmin müxtəlif bölmələri üzrə də yaranmasına səbəb oldu.

II FƏSİL

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ TERMİN YARADICILIĞININ MƏNBƏ VƏ ÜSULLARI

§2.1. Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının mənbələri

Cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, dünyaya inteqrasiya, dilimizin yeni leksik vahidlərlə zənginləşməsinə səbəb olan amillərdəndir. Müstəqillik dövründə (1990-cı ildən sonrakı dövr) siyasi, iqtisadi və mədəni həyatdakı inkişaf, elmi-texniki tərəqqinin miqyasının artması daha çox sürətləndi. Cəmiyyətdə baş verən dəyişmələr ictmai hadisə olan dilə bu və ya başqa cəhətdən bilavasitə təsir edir. Dəyişmələrin miqyasına uyğun dilə yeni sözlərin daxil olması da müxtəlif mənbə və üsullarla bağlı olur. Başqa dillərdə olduğu kimi, müasir Azərbaycan dilində də söz yaradıcılığı prosesi davam edir. Dilin daxili imkanları hesabına yeni sözlərin yaranması prosesi nə qədər işlək olsa da, alınmalar hesabına dilin lüğət tərkibinin zənginləşməsi də bir o qədər üstünlük təşkil edir.

Dilçiliyin başqa sahələrində olduğu kimi, terminoloji sistemdə də zənginləşmə, dəyişmə və təkmilləşmə prosesi getməkdədir. Bu prosesin baş verməsi də termin yaradıcılığının müxtəlif mənbə və üsullarını müəyyən edir.

«Adi sözlərin mənası tarixi inkişaf prosesində formalaşır və dəyişir. Bu prosesdə sözün daxil olduğu müxtəlif-leksik semantik kontekstlər həlledici rol oynayır. Kontekstlər tez-tez sözlərin mənasını yaxınlaşdırır və uzaqlaşdırır. Terminlərdə isə vəziyyət belə deyildir. Terminin daxili məzmunu yalnız bu və ya digər elm sahəsində anlayışların qruplaşması ilə, elmin özünün inkişafı ilə, yeni təsəvvürlərin, yeni dünyagörüşünün meydana gəlməsi ilə əlaqədar dəyişir. Termin sözün taleyi başqa sözlərin taleyi ilə bağlı deyildir». [43, 17-18]

Müasir Azərbaycan dilində tarixi inkişafın qanunauyğunluğunu özündə əks etdirən dilin lüğət tərkibi müxtəlif mənbələrdən alınan terminlər hesabına daha da zənginləşir. Bu mənbələrin müxtəlifliyi və kəmiyyəti ayrı-ayrı səbəblərlə bağlıdır. İndiyədək terminologiyada bu mənbələrlə bağlı bir sıra fikirlər söylənmişdir. Bir çox tədqiqatçılar qeyd edirlər ki, «heç bir dil digərinə zorakılıqla söz qəbul etdirmir. Tarixi şərait xalqlar arasında elmi, texniki əlaqələr, mədəniyyətlərin yaxınlaşması bu dildən digər dilə söz və terminlər keçməsi üçün şərait yaradır». [61,8]

Elmi sistem dilsiz ifadə oluna bilmədiyi üçün müasir elmi-texniki tərəqqi və ictimai inkişaf dildə öz əksini tapır. Terminologiya elmi anlayışların ifadəsi olduğundan dəqiqlik, təkmənalılıq, konkretlik və birvariantlılıq kimi xüsusiyyətlərə malik olmalıdır.

Elmi fikrin ifadəsi dəqiqlik və konkretlik tələb etdiyindən termin də dəqiq və konkret olmalıdır. Termin elə bir dil vahididir ki, o yalnız səs tərkibindən ibarət olan leksem çərçivəsindən çıxaraq müəyyən elmi anlayışı hərtərəfli, dəqiq və birmənalı ifadə edir.

Dilin lüğət tərkibi digər sahələrə nisbətən terminologiyada daha çox yeniləşməyə məruz qalır. S.Sadıqova yazır: «Elm və texnikanın inkişafı ilə əlaqədar müvafiq terminlər yaranır. Lakin həmin terminlərin mənası dəqiq, dürüst müəyyənləşdikcə onları yaradan elm və texnika sahəsinin özü də irəliləyir. Elm inkişaf etdikcə isə hər hansı bir proseslə bağlı təsəvvür yaranır. Təsəvvürün inkişafı məfhumu əmələ gətirir. Məfhum isə anlayışın əmələ gəlməsinə təkan verir». [65,4]

Müstəqillik illərində bazar iqtisadiyyatının inkişafı, yeni neft strategiyasının həyata keçirilməsi ictimai-mədəni həyatımızın müxtəlif sahələrində baş verən yeniliklər, terminologiya sahəsinə xüsusi diqqət, qayğı tələb edir. Yeni yaranan, başqa dillərdən alınan terminlər terminoloji qatı zənginləşdirsə də, onlara həssaslıqla və diqqətlə yanaşmalı, dili ağırlaşdırmasına imkan verməməli, daha çox dilimizin daxili imkanlarından istifadə etməklə yeni terminlər yaradılmalıdır.

Tarixi inkişafın qanunauyğunluğunu özündə əks etdirən dilin lüğət tərkibi müxtəlif mənbələrdən alınan terminlər hesabına daha da zənginləşir. Bu mənbələrin müxtəlifliyi və kəmiyyəti ayrı-ayrı səbəblərlə bağlıdır.

Yeni terminlər həm dilin öz daxili imkanları, həm də alınma sözlər əsasında yaradılır. Buna görə də terminləri yaranma mənbəyinə görə iki qrupa ayırmaq olar:

1. Azərbaycan dilinin daxili imkanları əsasında yaranan terminlər
2. Alınma sözlər əsasında yaranan terminlər.

Müstəqillik dövründə termin yaradıcılığı məhz bu mənbələrlə bağlıdır. Dilimizin daxili imkanları əsasında yaranan terminlər terminoloji bazanın əsas hissəsini təşkil edir. Bununla yanaşı, terminologiyanın formalaşdığı dövrdən müstəqillik illərinə qədərki dövrdə termin yaradıcılığında alınmaların rolu danılmazdır. Bu, elmlərin beynəlmiləl səciyyə daşıması ilə bağlıdır. Buna görə də, dünya dillərinin çoxunda işlənən terminlər çox vaxt dilə tərcüməsiz daxil olur. Bütün elm sahələrində alınma mənşəli terminlərə rast gəlmək olar. Məs:. kvota, menecer, kvorum, tender, duksion və s.

Dilin ifadə imkanları geniş olduqda müəyyən məfhumu ifadə etmək üçün sözdən istifadə də asanlaşır. Azərbaycan dilinin qrammatik quruluşunun lüğət tərkibinin formalaşmasından uzun bir tarixi dövr keçdiyindən elmi anlayışların ifadə imkanları da geniş və əhatəlidir. Dilin daxili imkanları hesabına yaradılan terminlər, əsasən, aşağıdakı yollarla formalaşır:

1. dilin lüğət tərkibindəki ümumişlək sözlərə əlavə məna verməklə;
2. milli sözlərə türk mənşəli şəkilçilər artırmaq vasitəsilə;
3. kökü alınma olan sözlərə türk mənşəli şəkilçilər artırılması ilə;
4. iki və daha artıq sözün birləşməsi ilə;
5. alınmaların milli sözlərlə əvəz olunması ilə;
6. köhnəlmiş sözlərdən istifadə etməklə;
7. dialekt sözlərdən istifadə etmək yolu ilə.

Müstəqillik illərində ana dilinə dövlət səviyyəsində münasibət alınmalara ehtiyatla və məsuliyyətlə yanaşmağı tələb edir. İstər elmi, istərsə publisistik üslubda işlək olan terminoloji qatın kəmiyyət və keyfiyyətcə dəyişməsi müşahidə olunmağa başladı. Xüsusilə, mətbuat səhifələrinə yol tapan bir sıra ictimai-siyasi, hüquqi, texniki terminlərin bolluğu milli-ictimai təfəkkürün ifadə forması olan publisistik üslubun aydınlıq, kütləvilik, anlaşıqlılıq kimi əsas xüsusiyyətlərini kölgə altına alır. Terminlərin dilimizdə qarşılığı olduğu halda, bəzi sahə terminologiyalarında onlardan istifadə etməmək və ya qarşılığı ilə paralel işlətmək meyilləri son dövrdə daha da artmışdır; məsələn:

anket – sorğu	kvorum-yetərsay
konsulluq – səfirlik	auksion-hərrac
deputat – millət vəkili	petrol-neft
effektli – təsirli	proyekt-layihə
naminasiya – ad	embarqo-qadağa
struktur – quruluş	

Sevinc Xəlilova yazır: «M.F.Axundovun əsərlərində işlədilmiş bir sıra ictimai-siyasi terminlər (patriot, revolyusion, kultura və s.) sonralar Azərbaycan ədəbi dilində sabitləşib qala bilməmiş, yerlərini öz qarşılıqlarına tərk etməli olmuşdur. Adətən, tədrici şəkildə davam edən mübarizə prosesində ana dilinə məxsus olan və ya ana dilində işlənmə tarixi daha qədim olan vahidlər üstünlük təşkil edir». [31,152]

Müəllifin qeyd etdiyi kimi, bu gün dilimizin daxili imkanları əsasında termin yaranması genişlənsə də, vaxtilə işlənən terminlərin və onların qarşılıqlarının paralel işlənməsi müstəqillik illərində də müşahidə olunur; məsələn: patriot-vətənpərvər, aktiv-fəal, hiperbola-mübaliğə

Azərbaycan ədəbi dilində sabitləşən və öz işləkliyini saxlayan bir çox terminlər başqa dillərin təsirinə məruz qalsa da, dəyişməmiş, bütün dövrlər üçün işlək olmuşdur. Hərbi terminologiyanın lüğət tərkibində özünə möhkəm yer tutan bölük, daraq, qoşqu, ucluq, qırıcı, qazma və başqa

onlarla termin uzun bir tarixi dövr keçərək bu günümüzə qədər gəlib çıxmışdır. Prof. Ə.Dəmirçizadə bu cür terminlər haqqında yazır: «Dilin öz lüğət ehtiyatından alınıb terminə çevrilmiş sözlərin həmin dildə müxtəlif məqamlarda işlənilmə imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan belə sözlərin məqsədəuyğunluq əsasında termin kimi işlədilməsinə ehtiyatla yanaşmaq və sözü işlədərkən bütün bu incəlikləri nəzərə almaq zəruridir». [15,80]

Terminologiya ilə məşğul olan mütəxəssislərin gəldikləri ümumi qənaət budur ki, milli termin yaradıcılığı ümumi ədəbi dilə əsaslanmalıdır. Bu həm terminlərin asan tələffüz edilməsinə, həm də tez yadda saxlanmasına kömək edir.

Elə terminlər var ki, onlar uzun müddət ümumişlək sözə cevrilə bilmir, termin olaraq qalır; məsələn: spektr, infrastruktur, sinkritizm, fonem, fraksiya və s.

Müasir elmi-texniki və ictimai-siyasi inkişaf ədəbi dilin lüğət tərkibinin mühüm bir hissəsini təşkil edən terminoloji leksikanın təşəkkül tapmasına şərait yaradır. Daşıdığı nominativ funksiya ilə fərqlənən terminlər dilimizin lüğət tərkibində mühüm yer tutur. Dəqiqlik, məntiqlilik, konkretlik kimi xüsusiyyətləri daşıyan termin yığcam olmalı, asan tələffüz edilməlidir.

«Elmi terminologiyanın inkişafı üçün xalq dilinin dərindən öyrənilməsi zəruridir. Ümumiyyətlə, dil inkişafında onun əsas mənbə, tükənməz məxəz olduğu unudulmamalıdır. Çünki dilin öz lüğət ehtiyatından terminə çevrilmiş sözlərin həmin dildə müxtəlif məqamlarda işlənməsi imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan belə sözlərin termin ya ümumişlək bir söz kimi işlədilməsinə ehtiyatla yanaşmaq zəruridir». [66, 3-4]

Yalnız termin kimi işlənən sözlər, alındığı dilin morfoloji quruluşunu, qayda-qanunlarını özündə əks etdirir. Məsələn, dilçilikdə işlənən semantika, fonetika, leksika terminləri –a şəkilçisi vasitəsilə yaranıb. Bunlar mənşəcə alınma olduğundan ahəng qanunu gözlənilmədən sözə artırılıb. Mənşəcə

milli olan və dilçilikdə işlənən adlıq, yiyəlik, yönlük, əvəzlik terminləri həm milli söz, həm də milli şəkilçilər əsasında yarandığından dilə yatımlıdır və asan tələffüz olunur.

Beləliklə, ümumxalq dili termin yaradıcılığı üçün münbit mənbədir. M.Ş.Qasımov yazır ki, termin yaradılmasının əsas üsullarından biri dildəki ümumişlək sözlərə əlavə məna verilməsi, onların elm və texnikanın konkret sahəsində həm də spesifik termin kimi işlədilməsidir.

Azərbaycan ədəbi dilinin terminoloji leksikasını təşkil edən terminləri istifadə məqsədi baxımından aşağıdakı kimi qruplaşdırmaq olar:

1) yalnız termin kimi işlənənlər; məs: maraton, oliqarx, total və s.
2) həm ümumişlək söz, həm də termin kimi işlənənlər, məs: aksiya, ipoteka, tender, potensial.

Yalnız termin kimi işlənən sözlərin istifadəsi müəyyən elm və ya sənətlə bağlı olub, konkret anlayış çərçivəsindən kənara çıxa bilmir. Həmin terminlər dar çərçivədə işlənir və konkret anlayışı ifadə edir. Bu baxımdan texniki, təbiət elmlərinin terminologiyasında işlənən terminlər elmi anlayışı əks etdirərkən ümumişləklik qazana bilmir, məsələn, katod, koordinat, laqarifs, assonans, kordinasiya və s. belə terminlərdəndir.

Azərbaycan Milli Elmlər Akademiyası Terminologiya Komitəsinin qərarı ilə nəşr olunan «Qaynaq istehsalına aid izahlı terminlər lüğəti»ndə [93] işlənən kvalimetriya (elmdə yeni istiqamətdir, keyfiyyətin kompleks miqdar ölçüsü ilə əlaqədardır), drossel (qaynaq dövrəsinə qaynaq sransformatorunun ikinci dolağı ilə ardıcıl qoşulan və qaynaq cərəyan şiddətini tənzimləməyə təyin olunan; dəyişə bilən induktiv müqavimətli qurğu), ballast reostatı (yüksək om müqavimətinə malik olan konstantan tərəfindən hazırlanmış reostat) və sair terminlər yalnız qaynaq tstehsalında çalışan mütəxəssislər üçün anlaşıqlıdır və istifadə dairəsi o qədər də geniş deyil.

Vinokur söz və termin anlayışına münasibətini bu cür ifadə edir: «Terminlərin mahiyyətini düzgün başa düşmək üçün, birinci növbədə,

ümumi anlayış olan sözə müraciət etmək lazımdır. Çünki termin də sözdür. Söz isə dilin əsas vahididir. Söz leksik kateqoriyadır. Termin söz kimi nominativ xarakterə malik olub əşyaları, hadisələri və müəyyən məfhumları ifadə edir. Termin də söz kimi tarixi kateqoriyadır. O, dil tarixinin müəyyən dövründə yaranır, formalaşır, müəyyən məna kəsb edir. Lakin terminlər xüsusi sözlər deyil, xüsusi funksiya daşıyan sözlərdir». [78,11]

Kütləvi informasiya vasitələrində işlək olan terminlərin müəyyən hissəsi ümumişlək sözlər əsasında yaranan, yaxud sonradan ümumişləklik qazanan terminlərdən ibarətdir.

«Kino, televiziya, radio, terminləri izahlı lüğəti»ndə [98] yalnız müəyyən elmi anlayışı ifadə edən və sırf termin səciyyəsi daşıyan sözlərlə yanaşı, termin kimi işlənən ümumişlək sözlərə və söz birləşmələrinə rast gəlmək olur. Həm söz, həm də söz birləşməsi şəklində formalaşan terminlərin ifadə etdiyi elmi anlayışın əhatəsi termin kimi işləndikdə nisbətən daralır və sırf elmi anlayışın ifadəsinə çevrilir.

Açma, axın, bağlantı, yayım, ağartma, açıqlıq və başqa söz formalarında olan terminlər, əsasən, milli sözlərə milli sözdüzəldici şəkilçilərin artırılması yolu ilə yaranmışdır. Bu baxımdan terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) milli söz kökünə bir sözdüzəldici şəkilçi artırmaqla; məsələn: ax+ın, yay+ım, şərh+çi, düz+üm və s.
2) milli söz kökünə iki sözdüzəldici şəkilçi artırmaqla; məsələn: aç+ıq+lıq, saz+la+ma, aşkar+la+ma və s.
3) milli sözlərə üç və daha artıq sözdüzəldici şəkilçi artırmaqla; məsələn: bağ+la+n+tı, can+lan+dır+ma, qara+l+t+ma.

Göründüyü kimi, dilimizin daxili imkanları əsasında yaranan terminlər, əsasən, məhsuldar şəkilçilər vasitəsilə formalaşır. Morfoloji üsulla yaranan bu cür terminlərin kökü müxtəlif nitq hissələrindən ibarətdir.

Ümumiyyətlə, ümumişlək sözlərin terminoloji funksiya daşıması bütün elm sahələrində müşahidə olunur, lakin bu, həmin terminin elmi aspektdə

işlənməsinə məhdudiyyət qoymur, elmi anlayışı daha konkret ifadə etməyə xidmət edir.

Termin yaradıcılığının digər mənbəyi başqa dillərdir. Alınmaların üstünlük təşkil etdiyi terminologiya ictimai-siyasi həyatda son dövrlərdə baş verən bir çox dəyişmələr və yeniləşmələrlə bağlı olaraq daha fəal şəkildə sözlər qəbul etməkdədir. Bu, təbii haldır. Yeni yaranan və ya başqa ölkələrdən cəmiyyətimizə, həyatımıza daxil olan yeni anlayışların hamısını dilimizin daxili imkanlarından istifadə etməklə adlandırmaq qeyri-mümkündür. Məhz bu səbəbdən alınma terminlər terminoloji qatın mühüm bir hissəsini təşkil edir.

Əlbəttə, dillər arasında qarşılıqlı əlaqə təbii bir haldır və bu proses uzun illər bundan əvvəl də davam etmişdir, lakin hər hansı anlayışın milli dilimizdə qarşılığını dəqiqləşdirmədən onu kor-koranə alınma ilə əvəz etmək dilimzin lüğət tərkibini korlayır, lazımsız sözlərlə yükləyir. Uzun müddətdir ki, rus dilindən alınaraq dilimizdə işlənən «zaçot», «parta», «podrat», «maqazin», «protokol», «rejim» və bir çox sözlərin ya qarşılığı yoxdur, ya da qarşılığı olsa da, onlardan istifadə olunmur. Sözsüz ki, təfəkkür inkişaf etdikcə dil də inkişaf edir, yeniləşir. Sovet dövründə işlənən bir çox sözlərin qarşılığı dilimizin daxili imkanlarından istifadə edilərək yaradılmalıdır. Bu sözlərin qarşılığı yaradılarkən «həm ümumxalq danışıq dili və ya müxtəlif dialekt və şivələr, klassik ədəbi dilimiz, əcnəbi dillər, nəhayət, müasir bədii, publisist və elmi ədəbiyyat və mətbuat üslubu» qaynaq ola bilər. [4,88]

Tarixən işlənən və bu gün də öz işləkliyini saxlayan alınma terminlər dəyişikliyə uğramadan müxtəlif elm sahələrində işlənməkdədir. «Əgər alınma sözlər, ehtiyac nəticəsində daxil olduğu dilin lüğət tərkibinin zənginləşməsinə kömək edirsə, bu, müsbət təsirdir. Əksinə, həmin sözlər ehtiyac nəticəsində deyil, zorla keçirilirsə, bunların miqdarı həddindən artıqdırsa, dili ağırlaşdırıb onu xalq üçün anlaşılmaz bir vəziyyətə salırsa, bu, mənfi təsirdir. Belə bir vəziyyətin uzun müddət davam etməsi nəticəsində dil yavaş-yavaş öz keyfiyyətini itirər və ölüb gedə bilər. Buna

görə də əcnəbi sözləri qəbul edərkən onlara ehtiyac olub-olmamasını mütləq nəzərə almaq lazımdır». [50,121]

Müstəqillik illərində başqa dillərdən terminalma prosesi əvvəlki dövrlərə nisbətən daha sürətli getmişdir. Bu, həmin ölkənin öz ictimai, siyasi və mədəni həyatında baş verən köklü dəyişikliklər və dünya ölkələri ilə əlaqələrin artması ilə bağlıdır.

Təbii ki, dilə daxil olan alınmalar içərisində Avropa mənşəli terminlər üstünlük təşkil edir. Terminlərin başqa dillərdən alınaraq terminologiyaya daxil edilməsi alınma sözlərin dilimizdə yaşamaq və istifadə olunmaq hüququnu verir. Tarixən sözalma prosesində seçmə üsulu və yeni alınan terminlərin milli qarşılığı ilə əvəz etmək cəhdi olduğundan terminoloji qatın alınmalarla zənginləşməsi sürətli deyildi. Belə ki, dilimizin daxili imkanları əsasında termin yaranmasına üstünlük verilmişdir. Dialekt sözlərdən istifadə etməklə yeni termin yaratmaq ənənəsi terminologiya tarixində mövcud olan üsullardan biri kimi məhsuldardır.

«Bununla əlaqədar xatırlatmaq istəyirik ki, belə hallarda Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələri də termin yaratmaq işində mənbə ola bilər. Dialekt və şivələrimizdə, xüsusən kənd təsərrüfatı, biologiya, tibb elmləri sahəsində termin kimi işlədilməsi mümkün olan çoxlu sözlər vardır». [61,13]

Terminologiyanın zənginləşməsi üçün dialekt və şivələrdə müəyyən miqdarda material vardır. Bunun üçün ayrı-ayrı dialekt qrupları ətraflı öyrənilməli, onların terminologiyanın yaranması üçün məqbul sayılan hissəsi müəyyənləşdirilməli və müxtəlif ərazilərdə başa düşülən, başa düşülməsi çətin olmayan dialekt sözlərdən istifadə edilməlidir. Bu gün kənd təsərrüfatı və heyvandarlıqla bağlı istifadə olunan bir sıra terminlər dialektlərdə də işlənməkdədir. Məsələn, toğlu, köşək, bulama, şişək, ala kərə, yal və s.

M.Qasımov dialektlərdən termin yaratmaq üçün bir mənbə kimi istifadə etməyi məqbul sayır və bu şərtləri təklif edir:

1. Azərbaycanda çoxsahəli təsərrüfat inkişaf etdiyinə görə əlaqədar rayonun dialektinə üstünlük verilməlidir.
2. Yalnız bir və ya iki dialektdə işlənən, təsadüfi xarakter daşıyan sözləri götürüb termin kimi ümumiləşdirmək düzgün deyildir. Belə bir cəhətdən bədii əsərlərdə qeydə alınmış sözlərdən istifadə edilsə, daha yaxşıdır.
3. Eyni bir məfhumun ifadəsi üçün ayrı-ayrı dialektlərdə müxtəlif sözlər işlənə bilər. Lakin həmin sözlərdən daha əlverişlisi, məfhumu daha dəqiq ifadə edən seçilməlidir.
4. Çoxşaxəli terminlərdən istifadə edilməsinə yol verilməməlidir. Termin konkret olmalıdır.
5. Termin kimi qəbul edilən hər bir söz elmi surətdə əsaslandırılmalıdır, yəni həmin söz təsadüfi olmayıb, nəzərdə tutulan məfhumu bütün dəqiqliyi ilə əks etdirməlidir.
6. Şivələrdən alınıb işlədilən terminlər ədəbi dilin normalarına tabe edilməlidir. [43,186].

Son dövrlərdə Azərbaycan ədəbi dilində bağçılıq, meşəçilik, heyvandarlıq və əkinçiliklə bağlı yeni-yeni elmi anlayışların meydana gəlməsində dialekt və şivələrin də rolu var.

A.Vəliyev yazır: «Terminoloji lüğətlərə axın edən dialekt terminlər müasir Azərbaycan dilinin ədəbi normalarına tabedir. Məsələn, dialektlərin məişət leksikasından terminoloji lüğətlərə alətləri, onların hissələrini, onlarla bağlı prosesləri ifadə edən çoxlu terminlər daxil olmuşdur: çapacaq (ət kəsmək üçün böyük bıçaq), çapıq (yarılmış yer), tiyə (ülgüc), qırma (odun)….və s. dialektlərdə olan fonetik variantlar lüğətlərdə əks olunmur». [77,132]

Fikrimizcə, dilin daxili imkanları əsasında termin yaradıcılığında dialekt və şivələrdən istifadə olunsa da, əsas yollardan sayıla bilməz. Çünki elm və texnikanın sürətli inkişafı, başqa ölkələrlə qarşılıqlı əlaqə, dünya ölkələrinə inteqrasiya yeni terminlərin beynəlmiləl səviyyəli olmasını vacib

şərt kimi ortaya qoyur və yalnız məhdud dairədə deyil, beynəlxalq aləmdə, müasir ədəbi dildə işlənməsinə şərait yaradır. Dialekt və şivələrə əsaslanmaqla yeni yaranan elmi anlayışları çoxlu sayda terminlərlə ifadə etmək qeyri-mümkündür. Bununle belə termin yaradıcılığının əsas mənbələrindən olduğuna görə aşağıdakı təkliflər nəzərə alınmalıdır:

1. Dialekt və şivələrin elmi anlayışları ifadə edə biləcək lüğət fondu müəyyənləşdirilsin.
2. Termin kimi işlənə bilən dialekt sözlərin variantları içərisindən məqbul olanları seçilsin.
3. Dilimizin fonetik, leksik və qrammatik xüsusiyyətləri dialekt və şivələrdən istifadə zamanı nəzərə alınsın və müasir ədəbi dilin normalarına uyğunlaşdırılsın.
4. İndiyədək bədii üslubda işlənən və ümumişləklik qazanan dialekt və şivələrə termin yaratma işində üstünlük verilsin.

Köhnəlmiş sözlərdən istifadə etməklə termin yaradılması cəhdləri müstəqillik illərində də müşahidə olunmaqdadır. Sözsüz ki, dildə fəal şəkildə istifadədən qalan, bəzən isə qeyri-fəal işlənən arxaizmlər dilimizin lüğət tərkibinin müəyyən hissəsini təşkil edir və termin yaradıcılığında da mənbə rolunu oynaya bilər. «Ümumişlək olmayan sözlərin ikinci qolu olan köhnəlmiş sözlər tamamilə Azərbaycan dilinin lüğət tərkibindən silinmişdir. Bir qismi ola bilər ki, dilin lüğət tərkibində işlənməsin. Lakin bir qismi öz işlənmə dövrünü gözləyir» [19,79].

Adətən, klassik ədəbiyyatın vasitəsilə bu günə qədər gəlib çatan bir çox arxaik terminlər öz ümumişləkliyini itirsə də, bəzən yeni məzmunda termin yaratmaq işində faydalı ola bilir. İ.Qasımov yazır: «Zaman keçdikcə bəzən bir çox alınmalar dilin arxaik fondundakı söz və ifadələrin aktivləşdirilməsi yolu ilə özəlləşdirilir, yeni yaranan anlayışları bildirmək üçün milli dil vasitələrinə yeni həyat verilir. Dilçilikdə bu hadisə utilitalizm adlandırılır və dilin bütün semantik sahələrini, o cümlədən terminoloji sahəni də əhatə edir. Azərbaycanda milli ordu quruculuğunun ikinci həyat yaşadığı

və əsrimizin doxsanıncı illərindən başlayan demokratikləşmə dövründə hərb işinin milliləşdirilməsi hərbi terminoloji qatda da bu dilçilik hadisəsinə xüsusi diqqət yetirilmiş, bir çox arxaikləşmiş hərbi terminlər yenidən «canlandırılmış» və dilimizdəki çoxlu sayda hərbi anlayış və məfhum adları dil vahidləri ilə əvəz olunmuşdur». [42,101]

Budaqov R. arxaizmlər haqqında yazır: «İstənilən canlı dilin leksikası kəmiyyətcə sürətlə artır: yeni anlayışlar və yeni cisimlər yeni sözlər «tələb edir», o zaman köhnə sözlər yeniləri ilə yanaşı qalır və yalnız hiss olunmayacaq miqdarda istifadədən çıxır, arxaizmə çevrilir». [76,35]

Bizim fikrimizcə, arxaizmlərdən istifadə zamanı ədəbi dildə az-çox başa düşülən, alınmaya nisbətən daha uğurlu sayılan və elmi analayışı dəqiq və hərtərəfli ifadə edən nümunələrə üstünlük vermək lazımdır. Bu proses kortəbii yox, təbii şəkildə baş verməlidir.

§2.2. Müstəqillik illərində semantik üsullarla yaranan terminlər

Müstəqillik illərində terminologiyanın inkişaf istiqamətləri və mənbələri müxtəlif olduğu kimi, yaranma üsulları da müxtəlifdir: Bu üsullar aşağıdakılardır: semantik, morfoloji, sintaktik, kalka üsulu və abreviaturalar. Bu üsulların hər birinin öz xarakterik xüsusiyyətləri, qanunauyğunluqları var.

Azərbaycan dilinin ən müsbət xüsusiyyətlərindən biri eyni səs tərkibinə malik olan sözün bir necə leksik mənaya malik olmasıdır. Omonim səciyyəli sözlərin müxtəlif əşya və anlayışı ifadə etməsi dilimizdəki leksik vahidlərin ifadə imkanlarının genişliyini sübut edir.

Sözün semantik yükünün artması dilin lüğət tərkibinin kəmiyyətcə çoxalmasının qarşısını alır, bir leksik vahidin müxtəlif anlayışların ifadəsinə imkan yaradır.

Elmi-texniki inkişaf nəticəsində meydana çıxan anlayışları yeni sözlərlə ifadə etmək əvəzinə, dilin daxili imkanlarına əsaslanaraq lüğət tərkibində işlənən sözlərə yeni semantik məna vermək daha məqsədəuyğundur.

M.Ş.Qasımov yazır: «…yeni anlayışları yalnız mövcud sözlərlə əvəz etmək üsulu bəzən sözün semantik yükünü artırır, anlayışları bir-birindən fərqləndirməyə imkan vermir və beləliklə də, çoxmənalılıq meydana gəlir. Dildə iki və daha artıq anlayışların ifadəsinə xidmət edən terminlərin olması ilə qarşılıqlı anlaşmanı pozur». [42,122]

Bütün bunlara baxmayaraq, yeni semantik məna qazanaraq terminologyiada istifadə olunan leksik vahidlər əşya və anlayışları dəqiq və konkret ifadə etməyə xidmət edir. Leksik-semantik üsulla yaranan terminlər, əsasən, aşağıdakı xüsusiyyətlərə malik olur:

2) hər hansı ümumişlək söz özünün ilkin ifadə etdiyi mənanı itirir və tamamilə yeni leksik vahid kimi çıxış edir. Məsələn: sabitlik, dairə, danışıq, şəffaflıq və s.

3) eyni söz terminologiyanın müxtəlif sahələrində işlənərək fərqli semantik mənalar ifadə edir. Məsələn: bank, boğaz, uçluq, atribut, intensiv, akt, layihə və s.

Bank termini iqtisadiyyat və coğrafiya, boğaz biologiya və coğrafiya, uçluq hərbi və qaynaq istehsalı, atribut fəlsəfə və dilçilik, intensiv fizika və coğrafiya terminologiyasında işlənməkdədir. Akt termini paralel olaraq siyasətdə (terror aktı) və rəsmi-işgüzar üslubda fəal işlənən leksik vahiddir.

«Müstəqillik illərində terminalma mənbələri də dilin əvvəlki inkişaf dövründən xeyli dərəcədə fərqlənməyə başlamışdır ki, bu da bilavasitə cəmiyyətdə gedən proseslərlə birbaşa bağlı şəkildə üzə çıxır. Yəni əgər sovetlər birliyi dövründə digər müttəfiq respublika xalqlarının dillərində olduğu kimi, Azərbaycan dilində də alınma terminlər, əksər hallarda terminin hansı dilə mənsub olmasından asılı olmayaraq rus dilindən alınırdısa (bu, qaçılmaz ictimai-siyasi fakt idi), müstəqillik illərində artıq cəmiyyətin müasir inkişaf durumuna uyğun olaraq rus dilindən uzaqlaşma meyli güclənmiş və termin mübadiləsində üstünlük daha çox müxtəlif səpkili əlaqələrin qurulduğu Avropa dillərinə verilmişdir.

Məhz buna görə də dilimizin leksik qatında müxtəlif sahə terminoloji sistemlərinə aid olan və Avropa dillərindən alınmış terminlərin sayı həndəsi silsilə ilə artmağa başlamışdır». [4,88]

2004-cü ildə nəşr olunan «İngiliscə-rusca-türkcə-Azərbaycanca hüquq terminləri lüğətində» ensiklopediya-biliklər külliyyatı, fanatizm-bir şeydə ifrata varmaq, investisiya-sərmayə qoymaq, akkupant-işğalçı, oliqarxiya-bir qrup şəxsin hakimiyyəti, opponent-təklifi təkzib edən, müxalif, metropoliya-müstəmləkəsi olan dövlət terminlərinin birinci tərəfi beynəlmiləl səciyyə daşısa da, milli və ya ümumişlək sözlərdən təşkil olunan qarşılığı tapılmışdır. Fellər mənşəcə milli olduğundan tərkibində fel işlənən terminlər (daha çox olmaq, etmək köməkçi felləri) dilimizin daxili imkanlarından istifadə edilərək yaradılmışdır.

Sözlərə yeni semantik məna verməklə hər hansı elmi anlayışı ifadə etmək üçün yaranan terminlər bir neçə elmi terminologiyada işlənə bilər.

Eyni termin müxtəlif terminologiyalarda işlənərək eyni və ya oxşar semantik mənaları bildirir. Məsələn: qüvvə, fəsad, hesab, efir, şəbəkə və s. Tibb, fizika və siyasətdə "qüvvə", "fəsad", riyaziyyat və iqtisadiyyatda "hesab", kimya və kütləvi informasiyada "efir", memarlıq və kütləvi informasiya terminologiyalarında "şəbəkə" işlənməkdədir.

Sözün semantik yükünün artması nəticəsində yaranan terminlər quruluşca müxtəlif ola bilər.

Məsələn: «Düzəltmə» termini dilçilikdə sözdüzəldici şəkilçili sözü bildirirsə, qaynaq istehsalına aid terminologiyada isə təbəqə, zolaq, çeşidli və fasonlu yayma metalının əyriliyini yerli deformasiya hesabına aradan qaldıran tədarük əməliyyatı deməkdir. Qızdırıcı, süzgəc kimi quruluşca düzəltmə sözlər həm hərbi terminologiyada, həm də məişət leksikonunda işlənir.

«Dil yalnız leksik cəhətdən yeni söz kimi meydana çıxan vahidlər hesabına deyil, həm də əvvəlcədən mövcud olan sözlərin mənaca dəyişməsi və yeni məna alması ilə də zənginləşir. Belə ki, köhnə sözlə yeni anlayış, yeni məfhum ifadə olunur. Bu yolla dil məzmunca daxilən zənginləşir. Bir forma ilə iki və daha artıq məzmun bildirir. Lakin bu o demək deyildir ki, sözlərin semantik inkişafı dilin lüğət tərkibinə heç bir təsir göstərmir. Əksinə, yeni məna almış sözlər dilimizdə mövcud olan müxtəlif sözlərlə əlaqəyə girərək lüğət tərkibini yeni tipli ifadələrlə zənginləşdirir. [58,239]

Son dövrlərdə iqtisadi-siyasi sahələrin nəzərə çarpacaq dərəcədə inkişafı yeni-yeni terminlərin dilimizin lüğət tərkibinə daxil olmasına səbəb olur. Mətbuat səhifələrində, televiziya və radioda bir sıra iqtisadi-siyasi terminlər tez-tez işlənməkdədir. İqtisadiyyatla bağlı işlənən «bazar» leksik vahidi müstəqillik illərində məna genişlənməsi nəticəsində məhsuldar işlənən iqtisadi terminə çevrilmişdir. Tarixən «bazar» sözü alış-veriş üçün

müəyyən edilmiş yer anlayışını ifadə etmiş, lakin son dövrlərdə meydana çıxan «iqtisadi bazar», «bazar münasibətləri», «bazar qiyməti» kimi termin-birləşmələrdə daha geniş məna kəsb edir.

Vaxtilə işlənən «sahibkar» termini son dövrlərdə iqtisadiyyatla bağlı məhsuldar işlənən terminlərdəndir. Bu termin müstəqillik illərində tarixən ifadə etdiyi dar məna cərçivəsindən çıxaraq daha geniş anlayışı bildirməkdədir.

Riyazi termin olan «dairə» ümumişləklik qazanaraq məişət üslubunda işlənməkdədir. Son dövrdə isə bu söz konkret riyazi termin çərçivəsindən çıxaraq siyasi termin səviyyəsi də daşıyır; məs.: hökumət dairələri, siyasi dairələr, nüfuz dairəsi və s. Ümumiyyətlə, leksik-semantik yolla termin yaradıcılığı dilimizin terminoloji qatını zənginləşdirən əhəmiyyətli, məhsuldar üsullardandır.

§ 2.3. Morfoloji üsulla yaranan terminlər

Müasir Azərbaycan dilində termin yaradıcılığı üsullarının ən məhsuldarı olan morfoloji üsul hər hansı anlayışı ifadə etmək üçün söz köklərinə sözdüzəldici şəkilçilərin artırılması ilə səciyyələnir, kəmiyyətcə çoxluğu termin yaradıcılığında bu üsuldan istifadəyə daha çox imkan yaradır. M.Hüseynzadə sözdüzəldici şəkilçilər haqqında yazır: «Bunların əsas rolu bir sözdən yeni bir söz yaratmaq olduğu üçün dildə çox böyük əhəmiyyətə malikdir. Bu şəkilçilər dilin inkişafında, yəni yeni yaranmış sözlər hesabına söz ehtiyatının çoxalması və zənginləşməsi işində əsas amillərdən biri hesab olunur. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində yeni əmələ gələn sözlərin əksəri yalnız bu şəkilçilər vasitəsilə yaranmışdır». [28,18]

Tarixən olduğu kimi, son dövrlərdə də yeni terminlərin yaranmasında morfoloji üsuldan geniş istifadə olunmaqdadır. Elmin müxtəlif sahələrində termin yaradıcılığının zəruriliyini nəzərə alsaq, bu üsulun əhəmiyyətini geniş şərh etməyə ehtiyac yoxdur. Son dövrlərdə dilin daxili imkanları əsasında termin yaratmağa üstünlük verildiyi üçün tarixən dilimizdə işlənən, bu gün də öz işləkliyini saxlayan sözdüzəldici şəkilçilərdən istifadə olunur.

Sözdüzəldici şəkilçilər vasitəsilə yaranan söz köklərinin mənşəyi baxımdan terminləri bu cür qruplaşdırmaq olar:

a) kökü milli olan düzəltmə terminlər: Bu cür terminlərin kökü isim, sifət, say, fellə ifadə olunaraq sözdüzəldici şəkilçi artırmaqla öz leksik mənasını dəyişir. Məsələn: durğunluq, keçid, qurum, bölgə, aşkarlıq və s.

Müstəqillik dövründə meydana gələn durğunluq termini kökü fel olan sözə –qun[4] və luq[4] sözdüzəldicisi şəkilçiləri artırmaqla düzəlib. Bu şəkilçilər sözün yeni məna ifadə etməsinə xidmət edir. Keçid sözü –id leksik şəkilçisi ilə düzələrək siyasi həyatda işlənməklə yeni anlayışı (keçid dövrü) ifadə edir.

Hərbi terminologiyada son dövrlərdə işlənməkdə olan bölük, bölmə, daraq, qoşqu sözləri də məhz milli sözlərimiz olan fellərə türk mənşəli şəkilçilər olan –ük[4], -ma[2], -aq[2], -qu[4] sözdüzəldici şəkilçilər artırmaqla yaranıb.

Yeni terminlərin yaranması prosesində daha çox isimlərə sözdüzəldici şəkilçilər artırmaqla ixtisas və peşə sözlərinin meydana gəlməsi müşahidə olunur. Düzəltmə termin köklərinin ifadə olunduğu nitq hissələri ilə bağlı olaraq sözlər üç qrupa ayrıla bilər:

a) kökü isim olan düzəltmə terminlər

b) kökü fel olan düzəltmə terminlər

c) kökü digər əsas nitq hissələri ilə ifadə olunan düzəltmə terminlər.

Terminlər müəyyən elmi anlayışı adlandırmaq xüsusiyyətinə malik olduğundan isim kimi formalaşır. Bu zaman termin yaradıcılığında isim düzəldən şəkilçilər əsas rol oynayır. «İsimlər dildə olan sözlərin ən mühüm bir qismini təşkil edir». [28,18]

Terminlər adlandırmaq xüsusiyyəti daşıdığından onların əksər hissəsi daha çox isim olur. Çox hallarda sözdüzəldici şəkilçi artırdıqda yaranan yeni terminlər də isim olaraq qalır. Kökü isim olan düzəltmə terminlər, əsasən, milli və alınma sözdüzəldici şəkilçiər vasitəsilə yaranır. Müstəqillik illərində bu baxımdan kökü müxtəlif nitq hissələri olan düzəltmə terminləri üç qrupa bölmək olar:

1. milli sözdüzəldici şəkilçilərlə düzələn düzəltmə terminlər;
2. ərəb-fars dilindən alınan sözdüzəldici şəkilçilər ilə yaranan düzəltmə terminlər;
3. Avropa-rus mənşəli sözdüzəldici şəkilçilər artırmaqla yaranan düzəltmə terminlər.

Tarixən olduğu kimi, müasir dövrdə də termin yaradıcılığında milli şəkilçilərdən istifadə üstünlük təşkil edir. Milli şəkilçilərin iki və dörd cür yazılması və ahəng qanununa uyğun sözlərə qoşulması bu şəkilçilər

vasitəsilə daha çox termin yaratmaq imkanını artırır. Müstəqillik illərində məhsuldarlıq təşkil edən şəkilçilər aşağıdakılardan ibarətdir:

1. –lıq[4]; bu şəkilçi müəyyən nitq hissələrinə artırılaraq konkret və ya mücərrəd terminlər yaradır; məsələn: əməkdaşlıq, məhkəməlik, menecerlik, spikerlik, aşkarlıq, durğunluq, suverenlik.
2. –çı[4], son dövrlər bu məhsuldar şəkilçinin işlənmə dairəsi daha genişdir. Sənət, hal-vəziyyət, mücərrəd anlayış bildirmək baxımından yeni məna və terminlər yaradır; məsələn: islahatçı, terrorçu, sərmayəçi, piketçi, millətçi, reklamçı, qəzetçi, vasitəçi.

   «Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilinin son illərdə «şünas» şəkilçisi ilə yaranmış folklorşünas və ədəbiyyatşünas terminlərin əvəzinə, müvafiq olaraq «folklorçu» və «ədəbiyyatçı» terminləri işlədilməyə başlanmışdır. Deməli, Azərbaycan dilinin özünəməxsus –çı şəkilçisi fars mənşəli –şünas şəkilçisinin tam ekvivalenti kimi, onu tam əvəz edə bilir». [44,108].
3. –lı[4]. Bu şəkilçi sifət və isim düzəldən sözdüzəldici şəkilçi kimi işlənir və söz yaradıcılığında morfoloji üsulla termin yaratmaq işində fəaldır. Məsələn: riskli, intelektli, səviyyəli, şanslı, birmənalı, problemli, canlı, planlı, səlahiyyətli və s.
4. Çox zaman bu şəkilçi ilə düzələn terminlər söz birləşməsinin tərəfi kimi də çıxış edir.-ma[2]. Bu şəkilçilər terminlərin əmələ gəlməsində ən məhsuldar şəkilçi hesab olunur. Onun vasitəsi ilə indiyədək terminologiyada ayrı-ayrı prosesləri bildirən yüzlərlə termin yaradılmışdır: özəlləşdirmə, qloballaşdırma, sıxılma, lehimləmə və s. S.Sadıqova yazır: "Bu şəkilçidən terminlərin yaranmasında daha çox istifadə olunmasının əsas

səbəbi də elmdə hərəkət və proseslə bağlı anlayışların daha zəngin olmasıdır".[65,79]

S. Qasımov yazır: «Terminoloji leksika ilə ümumi dilin leksikası arasındakı qarşılıqlı əlaqənin struktur cəhəti də böyük əhəmiyyətə malikdir. Bəzi söz yaradıcılığı modelləri məhz terminologiyada öz məhsuldarlığını artırır. Məsələn, son zamanlar Azərbaycan dilinin terminologiyasında, xüsusən texniki terminologiyada –ma; -mə şəkilçilərinin fellərə artırılması ilə terminlər yaradılması üsulundan geniş istifadə olunur. Belə bir üsulun tətbiqi nəticəsində bir çox terminlər (cilalanma, preslənmə, tablama, plomblama, aşqarlama, frezləmə və s.) meydana gəlmişdir». [43,36]

Müstəqillik illərində də bu şəkilçi vasitəsilə xeyli terminlər yaranmışdır. Bu terminlər bir çox terminoloji sahələrdə işlənməkdədir. –ma; -mə şəkilçisi əksər hallarda –laş[2], -dur[4] şəkilçisi ilə yaranan fellərə artırılaraq, müəyyən prosesi adlandırmaq funksiyasını daşıyır.

a) siyasi terminologiyada: qlobalaşma, proqramlaşma, sabitləşmə, proqnozlaşdırma və s.

b) iqtisadi terminologiyada: maliyyələşmə, kreditləşmə, özəlləşdirmə, bahalaşma və s.

c) texniki elmlərin terminologiyasında: aminləşdirmə, dezalkilləşdirmə, vulkanlaşdırma və s.

ç) qaynaq istehsalına aid terminologiyada: qaynaqlama, aqreqatlaşdırma, kəsmə, əymə, düzəltmə, tablama və s. [93]

d) kütləvi informasiya terminologiyasında: sazlama, səsləndirmə, aşkarlama, şüalama.

Son dövrlərdə bir çox terminlər Avropa dillərindən alındığından onların tərkibində olan sözdüzəldici şəkilçilər də termin yaradıcılığında iştirak etməkdədir.

-iv; -l; -or; -siya, -yer, -ik kimi alınma şəkilçilər bəzən söz kökü ilə birlikdə işlənərkən bəzən kök və şəkilçiyə ayrılır,bəzən də ayrılmır;

perspektiv, konstruktiv, informasiya, modelyer, radikal, regional, diplomatik, repetitor və s.

Əgər modelyer, regional diplomatik sözlərinin kökü müstəqil işlənə bilirsə, perspektiv, konstruktiv, informasiya, radikal, repititor terminlərinin kök və şəkilçisi ayrılmır və birlikdə işlənərək tərkib hissələrinə parçalana bilmir.

Bəzi alınma terminlər var ki, onların sonuna əlavə olunan şəkilçi atılır. «Proqramma, qipoteza, problema, raketa, kometa, antenna terminlərinin sonu ona görə atılmırdı ki, qadın cinsi kateqoriyası sıradan qaldırılsın, ona görə atılırdı ki, sözdə – termində vurğu son hecanın üstünə salınsın və beləliklə, termin azərbaycanlaşdırılsın – proqram, hipotez, problem, raket, komet, anten (sonuncu vahid sonralar şəklini bir də dəyişmişdir)». [31,102]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 avqust tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmişdir ki, «əslində sonu «a» ilə bitən alınma sözlərdən aşağıdakılar «a»-sız yazılır: anket, aptek, armatur, atmosfer, vitrin, qəzet, idiom, kayut, kaset, kontor, konfet, lent, maşın, perspektiv, pyes, planet, reklam, sistem, sitat» [87,7].

Son dövrlərdə morfoloji üsulla yaranan terminlərin bəzilərində həm alınma, həm də milli şəkilçilərin paralel işlənməsi müşahidə olunur. Bu cür terminlər, əsasən, ictimai-siyasi terminologiyada müşahidə olunmaqdadır. Sahibkarlıq, sertifikatlaşma, xeyriyyəçilik, alternativlik alınma sözdüzəldici şəkilçilərdən sonra milli şəkilçi artırılaraq düzəlmişdir.

Bir qrup alınma terminlər isə bir neçə milli şəkilçi qəbul edərək yeni mənalı sözlər kimi işlənir: qloballaşdırma, kreditləşdirmə, avtomatlaşdırma, lisenziyalaşdırılma, proqramlaşdırma və s.

Ərəb, fars, rus dili və rus dili vasitəsilə dilimizə keçən terminlərin müəyyən qismi önşəkilçilidir. Bu cür terminlər şəkilçi ilə birlikdə başqa dildən alındığından ön şəkilçiləri milli şəkilçilərlə əvəz etmək olmur. Antisovet, asimmetrik, anormal, antiterror kimi terminlərin önşəkilçiləri olan-

anti, -a Avropa mənşəli şəkilçilər söz kökünə artırılaraq yeni mənalı sözlər yaratmışdır.

Müşahidə olunduğu kimi, bəzi morfoloji əlamətlər sözlərə qoşularaq daha çox termin yaradır. Bu çur sözdüzəldici şəkilçilər məhsuldar olduğundan termin yaratmaq işində indi də fəaldır. Bəzi sözdüzəldici şəkilçilər isə başqa dillərdən terminin tərkibində dilimizə daxil olaraq dar işlənmə dairəsinə malik olur, ya da qeyri-məhsuldar şəkilçi olaraq az sayda termin yaratmağa xidmət edir.

M.Qasımov müasir Azərbaycan ədəbi dilində elm və texnikanın müxtəlif sahələri üzrə terminlərin yaradılmasında əsas şəkilçilər kimi 20 forma göstərir. [42,126].

Ümumiyyətlə, morfoloji üsul termin yaratmaq işində ən fəal və məhsuldar üsullardan biridir. Bu üsulun termin yaratmaq sahəsindəki rolu bütün dövrlərdə əhəmiyyətli olmuşdur. Müstəqillik dövründə meydana gələn çox sayda yeni sözlərin bu üsuldan istifadə olunaraq yaradılması daha çox müşahidə olunur.

§ 2.4.Sintaktik üsulla yaranan terminlər

Termin yaradıcılığında iki və daha artıq sözün birləşərək ya mürəkkəb söz, ya da söz birləşməsi şəklində elmi anlayışı ifadə etməsi dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. M.Qasımov yazır: «İndiyədək bu üsulla Azərbaycan dilində çoxlu miqdarda termin yaranmışdır. Lakin nisbət etibarilə götürüldükdə sintaktik üsul termin yaradıcılığında məhdud sahəni əhatə edir. Belə ki, dilimizdə sintaktik üsulla yaradılan terminlərin miqdarı morfoloji üsulla yaradılan terminlərin miqdarından azdır». [42,131]

Dilimizin lüğət tərkibində söz yaradıcılığı vasitələrindən biri iki və daha artıq sözün birləşərək bir leksik məna ifadə etməsidir.

S.Cəfərov mürəkkəb sözlər barəsində yazır: «Mürəkkəb sözün komponentləri monolitləşir və onların mənsub olduqları nitq hissələrinə əsas olan xüsusiyyətlərini tamamilə itirir, mürəkkəb söz başqa sözlərlə əlaqədə sadə sözlərin əlaqəsinə xas olan xüsusiyyətlər kəsb edir. [13,200]

Terminologiyanın əsas hissəsini söz birləşmələri şəklində yaranan terminlər təşkil edir. Bu cür birləşmələrin tərəfləri hərtərəfli semantik inkişaf nəticəsində mənaca dəyişilmiş, bir qismi isə mənaca genişlənmiş və yeni mənalar almışdır.

Bu cəhətdən termin-birləşmələri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) birinci tərəfi mənaca dəyişən və ya genişlənən sözlərdən ibarət olan termin-birləşmələr. Bu cür birləşmələrin birinci tərəfi əvvəlki mənasını dəyişərək müasir dildə tamamilə yeni anlayış bildirən sözdən ibarət olur: məs: hami təşkilat, keçid hökuməti, dayaq məntəqəsi, bazar iqtisadiyyatı və s.

b) ikinci tərəfi mənaca dəyişən və ya genişlənən sözlərdən ibarət olan termin-birləşmələr: məs: iqtisadi mühit, siyasi hava, nüfuz dairəsi, iqtisadi-maraq, etnopolitik münaqişə və s.

c) hər iki tərəfi mənaca genişlənən və ya əlavə məna alan termin – birləşmələr. Bu cür birləşmələrin tərəfləri, əsasən, isim, sifət kimi nitq hissələri ilə ifadə olunaraq müstəqillik illərində işlənməkdədir: məs.: aparıcı mövqe, milli mənafe, ümumi maraq, keçid dövrü, rəsmi mövqe və s.

«Bugünkü ədəbi dilimizin terminoloji sisteminin müşahidəsi və təhlili göstərir ki, elm və texnikanın mürəkkəb sahələrinə aid terminlərin formalaşmasında da sintaktik üsul xüsusi əhəmiyyət daşıyır». [42,29]

Qeyd etmək lazımdır ki, hər hansı elmi anlayışı adlandırmaq üçün dilin lüğət tərkibində işlənən sözləri qrammatik və sintaktik cəhətdən birləşdirməklə yeni termin yaratmaq daha məqsədəuyğundur. Müxtəlif leksik mənalara malik olan sözlər birləşərək tamamilə yeni mənalı termin – söz birləşməsi yaradır.

Söz yaradıcılığı prosesinin ikinci qolu – sintaktik yolla söz yaratma prosesi Azərbaycan ədəbi dili leksikasının inkişafında mühüm rol oynamış və bu gün də rol oynamaqdadır. Müasir ədəbi dilimizin çox zəngin bir sahəsini təşkil edən və son 20 il ərzində xeyli inkişaf etmiş olan termin yaradıcılığında, demək olar ki, əsas üsullardan olmuşdur.

«Söz birləşməsi də söz kimi nominativ vasitələri sahəsinə aid olub əşyaları hadisələri, prosesləri və s. bildirir». [1,37]

S.Sadıqova Azərbaycan dilində termin-söz birləşmələrini tədqiq etmiş, onların səciyyəvi xüsusiyyətlərini elmi surətdə əsaslandırmışdır. Söz birləşmələri və mürəkkəb söz şəklində olan terminlər müxtəlif yollarla yaranır və sintaktik əlaqə baxımından da təhlil edilmişdir.[65,83]

Sintaktik üsulla termin yaradılarkən quruluşca mürəkkəb olan terminlərlə söz birləşməsi şəklində olan terminlər bəzi ortaq cəhətlərə malikdirlər:

1. Hər ikisinin tərkibində əsas nitq vahidi olan söz mühüm rola malikdir: mürəkkəb və söz birləşməsi şəklində olan terminlər müstəqil sözdən təşkil olunur;
2. Həm mürəkkəb, həm söz birləşməsi şəklində olan terminlər, əsasən, ayrılıqda müxtəlif leksik mənaya malik olan sözlərdən ibarət olur, lakin terminin tərkibində ifadə etdiyi leksik məna dəyişə də bilir: həm genişlənmə, həm də darala bilər;
3. Hər ikisi ən azı iki sözdən və ya termindən təşkil olunur, hər iki söz mənaca mürəkkəb və ya birləşmə şəklində olan terminin ifadə etdiyi ümumi anlayışla bəzən bağlı olur, bəzən isə fərqlənir;
4. İstər mürəkkəb terminlər, istərsə də termin-söz birləşmələr bir elmi, ictimai və ya siyasi anlayışı ifadə etməyə xidmət edir. Neçə sözdən ibarət olmalarına baxmayaraq, hər iki quruluşlu terminlərin tərkibindəki sözlər birlikdə bir anlayışın ifadəsidir.

5. Hər iki quruluşlu terminlərdə dəqiqlik, məntiqilik, ardıcıllıq, elmilik prinsipləri gözlənilməli, elmi anlayışın ifadəsində qeyri-dəqiqliyə, mücərrədliyə yol verilməməlidir.
6. Dilimizin lüğət tərkibi milli və alınma sözlərdən ibarət olduğundan mürəkkəb və söz birləşməsi şəklində olan terminlərin tərkib hissələri ərəb, fars, Avropa mənşəli sözlərdən təşkil oluna bilir, sözsüz ki, bu elmi anlayışların yaranmasında milli sözlər və dilimizin daxili imkanları əsasında termin yaratma az əhəmiyyətə malik deyil.

Sintaktik yolla yaranan terminlərin əmələ gəlməsində iki üsuldan istifadə xüsusilə əhəmiyyət daşıyır. Bu, leksik-sintaktik və morfoloji-sintaktik üsuldur.

İ.Qasımov hərbi terminlərin yaranması və formalaşmasında bu üsulların rolunu xüsusi olaraq qeyd edir: «Bu üsullar, ümumiyyətlə, dilin lüğət tərkibinin zənginləşməsində aktiv rol oynayan söz yaradıcılığı prosesinin əsas göstəriciləridir. Bu üsullar, eyni zamanda, dilin leksik tərkibinin xüsusi bir qatını təşkil edən hərbi terminlərin də formalaşmasında əsas qrammatik-semantik göstərici kimi çıxış edir». [43,40]

Müəllifin bu fikri doğrudur və hesab edirik ki, hər hansı elmi anlayışı ifadə etmək üçün həmişə başqa dillərdən sözlər almaqdansa, dilimizdə olan sözlərə yeni leksik-semantik məna vermək və ya söz yaradıcılığının digər vasitələrindən istifadə etmək daha məqsədəuyğundur.

S.A.Sadıqova terminlərin leksik-sintaktik, morfoloji-sintaktik üsulla yarandığını qeyd edir. [65,82]

Leksik-sintaktik üsulla yaranan terminlər müstəqillik illərində də meydana gəlir. Söz və ya terminlərdən təşkil olunan bu cür elmi anlayışlar quruluşca mürəkkəb olur və əsasən, bitişik və defislə yazılır. Məsələn, videosiqnal, atəşkəs, yekdil, soyad və s. Bu cür terminlər müxtəlif nitq hissələrindən yaranır. Tərəflərin ifadəsi baxımından terminlər bir neçə qrupa bölünür:

1. Hər iki tərəfi isim olanlar. Bu cür terminlərin tərəfləri müxtəlif mənalı isimlərdən təşkil olunur. Məsələn: fotomontaj, film-tamaşa, soyad, soyqırım və s.
2. Birinci tərəfi sifət, ikinci tərəfi isim olanlar. Altfəza, xammal, yarımbayt və s.
3. Birinci tərəfi qeyri, ikinci tərəfi sifət olan mürəkkəb terminlər.

Bu terminlər defislə yazılır. Məsələn: qeyri-rəsmi, qeyri-insani, qeyri-ixtiyari.

«Adi sözlərin mənası tarixi inkişaf prosesində formalaşır və dəyişir. Bu prosesdə sözün daxil olduğu müxtəlif leksik-semantik kontekstlər həlledici rol oynayır». [42,13]

Son dövrlərdə tərtib olunan lüğətlər üzərində aparılan müşahidələr əsas verir ki, morfoloji-sintaktik yolla termin yaradıcılığının leksik-sintaktik üsula nisbətən üstünlük təşkil etdiyini qeyd edək. Bu, təbiidir. Hər bir dildə yeni termin yaratmaq üçün sintaktik və morfoloji üsuldan istifadə etmək, başqa dildən hazır termin almaqdan daha sərfəlidir. Dilin daxili imkanları yol verirsə, başqa dildən almadan, şözdüzəldici şəkilçilər artırmaqla termin yaratmaq meyilləri bu gün hiss olunmaqdadır. Müstəqillik dövründə terminoloji qatın zənginləşməsində məhz morfoloji-sintaktik üsulun xüsusi əhəmiyyəti var. Morfoloji-sintaktik yolla yaranan terminlər müxtəlif elm sahələrində istifadə olunur və bu üsulla yeni terminlərin yaranması davam edir. Mürəkkəb terminlərin yaranmasında morfoloji-sintaktik üsulun geniş tətbiqi iltisaqi dillərin, o cümlədən Azərbaycan dilinin şəkilçilərinin məhsuldarlığı ilə bağlıdır. «Təbii ki, ayrı-ayrı sözlərin morfoloji-sintaktik üsulla birləşmə imkanları leksik-sintaktik üsula nisbətən daha geniş olduğu üçün bu üsulla yaranan terminlər də lüğətdə çoxluq təşkil edir və sözlərin müxtəlif şəkildə birləşən formalarda da təzahürü meydana çıxır. Bu zaman komponentlər birləşərək qovuşuq şəkildə bir məfhumu ifadə edir».[79, 59-60]

Müstəqillik dövründə morfoloji-sintaktik üsulla yaranan terminləri bu cür qruplaşdırmaq olar:

1.mürəkkəb söz şəklində olan terminlər;

2.söz birləşməsi şəklində olan terminlər.

Ümumiyyətlə, dilimizin lüğət tərkibinin zənginləşməsində morfoloji-sintaktik üsulun mühüm rolu olduğu kimi, terminoloji leksikada da yeni termin yaratmağın əhəmiyyətli yollarından biri də müxtəlif sözlərə morfoloji əlamətlər artırmaqla, aralarında sintaktik əlaqələr qurmaqla müxtəlif elmi anlayışları ifadə edən terminlər yaratmaqdır.

«Nəzərə alınmalıdır ki, termin yaradıcılığı da dildaxili inkişaf qanunauyğunluqlarına tabedir». [12,76]

Morfoloji-sintaktik üsulla yaranan quruluşca mürəkkəb söz şəklində olan terminlər tərəflərin qəbul etdiyi şəkilçilərin növlərinə və hansı tərəfin morfoloji əlaməti qəbul edilməsinə görə də fərqli xüsusiyyətlərə malikdir. Bu baxımdan mürəkkəb terminləri aşağıdakı qruplara bölmək olar:

1. Yalnız birinci tərəfi morfoloji əlamət qəbul edən;
2. Yalnız ikinci tərəfi morfoloji əlamət qəbul edən;
3. Hər iki tərəfi morfoloji əlamət qəbul edən;
4. Birinci tərəfi ismin qeyri-müəyyən yiyəlik və təsirlik halında işlənən;
5. Müxtəlif sözlərə etmə, verici, edici sözlərinin qoşulması ilə əmələ gələn.

Yalnız birinci tərəfi morfoloji əlamət qəbul edən mürəkkəb quruluşlu terminlər milli və alınma şəkilçilər hesabına əmələ gəlir. Bu cür terminlərdə birinci tərəf həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçilər qəbul edə bilər. İnformatika terminologiyasında işlənən yarımbayt, yarımdairə kimi terminlər məhz bu yolla yaranmışdır. Mürəkkəb terminin birinci tərəfi düzəltmə sifət olan yarım sözündən, ikinci tərəfi sadə isimlər olan bayt və dairə sözlərindən ibarətdir. Bu yolla yaranan terminlər, müşahidəmizə görə,

azlıq təşkil edir. Son dövrlər siyasi terminologiyada işlənən “yetərsay” termini də bu yolla yaranmışdır.

İkinci tərəfinə milli şəkilçilər artırılan sözlərdən ibarət olan bu terminlərin tərkibində həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçilər işlənir. Qəbul etdiyi şəkilçinin növündən asılı olaraq bu terminlər iki qrupa bölünür:

1. İkinci tərəfi sözdüzəldici şəkilçi qəbul edən.
2. İkinci tərəfi müxtəlif qrammatik şəkilçilər qəbul edən.

Birinci qrupa daxil olan terminlərin birinci tərəfi şəkilçisiz olur, ikinci tərəfi müxtəlif milli və alınma şəkilçilərin vasitəsilə düzəlir.

Bu cür terminlərin ikinci tərəfinə –ma[2], -li[4], -lik [4], -ıçı[4], -ım[4] və başqa sözdüzəldici şəkilçilər artırmaqla yeni terminlər yaranır, məsələn: -ma; avtoyükləmə, surətçıxartma, sözyaratma, sözdüzəltmə, metodbirləşmə, səsvermə, kökalma və s.

–lı[4]; eyniqiymətli, bərabərqüvvəli, birmənalı, supermövqeli, sülhməramlı, ikitərəfli, irimiqyaslı və s.

-lik[4]; ongünlük, çoxillik, çoxmənalılıq, yekdillik və s.

-ıcı[4]; lentdartıcı, qanunverici, sözdüzəldici, səsçoxaldıcı və s.

-ım[4]; soyqırım, üstqurum və s.

Bu sözdüzəldici şəkilçilər, ümumiyyətlə, dilin lüğət tərkibinə daxil olan yeni sözlərin yaranmasında fəal iştirak etdiyi kimi, müstəqillik illərində bir sıra terminlərin yaranmasında mühüm rol oynayır. «Doğrudan da, bu və ya başqa bir elmi, texniki, siyasi, ictimai söz-termini hər hansı bir dilin öz materialından yaratmaq mümkünsə, o zaman bu mütləq həmin dilin daxilindən alınmalıdır». [50,122]

Məlum olduğu kimi, bütün sözdəyişdirici şəkilçilər mənşəcə millidir. Sözün ahənginə uyğun olaraq ona qoşulub mürəkkəb terminlərin ikinci tərəfi ola bilirlər. Feli sifət şəkilçisi – an[2] söz birləşməsi şəklində olan terminlərin yaranmasında fəal olduğu kimi, mürəkkəb terminlərin də formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə yaranan sözönü,

yubileyqabağı, saniyəölçən, yolayrıcı kimi terminlərin ikinci tərəfi mənsubiyyət, feli sifət şəkilçiləri qəbul etsə də, birinci tərəfi şəkilçisizdir, lakin söz, yubiley, yol sözləri ismin qeyri-müəyyən yiyəlik halında, saniyə isə qeyri-müəyyən təsirlik halda işlənmişdir.

Hər iki tərəfi morfoloji əlamət qəbul edən terminlərin yaranmasında dilimizin daxili imkanları mühüm rol oynayır. Termin yaradıcılığında dilin daxili imkanlarından bəhrələnmənin üstünlük təşkil etdiyini nəzərə alaraq, deyə bilərik ki, bu yolla termin yaranması məhsuldar üsullardan biridir. Özünüyükləmə, ölkələrarası, parlamentlərarası, sınaqdankeçirmə, seçkiqabağı, özüsazlanan, siyahıyaalma, özünüqiymətləndirmə, yenidənqurma, topdansatış kimi terminlər bu gün həm texniki, həm ictimai, həm də siyasi sahədə işlənməkdədir. Qeyd etmək lazımdır ki, bu terminlərin tərəfləri ümumişlək sözlərdən və ya milli şəkilçilərdən ibarətdir.

Bəzi terminlərin ikinci tərəfi eyni vaxtda bir neçə sözdüzəldici və sözdəyişdirici şəkilçi də qəbul edə bilir. «Özünüyükləmə» (informatika texnologiyası) termininin birinci tərəfi mənsubiyyət və təsirlik hal, ikinci tərəfi isə –lə və –mə şəkilçilərini qəbul etmişdir. «Özünüqiymətləndirmə» (metodika) termininin birinci tərəfi iki sözdəyişdirici – «u» mənsubiyyət və «ü» təsirlik hal şəkilçisi qəbul etdiyi halda, ikinci tərəfi –lən, -dir, -mə sözdüzəldici şəkilçiləri ilə işlənmişdir.

«Parlamentlərarası», «sözügedən» kimi yeni terminlərin yaradılmasında yalnız sözdəyişdirici şəkilçilərdən istifadə olunmuşdur. Belə ki, «parlamentlərarası» siyasi terminində –lar cəm, -sı mənsubiyyət, «sözügedən» mürəkkəb termində isə –ü mənsubiyyət, -ən feli sifət şəkilçisinin termin yaradıcılığında rolunu görürük. «Topdansatış» (iqtisadi) termininin birinci tərəfi –dan[2] çıxışlıq hal, ikinci tərəfi isə feldən isim düzəldən –iş[4] şəkilçisini qəbul etmişdir.

Terminlərin yaranmasında son dövrlərdə etmə, verici, edici kimi sözlər terminlərin ikinci tərəfi olaraq yeni anlayışları ifadə edə bilirlər. Təşkiletmə, idarəetmə, qeydetmə, icraetmə, qanunverici, icraedici bu yolla

yaranan terminlərdir. «Vermək» feli müstəqil işlənsə də, «etmək» köməkçi feli, əsasən, ayrılıqda leksik məna daşımadığından müstəqil işlənə bilmir və tərkibi fellərin ikinci tərəfi olur.

Morfoloji – sintaktik üsulla yaranan mürəkkəb terminlər həmin üsulla yaranan söz birləşməsi şəklində olan terminlərə nisbətən azlıq təşkil edirlər. Bu, yəqin ki, hər hansı elmi, ictimai və ya siyasi anlayışın iki yox, daha çox sözlə ifadə etmək ehtiyacı ilə bağlıdır.

«Azərbaycan dilində mürəkkəb sözlər, adətən iki, bəzən də üç kökdən ibarət olur; mürəkkəb söz üçün üç kök son həddir və həm də belə mürəkkəb sözlər olduqca az miqdardadır». [1,43]

«Dilin lüğət tərkibində sözün fəaliyyəti və müstəqil inkişaf yolu ilə onun mürəkkəb sözün komponenti olaraq inkişafı bir-birinə uyğun gəlmir. Mürəkkəb sözün komponentini təşkil edən söz ayrılıqda fəaliyyətdən düşərək arxaikləşsə də, mürəkkəb sözün tərkibi dəyişməz qalır.

Azərbaycan dilində vaxtilə işlənmiş bir çox sözlər, eləcə də bir sıra ərəb və fars sözləri müasir dilimizdə işlənmədiyi halda, ayrı-ayrı leksik vahidlərin tərkibində qalmaqdadır; məs.: abqora, qaravaş, qiraətxana, kitabxana və s. Sözün söz birləşməsinin komponenti olması isə müvəqqəti xarakter daşıdığından, o, öz əsl inkişaf yolundan kənara çıxmır. Belə hal ola bilməz ki, söz ayrılıqda işlənməsin, müasir dildə heç bir məna verməsin, lakin söz birləşməsinin komponenti olaraq birləşmə yarada bilsin». [1,42-43]

Termin – söz birləşəmələrinin komponentləri həm leksik, həm də qrammatik cəhətdən bir-biri ilə bağlanır. Tərkibindəki sözlərin sayından asılı olmayaraq hər bir söz həm məna, həm də müəyyən qrammatik əlaqələr baxımından digəri ilə bağlı olur. Termin birləşmələri təşkil edən sözlərin kəmiyyətinə əsasən bu birləşmələr quruluşca iki yerə bölünür: S.Sadıqova terminlər-birləşmələri, əsasən, aşağıdakı kimi qruplaşdırır:

1. sadə termin – birləşmələr;
2. mürəkkəb termin – birləşmələr. [63,40]

Müstəqillik illərində sadə termin – birləşmələr iki sözdən təşkil olunur. Sözlər ayrılıqda müstəqil leksik mənaya malik olur, əsas nitq hissəsi ilə ifadə olunur, məs.: ticarət partnyorları, durğunluq dövrü, siyasi hava, neft bazası, münaqişə ocağı, terror siyasəti və s.

Üç və daha artıq sözdən ibarət olan birləşmələr mürəkkəb olur. Mürəkkəb termin birləşmələrin komponentləri kəmiyyətcə müxtəlif ola bilər:

1. üç sözdən ibarət olanlar: strateji obyektlərin özəlləşdirilməsi, minimum alış məbləği, icra hakimiyyəti strukturları, yaddaş qurğusunun tutumu, sensasiya doğuran xəbər və s.
2. dörd sözdən ibarət olanlar: fərdi elektron hesablama maşını, mütləq kəsilməz təsadüfi qanun, ayrılmış əsas xətlə birləşmə və s.
3. beş sözdən ibarət olanlar: daşınmaz əmlak üzərindəki əşya hüququ, texnoloji problemlərin avtomatlaşdırılmış idarəetmə sistemi, güclü normal təsadüfi kəmiyyətlər ailəsi və s.
4. altı sözdən ibarət olan: intensivlik funksiyası orta mənada azalan paylanma, müxtəlif maliyyə və informasiya sisteminə girişin təmini, provajderlərin sorğuları və informasiyaları sürətli ötürmə imkanı və s.
5. yeddi sözdən ibarət olan: abonentin ona göstərilən xidməti satmaq hüququ məsələsi, provayderin xarici rabitə kanallarının növləri və buraxılış qabiliyyəti.

Sözsüz ki, termin-birləşmələri təşkil edən sözlərin miqdarı nə qədər az olarsa, işlənmə imkanı bir o qədər çox olar. Bəzən nominativ funksiya daşıyan termin birləşmələrinin tərəflərini təşkil edən sözlərin kəmiyyətcə çoxluğu ondan istifadəni və yadda saxlamanı çətinləşdirir.

Elmi anlayışların ifadəsi üçün lazım olan termin-birləşmələrə ehtiyacın artması, onu təşkil edən tərəflərin kəmiyyətcə çoxalması bir tərəfdən dildə baş verən dəyişikliklərlə, digər tərəfdən elmin müxtəlif sahələrinin inkişafı

ilə bağlıdır. Dörd, beş, altı, hətta yeddi sözdən ibarət termin-birləşmələr dili ağırlaşdırır.

Terminləri nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, termin yaradıcılığı üçün qoyulmuş müəyyən prinsiplər olmalıdır və bunlar gözlənilməlidir. Nominativ funksiya daşıyan termini təşkil edən sözlərin miqdarı müəyyən hədlə tənzimlənməlidir. Müxtəlif elm sahələrində işlənən terminlərin bəziləri ümumişləklik qazanır. Müşahidələrimiz göstərir ki, çoxkomponentli terminlərin ümumişləklik qazanmasına, demək olar ki, təsadüf olunmur.

Sintaktik üsulla yaranan terminlər müstəqillik illərində mənşəcə milli sözlərdən yaransa da, onların təşkilində Avropa dillərindən, o cümlədən ingilis və ingilis dili vasitəsilə digər dillərdən alınan sözlərdən istifadənin olduğuna da təsadüf olunur. Bu baxımdan sintaktik üsulla yaranan termin-birləşmələri üç qrupa bölmək olar:

1) tərəfləri yalnız milli sözlərdən ibarət olan;
2) həm milli, həm alınma sözlərdən ibarət olan;
3) yalnız alınma sözlərdən ibarət olan.

Birinci qrupa daxil olan termin-söz birləşmələrin tarixən işlənməsi mövcud idi, yəni «Kitabi-Dədə Qorqud» dastanlarının yarandığı dövrdən müasir dövrə kimi bir çox elm və peşə sahələrində, xüsusilə ədəbiyyatşünaslıq, hüquq, tarixşünaslıqda istifadə olunan termin-birləşmələrin milli sözlərdən təşkil olunmasına çox təsadüf olunur. Məsələn: ox ucluğu, qazi ərənlər, əkin yeri və s. Müstəqillik illərində də bu proses davam edir. Dilimizin daxili imkanlarından istifadə etməklə yeni yaranan termin-birləşmələrin mövcudluğu müsbət hal kimi qiymətləndirilməlidir.

Söz birləşməsi və mürəkkəb termin şəklində istifadə olunan və müxtəlif elm sahələrində işlənən olan elmi anlayışların ifadəsinə çevrilən terminlərin tərəflərinin, əsasən, milli sözlərlə ifadəsini söyləmək olmaz. Elə elm sahələri var ki, onlar Avropa ölkələrində yaranmış, təşəkkül tapmış və müəyyən tarixi dövr ərzində öz terminologiyasını formalaşdırmışdır. Bu elm

sahələrinə məxsus terminlər də məhz həmin elm sahəsinin meydana gəldiyi coğrafi məkanın dilinin lüğət tərkibi əsasında yaranır.

Həmin elm sahələrinə məxsus terminlərin alınıb işlənməsi təbiidir. Lakin elə elmi anlayışlar var ki, onları ifadə etmək üçün tələffüzü və yazılışı çətin olan termini və ya termin – birləşmələrinin tərəfini milli və ya ümumişlək sözlə əvəz etmək olar. Purizmə yol vermədən bu terminlərin həm istifadə edilməsi, həm də dilimizin qanunauyğunluğunu qorumaq baxımından dəyişilməsi həyata keçirilə bilər. Son dövrlərdə bir çox terminologiya sahələrində bu istiqamət hiss olunmaqdadır.

Yalnız milli sözlərdən ibarət olan terminlər həm leksik, həm qrammatik cəhətdən birləşərək Azərbaycan dilinin qayda-qanunlarına uyğun olaraq yaranır.

Quruluşca mürəkkəb olan «topdansatış», «soyqırım», «yetərsay», «özüsazlanan», «özünüyükləmə», «kökalma» kimi terminlərin tərəfləri müəyyən hal, mənsubiyyət, sözdüzəldici şəkilçilər qəbul edib birləşərək hər hansı elmi anlayışı ifadə edir. Terminologiya ilə məşğul olan bir çox alim və mütəxəssislərin qəbul etdiyi «Termin asan tələffüz olunmalıdır» tezisinin tələbinə uyğun olan bu cür termin və ya termin-birləşmələr tez anlaşılır. Son dövrlər alınma terminlərin sayı artsa da, dilimizin daxili imkanlarından istifadə etməklə termin yaratma prosesi daha məhsuldardır.

«Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də terminologiyanın yaradılması və zənginləşdirilməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin, termin-söz birləşmələrinin yaradılmasıdır. Ona görə də elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Əgər bu və ya digər xalqda hər hansı bir elm sahəsinin tarixi qədimdirsə, həmin elmin inkişaf səviyyəsini əks etdirən terminlərin çoxu o xalqın öz dilinin sözlərindən ibarət olur». [64, 64-65]. Bu barədə Vladimir Dal yazır: «Bu vaxta qədər xalq dilinə etina olunmurdu, lap son zamanlar ona nəzər

salmağa başlamışlar: bu nəzər ona qarşı mərhəmət və marağın ifadəsidir». [113,3]

Məlum olduğu kimi, terminlər nominativ funksiya daşıdığından daha çox isim, isimləşmiş nitq hissələri və ismi birləşmələr şəklində olur. Fikrimizcə, müxtəlif lüğətlərdə xüsusilə hüquq terminləri lüğətində verilən feli termin-birləşmələr elmi dilə xas olan yığcamlıq, dəqiqlik və konkretlik kimi xüsusiyyətləri özündə əks etdirə bilmir, yalnız müəyyən vəziyyət və prosesləri göstərməklə kifayətlənir.

Bu cür terminləri ismi birləşmə şəklində vermək mümkün olduğu halda, feli birləşməyə ehtiyac qalmır, məsələn: şahidin təkrar dindirilməsi, blokadaya son qoyulması, istintaq aparılması və s.

«Hüquq terminləri lüğətində» verilən terminlər daha çox ismi birləşmə şəklində olur: Məsələn: 1). I növ təyini söz birləşməsi: mülki ziyan, hüquqi əsas, texnoloji tərəqqi, gizli saziş, hüquqi şəxs və s. [95]

2). II növ təyini söz birləşməsi: sahiblik hüququ, toplaşma hüquqi, söz azadlığı. [95]

3). III növ təyini söz birləşməsi: işin şəraiti, təfəkkürün modelləşdirilməsi, təsvirin dəqiqliyi və s. [95]

Qeyd etmək lazımdır ki, əsas tərəfi feli bağlama ilə ifadə olunan feli birləşmə şəklində olan termin-birləşmələrə təsadüf olunmur. Bu, feli sifət və məsdərdən fərqli olaraq feli bağlamanın isimləşə bilməməsi və buna görə də nominativ funksiya daşıya bilməməsi ilə bağlıdır.

İsmi birləşmələrin tərəfləri sintaktik əlaqənin hər iki növü – tabelilik və tabesizlik əlaqələri ilə birləşə bilər. Tərəflər arasındakı sintaktik əlaqənin növü baxımdan termin-birləşmələri aşağıdakı qruplara bölmək olar.

1) yanaşma əlaqəsi ilə bağlanan; məsələn: yenidən seçilən, onluq vurma, ardıcıl yanaşma, dərin kəsik və s. [110]

2) uzlaşma və idarə əlaqəsi ilə bağlanan; məsələn: verilənlərin ötürülməsi, yazının sıxlığı, keçirmə qurğusu,

dil uyğunluğu, dəyər ölçüsü, yaddaş qurğusunun tutumu və s. [110]

3) yanaşma və idarə əlaqəsi ilə bağlanan; məsələn: böyük tutumlu yaddaş qurğusu, böyük ipək yolu, cəld hərəkət edən yaddaş qurğusu və s. [110]

4) tabesizlik və tabelilik əlaqəsi ilə bağlanan: sağlamlığı və təmizliyi qoruma tədbirləri, soyuq və küləkli hava axını və s.

Tərəfləri həm milli, həm də alınmalardan ibarət olan terminlər də bu əlaqələrlə bağlanır.

«Yenidən seçilən» termin-birləşməsinin birinci tərəfi düzəltmə zərflə ifadə olunub- «dən» şəkilçisi «yeni» sözündən «yenidən» zərfini düzəltməyə xidmət edir. Birləşmənin tərəfləri hal və mənsubiyyət qəbul etmədən yanaşma əlaqəsinə girmişdir.

Birinci tərəf həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik və ya təsirlik hallarda ola bilər, ikinci tərəf isə yanaşma əlaqəsinin göstəricisi olan mənsubiyyət şəkilçisi qəbul edir. Bəzən ikiqat idarə əlaqəsi ilə bağlanan çoxtərəfli termin-birləşmələr də yaranır. Məsələn, «sınaqdan keçirmə sistemi» termininin birinci sözü çıxışlıq, «keçirmə» qeyri-müəyyənlik bildirən yiyəlik halda işlənərək «sistemi» sözü ilə bağlanmışdır. Bu bağlılığı aşağıdakı şəkildə ifadə etmək olar:

sınaqdan--------keçirmə----------sistemi

Göründüyü kimi, «sınaqdan» sözü birbaşa deyil, keçirmə sözü ilə əlaqəyə girərək onunla birlikdə «sistemi» sözü ilə bağlanmışdır.

Sintaktik yolla yaranan ismi termin birləşmələrin ən çox yayılmış formaları, əsasən, bu nitq hissələri ilə ifadə olunur: isim, sifət, say.

isim+isim; məsələn: ticarət dövriyyəsi, neft sektoru, işçi qrup, rəqəm kodu və s.

sifət+isim; məsələn: milli bank, ikili standart, ümumi maraq, xarici investisiya və s.

say+isim; məsələn: ikinci dərəcəli yaddaş, birinci səsvermə və s.

feli sifət +isim; məsələn: daşınmayan əmlak, verilənlər formatı, fırlanan kartoteka və s.

Müxtəlif nitq hissələri ilə ifadə olunma feli birləşmələrə də xasdır. Məsələn:

İsim +məsdər: hüququndan imtina etmək, təkrar sığorta etmək.

feli sifət: seçkiləri baykot edən, standartları müəyyən edən

Zərf +məsdər: intensiv dəyişmək, yenidən səsə qoymaq və s.

§ 2.5. Kalka üsulu ilə yaranan terminlər

Cəmiyyətin ictimai-siyasi həyatında baş verən dəyişikliklər dilin daxili inkişaf qanunlarına, onun leksik qatının yeniləşməsinə təsir edən əsas amillərdən biridir. İctimai-siyasi təfəkkürün formalaşması, cəmiyyətin inkişafında aparıcı rol oynaması dilin leksik qatının, xüsusilə terminoloji qatın müxtəlif yollarla zənginləşməsinə gətirib çıxarır. Belə yollardan biri də kalka üsulu ilə termin yaradıcılığıdır. Terminoloji leksikanı təşkil edən söz ehtiyatının əsas hissəsi kalka üsulu ilə yaradılan terminlərdir. Hər hansı yeni elmi anlayışın ifadəsi dilin daxili imkanları əsasında formalaşır. Əvvəlki dövrlərdə olduğu kimi, indi də termin yaradıcılığında kalka üsulundan istifadə olunur. «Kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud söz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün həmin sözlərin modeli üzrə qurulmuş sözlər ,yaxud ifadələrdir». [65,104]

«Kalka yolu ilə yaradılan yeni söz və istilahlar hərfən tərcümə vasitəsilə dilə gətirilir. Bu proses zamanı tərcümə olunan söz həmin dildə (tərcümə edilən dildə) eyni mənanı verən sözlərlə, yaxud söz və

sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır. Burada tərcümə olunan sözün tam qarşılığı verilməlidir». [55,17]

Müstəqillik illərində, xüsusilə son dövrlərdə ictimai-siyasi leksikanın kəmiyyətcə artımı kalkaetmənin müxtəlif formalarının meydana gəlməsinə səbəb olur. Belə formalardan ən çox işlənəni tam və yarımçıq kalkalardır.

Tam kalkalar zamanı terminin tam qarşılığı kimi verilən söz və ya söz birləşməsi dilimizin qrammatik qaydalarına uyğun olaraq verilir. Daha çox rus və Avropa dillərindən alınan terminlərin kalkasına rast gəlmək olar. Kalkalarda alınma terminin tam qarşılığının verilməsi üçün sözdüzəldici şəkilçilərdən də istifadə olunur. Məsələn: оффициальное сообщение - rəsmi məlumat, гражданское право - vətəndaş hüququ, боевой устав - döyüş nizamnaməsi, рыночная экономика – bazar iqtisadiyyatı, экономический суд - iqtisad məhkəməsi və s.

Tam kalkalar alınma terminlərin daşıdığı qrammatik xüsusiyyətlərin bəzilərini saxlayır, bəzilərini isə tərcümə olunan dildən qəbul edir. Söz birləşməsi şəklində olan terminlərin arasında olan sintaktik əlaqələrin növləri kalkalarda dəyişə bilər. Məsələn, боевой устав birləşməsinin tərəfləri rus dilində uzlaşma əlaqəsi ilə bağlanıb. Birləşmənin qarşılığı olaraq kalka edilən döyüş nizamnaməsi ikinci növ təyini söz birləşməsinin tərəfləri arasında həm idarə, həm də uzlaşma əlaqəsi var.

S.A.Sadıqova yazır ki, «…tərcümə olunan terminin, termin-söz birləşmələrinin tam qarşılığı göstərilməlidir. Əks halda onu kalka adlandırmaq olmaz, təbiidir ki, hərfi tərcümə (kalka üsulu bəzən hərfi tərcümə də adlandırılmışdır) prosesində qarşılıqlı təsirdə olan dillərin quruluşunun yaxınlıq dərəcəsi, dilin lüğət tərkibinin, kalka edilən dildəki söz yaradıcılığı yollarının inkişaf dərəcəsi, kalkaetmənin baş verdiyi tarixi şərait və s. amillər mühüm rol oynayır». [66,116]

S.A.Sadıqova kalka üsulu ilə yaranan terminləri üç cəhətdən qruplaşdırır:

1. qrammatik quruluşlarına və onların tərkibindəki sözlərin bir-birinə bağlanmasına görə;
2. nitq hissələrinin iştirakına görə;
3. tərkibindəki elementlərin hansı mənbədən olmasına görə;

Müstəqillik illərində yaranan terminlərin xeyli hissəsi ingilis, rus və başqa Avropa dillərindən alınaraq kalka edilmiş və yeni yaranan elm sahələrinin terminlərə olan tələbini müəyyən miqdarda ödəmişdir. İnformatika, fizika, kimya, iqtisadiyyat və başqa elmlərin, onların ayrı-ayrı sahələrinin yeni yaranan terminlərlə təmin olunmasında kalka üsulunun mühüm rolu vardır.

Yarımçıq kalkalar tam kalkalara nisbətən üstünlük təşkil edir. Bu birləşmə şəklində olan terminlərin hər iki tərəfinin qarşılığının hər zaman tapılmaması ilə izah oluna bilər. Yarımçıq kalkaetmə iki, üç, dörd və daha çox komponentli birləşmələrin üzərində aparıla bilər. Avropa və rus dillərindən alınan termin – söz birləşmələri aşağıdakı şəkildə kalka edilə bilər:

1. Birləşmənin birinci tərəfi kalka edilir, ikinci tərəfi olduğu kimi qalır. Məsələn, müasir texnika, nəzarət mexanizmləri, beynəlxalq status, seçki monitorinqi, xarici valyuta və s.
2. Birləşmənin ikinci tərəfi kalka edilir, birinci tərəfi isə olduğu kimi saxlanılır. Məsələn: prioritet mövzu, qlobal dəyişiklik, etnopolitik münaqişə, tranzit xətt, konstruktiv mövqe, investisiya bazarı, struktur islahatlar və s. Bu kalkaların tərəfləri mənşəcə müxtəlif sözlərdən ibarətdir.

Yarımçıq kalkaların yaradılmasında tərəflərin həm semantik, həm də qrammatik cəhətdən birləşməsi əsasdır. «Современная техника», «Иностранная валюта» kimi birləşmələrdə kalka zamanı alındığı dildə mövcud olan qrammatik əlaqə üçün istifadə olunan morfemlərin ixtisarı müşahidə olunur. Termin-birləşmələrin tərəfləri isə bəzən söz birləşməsinə uyğun olaraq hal və ya mənsubiyyət şəkilçisi qəbul edir. Məsələn, ikinci növ

təyini söz birləşməsinin tələbinə uyğun olaraq «investisiya bazarı» termininin birinci tərəfi qeyri-müəyyən yiyəlik halda, ikinci tərəfi isə mənsubiyyət şəkilçisi ilə işlənmişdir.

Yeni meydana gələn və müasir dövrdə işlənən ictimai-siyasi və elmi terminlər arasında heç bir tərəfi kalka edilmədən dilimizdə işlənən terminlər də var. Məsələn: texnoloji parametrlər, antiterror koalisiya, diplomatik praktika, investisiya bankı, geosiyasi baza, konstruktiv dialoq və s. bu cür terminlər kalka edilməsə də, birləşmənin yaranması üçün dilimizin leksik və qrammatik şəkilçilərindən istifadə olunur. Məsələn, rus dilində olan «технологические параметры» termin-söz birləşməsi dilimizdə «texnoloji parametrlər» şəklində işlənir.

Frazeoloji kalka anlayışının terminlərə tətbiqi zamanı alınan termin kalka sayıla bilməz. Buna səbəb frazeoloji birləşmələri təşkil edən sözlərin məcazi məna daşıması və termini təşkil edən sözlərin bütövlükdə bir leksik məna bildirməsidir.

Azərbaycan dilinin zənginliyini təmin edən frazeoloji vahidlərin sabit söz birləşməsi olması, lakin hər cür sabit söz birləşməsinin frazeoloji vahid olmaması haqqında fikirləri H.Bayramov qeyd etmişdir [9,55].

Müstəqillik illərində semantik kalkadan da istifadə olunur. Məlumdur ki, cəmiyyətin inkişafı ilə bağlı termin yaradıcılığında bir çox sözlər yeni məna kəsb edir, bəzən də əsas məna ilə bağlı əlavə mənaları ifadə edirlər. Semantik inkişaf nəticəsində yaranan yeni mənalar termin yaratmaq üçün mənbəyə çevrilir. Bu baxımdan semantik kalkaetmə terminologiyanın öyrənmə obyektlərindən biridir. Məna genişlənməsi nəticəsində hər hansı söz terminə, termin-birləşməsinin tərəfinə çevrilə bilir. İnformatika sahəsində işlənən və rus dilindən alınaraq kalka edilən aşağıdakı terminlər rus və ingilis dilindən kalka edilmişdir. Sözsüz ki, bu terminlər ingilis dilindən alınmış, rus dilinə kalka edilmiş və Azərbaycan dilinə ikiqat kalka vasitəsilə daxil olmuşdur.

Bağlama – привязка-binding

Başlıq-заголовок-header

Güc-мощность-power

Uyğunluq-совместимость-compatibility

Rəqəm kodu – цифровой код-numeric code

İşçi yaddaş – рабочая память-workinq storaqe

Sorğu dili – язык запроса – query lanquaqe [110]

Kalkaetmə çoxtərəfli termin-birləşmələrdə də müşahidə olunur. Bu cür birləşmələrdə tərəflər idarə, uzlaşma, yanaşma əlaqəsinə girir: sənədin axtarış əlaməti-поисковый образ документа-document description; köməkçi müəllif göstəricisi-вспомогательный авторский указатель - auxiliary autlior index; yaddaş qurğusunun tutumu – емкость запоминающего устройства-storage capacity.

Azərbaycan, rus və ingilis dilində verilən bu kalkalara nəzər yetirsək, görərik ki, birləşmələrin yaranmasında hər bir dilin – Azərbaycan-rus-ingilis dillərinin öz qrammatik əlamətləri, morfemləri iştirak edir. Əgər Azərbaycan dilində bu kalkalar III növ təyini birləşməyə uyğun gəlirsə, rus dilində I növ, ingilis dilində isə II növ təyini birləşməyə uyğundur. Söz sırası baxımından da eynilik müşahidə olunur, məsələn, sənədin axtarış əlaməti – поисковый образ документа.

Kalka zamanı hər bir dilin daxili imkanları baxımından elmi anlayış müxtəlif sayda sözlə ifadə oluna bilər. Bəzən kalka edilən dildəki termin – birləşməni təşkil edən tərəflərin sayı alındığı dildəki termin-birləşmələrinin tərəflərinin sayına bərabər olur. Məsələn, köməkçi müəllif göstəricisi; вспомагательный авторский указатель; auxiliary autlior index; seçici çoxluğu; выборное большинство; non-official majority. [110]

Kalka zamanı alınan dildəki terminin tərəflərinin sayı Azərbaycan dilinə kalka edilən birləşmənin tərəflərinin sayından az və çox ola bilər. Bu, hər hansı məfhumun hər hansı dildə ifadə imkanı ilə və o dilin qrammatik quruluşu ilə bağlıdır.

Nəzərə alınmalıdır ki, termin yaradıcılığı da dildaxili inkişaf qanunauyğunluqlarına tabedir. Məfhumları «maddi dil şəklinə» salarkən (terminləşdirərkən), hətta ayrı-ayrı riyazi qanunların təsir göstərdiyinə də etinasız yanaşılmamalıdır. Məsələn, «adi» riyaziyyatda «tərs mütənasib» adlandırılan bir bəhs var. Orada göstərilir ki, əlaqədar iki kəmiyyətdən birinin artımı digərinin eyni nisbətdə azaldılmasına səbəb olur. Həyat və məişətdə tez-tez rast gəldiyimiz bu qanun leksik və leksik-semantik vahidlərin, terminlərin və terminvari ifadələrin quruluşu (kəmiyyəti) ilə məna cərgəsi («keyfiyyəti») arasındakı dəyişmələrə də aiddir. Sonuncu halda belə bir düstur qurmaq olar: termin və ifadələrdə əlaqədar sözlərin kəmiyyəti (miqdar) ilə «keyfiyyəti» (məna cərgəsi) arasındakı nisbət bir-birinə tərs mütənasibdir; yəni hər hansı termində, terminvari ifadələrdə söz birləşmələrində kəmiyyətcə dəyişmə (sözlərin artım- əskimi) «keyfiyyət» dəyişmələrinə (mənaca bir halda- daralmaya və ya konkretləşməyə, digər halda genişlənməyə və ya ümumiləşməyə səbəb olur». [11,42]

Kalkaetmə zamanı söz birləşmələrinin kəmiyyətcə fərqlənməsi təbii bir haldır. Başqa dildə bir sözlə ifadə olunan elmi anlayışın Azərbaycan dilində qarşılığı iki və daha artıq sözlə ifadə oluna bilər. Doğrudur, terminin az sözlə ifadəsi terminologiya üçün vacib şərtlərdən biridir, lakin zəruri ehtiyac zamanı və ya dilin daxili imkanları yol vermədikdə terminin tərəflərinin sayı kəmiyyətcə arta bilər.

Məsələn, son dövrlər hüquq sahəsində işlənən və kalka yolu ilə dilimizə keçən «qiymətli kağızların yeni buraxılışı» termini ingiliscə «new issue», rusca «новый выпуск ценных бумаг», türkcə «kiymetli evrakın yeni ihracı» şəklində işlənir. İngiliscə terminin hər iki tərəfi kalka edilərək rus, türk, Azərbaycan dilində işlənməkdədir.

S.Sadıqova kalka üsulu ilə yaranan terminləri üç əlamətinə görə qruplaşdırmışdır:

1. nitq hissələrinin iştirakına görə
2. termin-birləşmələrin tərəflərinin mənşəyinə görə.

3. qrammatik quruluş və tərəflər arasındakı sintaktik əlaqələrə görə. [83,139]

Son dövrlərdə kalka üsulu ilə yaradılan terminlərin üstünlük təşkil etməsi, elmlərin inkişafı, bir-birinə inteqrasiya etməsi, müstəqillik qazandıqdan sonra başqa ölkələrlə azad siyasi, iqtisadi əlaqələrin artması ilə bağlıdır. Kalka üsulu ilə yaranan terminlər həm dilimizin, həm də terminologiyamızın lüğət fondunu zənginləşdirir.

«Kalkalar dilin öz daxili imkanları hesabına (həm söz və şəkilçilər, həm də struktur milli olur) yaransa da, onların meydana çıxması üçün bilavasitə etimon dilin təsiri olur, belə ki, etimon dilin təsiri ilə əvvəla sözün və ya ifadənin bütün komponentləri müvafiq surətdə kalka olunur. Digər tərəfdən isə, bəzi istisnalar nəzərə alınmazsa, struktur eyniliyi saxlanılır, daha doğrusu, söz birləşməsi söz birləşməsinə, söz sözə kalka edilir». [33,232]

N.Məmmədov, A.Axundov «Dilçiliyə giriş» kitabında yazırlar ki, «kalka» üsulu ilə yaradılan söz və terminlər həm morfoloji, həm də leksik yolla əmələ gəlir:

a) morfoloji yolla yaradılan yeni sözlər həm öz sözlərimiz, həm də azərbaycanlaşmış ərəb və fars mənşəli sözlərə dilimizin sözdüzəldici şəkilçilərinin əlavə edilməsi ilə əmələ gəlir.

b) kalka üsulu ilə yaradılan sözlərin bir qismi də sintaktik yolla əmələ gəlir. İstər morfoloji və istərsə də sintaktik yolla yaradılan yeni söz və terminlər dilimizdə yeni anlayışları ifadə etməyə xidmət edir.

Sintaktik yolla yaradılan yeni sözlər iki və daha artıq sözün birləşməsi və ya yanaşması ilə əmələ gəlir. Bunların bir qismi bitişik və bir qismi də ayrı yazılır. Doğrudur, bitişdirilən və yanaşdırılan sözlər ayrılıqda müstəqil məna bildirsələr də, ancaq tərkib daxilində bir məna ifadə edir.

Müstəqillik illərində də kalka üsulu ilə termin yaradılmasında həm morfoloji, həm də sintaktik yoldan istifadə olunur. Kalkaların növləri

haqqında ayrı-ayrı alimlər müxtəlif fikirlər söyləyiblər. M.Qasımov kalkaların üç əsas növünü göstərir:

1. Leksik kalkalar;
2. Sintaktik kalkalar;
3. Frazeoloji kalkalar. [43,135]

Müəllif yalnız kalkaların iki növündən – leksik və sintaktik kalkalardan bəhs edir. Bu, onu göstərir ki, frazeoloji kalkaların əsas xüsusiyyətləri və leksik sərhədi hələlik müəyyənləşməyib.

N.Xudiyev kalkaların növləri haqqında yazır:

«Kalkalar iki qrupa bölünür:

1. Normativ məna əsasında əmələ gələnlər;
2. Məcazi məna əsasında əmələ gələnlər.

Normativ məna əsasında əmələ gələn kalkalardan istifadə olunan anlayış və məfhum üçün ikinci bir söz işlənir. Yəni bir məfhum və anlayış bir ifadə vasitəsinə malik olur.

Məcazi məna əsasında yaranan kalkalar obyekti ifadə etmə xüsusiyyətlərinə görə nominativ mənalı kalkalardan fərqlidir. Burada obyekt bir, ifadə vasitələri müxtəlif ola bilər. Bir obyektə aid olan bir neçə ifadə vasitəsi emosional xüsusiyyətlərinə görə biri digərindən seçilir. Onların emosionallığında məcazi məna xüsusi rol oynayır». [33, 203-204]

Morfoloji üsulla termin yaradıcılığında morfemlərin rolu dəyişməzdir. Müstəqillik illərində dilimizin lüğət fonduna daxil olan bir sıra terminlər məhz morfoloji üsulla kalka edilmişdir.

Morfoloji üsulla kalkaetmə zamanı aşağıdakı sözdüzəldici-morfemlərin işlənməsinə tez-tez rast gəlmək olar:

İnformatika terminologiyasında:

1) –lıq[4] bu şəkilçi mücərrəd, cansız və məkan anlayışı ifadə edərək, əsasən, rus dilində olan –ство, –ност şəkilçisinin qarşılığı kimi işlənir; məsələn: çoxluq-множество, səmərəlilik-еффективност və s. [110]

Dəyərlilik-ценность, sələmçilik-ростовщичество, qanunilik-законность və s. İnformatika, hüquq terminologiyasında işlənir. [95]

2) –ma [2] kalka zamanı bu şəkilçi prosesin, vəziyyətin adlanması üçün istifadə olunur və əsasən, fellərə əlavə olunur. İnformatika terminologiyasında –ma[2] şəkilçisi rus dilində işlənən –ka şəkilçinin qarşılığı kimi işlənir. Məsələn, razmetka-qeydetmə, razrabotka-işləmə, nastroyka-sazlama, zaqruzka-yükləmə, kompanovka-paslama və s. Son dövrlərdə yaranan yenidənqurma (perestroyka), özəlləşdirmə (xüsusiləşmə) kalkalarında –ma[2] şəkilçisinin işləndiyi müşahidə olunur.

Bu xüsusiyyətləri –ıcı[4], -çı[4], -ən[2] şəkilçilərinə da aid etmək olar. Kalka zamanı milli şəkilçilərdən istifadə olunması bu üslun dilin daxili imkanları əsasında yaranmasını şərtləndirən əsas amildir.

Son dövrlərdə iqtisadiyyatın, informatikanın inkişafı ilə bağlı bir çox terminlər kalka üsulu ilə dilimizin lüğət tərkibinə daxil olmuşdur.

Məlumdur ki, kalkalar dilin daxili imkanlarını müxtəlif cəhətdən – fonetik, leksik və qrammatik cəhətdən özündə əks etdirir. Buna görə də dilin daxili imkanları nəzərə alınmadan kalka üsulu ilə termin yaratmaq mümkün deyil. Bu baxımdan bütün səviyyələrdə: fonetik, leksik, morfoloji və sintaktik səviyyələrdə dilimizin imkanlarından istifadə olunması kalka zamanı nəzərə alınmalıdır.

Bəzən alındığı dildə termin morfoloji yolla yaransa da, dilimizdə kalka sintaktik yolla formalaşır. Məsələn, informatika terminologiyasında işlənən «şifraçan qurğu» termini rusca «demifrator», ingiliscə «decoder» şəklində işlənir. Azərbaycanca söz birləşməsi kimi formalaşan kalka rusca və ingiliscə morfoloji üsulla yaranmışdır.

Bu prosesin əksi də baş verir. İnformatika terminologiyasında işlənən «proqramxana» termini dilimizdə morfoloji üsulla kalka olunsa da, rus və ingilis dilində sintaktik yolla yaranmışdır: biblioteka proqramm – library proqram.

Ümumiyyətlə, kalka üsulu terminologiyamızın yeni-yeni terminlərlə zənginləşməsində son dövrlərdə məhsuldar üsullardan biri sayıla bilər.

§ 2.6. Abbreviaturalar

Müasir terminoloji lüğət tərkibinin zənginləşməsi yollarından biri də abbreviaturalar, yəni ixtisarlardır. Dilçilikdə qəbul olunmuş mülahizələrə görə, «Abbreviatura» üsulu ayrı-ayrı terminoloji sistemlərdə sözə qənaət edilməsinə, çoxsözlü terminlərin konkret terminlərlə əvəz olunmasına şərait yaradır. [43,42]

M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva «İzahlı dilçilik terminləri» lüğətində abbreviatura haqqında yazmışlar: «Abbreviatur – mürəkkəb ixtisarlara deyilir. Dilimizdə, əsasən, XIX əsrdən işlədilməyə başlayan mürəkkəb ixtisarlar, xüsusilə Sovet Hakimiyyəti illərində geniş yayılmışdır. Sabit söz birləşmələrinin (idarə və müəssisə adları, müxtəlif markalar və s.) ixtisar şəklində işlədilməsi dildə qənaət prinsipi ilə əlaqədardır. Çünki ixtisarlar daha yığcam olub yazıda az yer tutur, tələffüzü asanlaşdırır». [86,6]

M.M.Adilov yazır: «Abbreviasiya hadisəsinin məhsulu olan abbreviaturalar dilin lüğət tərkibinin zənginləşdirilməsində böyük rol oynayır. Leksik abbreviaturalar dilin digər sözlərinə aid bütün xüsusiyyətlərə malik olur». [3,20]

Abbreviaturaların yaranmasının və artmasının əsas səbəblərindən biri 80-90-cı illərdə ölkənin siyasi, iqtisadi, mədəni həyatında baş verən dəyişikliklər və inkişafdır. Yeni-yeni çoxsözlü termin-birləşmələrinin yaranması onların həm də mürəkkəb ixtisarlar şəklində ifadə olunmasına şərait yaradır.

Hələ 70-ci illərdə M.Qasımov yazırdı: «Son illərdə hərfi ixtisarların tematik dairəsi xeyli genişlənmişdir». Məsələn: hazırda hərfi ixtisarlar yazılı nitqdə dövlətlərin və milli respublikaların, kommunist, fəhlə və siyasi

partiyaların; 1945-ci ildən sonrakı dövrdə meydana gəlmiş beynəlxalq təşkilatların; sovet ittifaqında olan elmi-tədqiqat idarələrinin və elmi cəmiyyətlərin; ali və orta təhsil müəssisələrinin; sənaye müəssisələrinin və sənaye məhsullarının; hərbi və elmi-texniki anlayışların və s. adlandırılmasında həlledici rol oynayır» . [41,144]

Müəllif haqlı olaraq belə bir mülahizə irəli sürür: «Hərfi abbreviaturalar daxili formaya malik deyildir, çox zaman onların nəyi ifadə etdiyini müəyyənləşdirmək mümkün olmur. Hərfi abbreviaturaların yadda saxlanılması da çətindir. Çünki onlar çox az-az təkrar edilir. Belə ixtisarların əksəriyyətinin şərhə ehtiyacı vardır, məhz bu cəhətlərinə görə də hərfi abbreviaturaların termin olub-olmaması məsələsi mübahisə doğurur». [41,144]

Biz də müəllifin bu fikri ilə şərikik və mürəkkəb ixtisarlara yalnız müvafiq terminlərin əvəzediciləri kimi baxmaq lazımdır.

Nəzərə almaq lazımdır ki, digər üsullarla yaranan terminlərdən fərqli olaraq, mürəkkəb ixtisarlar müstəqil termin kimi meydana gəlmək xüsusiyyətinə malik deyil. Bu cür ixtisarlar bilavasitə termin-birləşmələrlə bağlıdır. Bu baxımdan bəzi abbreviaturalar müstəqil terminin daşıdığı bir sıra xüsusiyyətləri: leksik mənaya malik olmaq, konkret nitq hissəsinə malik olmaq, izahsız başa düşülmək, tez yadda qalmaq və zaman keçdikcə ümumişləklik qazanmaq xüsusiyyətlərini daşıya bilmir. Məhz buna görə də bu ixtisarlar çoxsözlü termin-birləşmələrin əvəzedicisi kimi yaranırlar.

EA-nın Nəsimi adına Dilçilk İnstitutunun hazırladığı «Müasir Azərbaycan dili» elmi əsərində abbreviaturalar «mürəkkəb ixtisarlar» adlandırılır və onların sintaktik üsulla yaradılan yeni sözlərin bir hissəsini təşkil etdiyi göstərilir. «Sintaktik üsulla yaradılan yeni sözlərin bir hissəsini də mürəkkəb ixtisarlar təşkil edir» [58,236]. Lakin müəllif abbreviaturaların başqa termin yaratma üsullarından fərqini də qeyd edir. «Mürəkkəb ixtisar sözlərlə yanaşı, dildə onun tam izahını təşkil edən söz birləşmələri də mövcud olur». [58,236].

S.Sadıqova yazır: «Abbreviatur üsulunu termin yaradıcılığında başqa üsullardan fərqlənir. Çünki bu üsulda bu və ya digər anlayışın ifadəsi üçün termin yaratmaq deyil, terminologyiada artıq mövcud olan terminləri əlverişli şəklə salmaq nəzərdə tutulur». [65,113]

Deməli, mürəkkəb ixtisarlar yeni termin yaratmaq üsulu yox, daha çox sintaktik üsulla yaranan terminlərin qısaldılması, tələffüz və yazılışı üçün uyğun şəklə salınmasıdır.

İkram Qasımov hərbi terminologiyada işlənən abbreviaturalar haqqında yazır: «Müasir Azərbaycan dili hərbi terminologiyasında abbreviaturlar yeni terminlərin yaranma üsulu yox, yeni formaların yaranma üsulu adlandırılsa, daha məqsədəuyğun və məntiqi səslənər». [43,71].

Doğrudan da, hər bir mürəkkəb ixtisarın əsasında çoxsözlü terminlər dayanır. Sözsüz ki, çoxsözlü dil vahidinin hətta hər hansı məhdud elm sahəsində müntəzəm işlənməsi çətinlik törədir. Buna görə də ixtisarların yaranmasına ehtiyac yaranır.

Hətta ədəbi dildə də yazıda ümumişlək sözlərin ixtisarla verilməsi halları olur ki, bu da təkrara və sözçülüyə yol verməyin qarşısını alır.

Terminologiyanın yeni-yeni mürəkkəb quruluşlu terminlərlə zənginləşməsi, elmi anlayışların ifadəsi üçün başqa dillərdən yazılışı və tələffüzü çətin olan terminlərin alınması mürəkkəb ixtisarlardan informasiyanın bolluğu, kompüter-informatika texnologiyalarından istifadə, mürəkkəb ixtisarların həm yazılı, həm də şifahi nitqdə işlənməsini zəruri edir. Son dövrlərdə mətbuat səhifələrində, kütləvi informasiya vasitələrində rast gəlinən mürəkkəb ixtisarlar o qədər çoxluq təşkil edir ki, geniş elmi məlumata malik olmayan şəxsin onların mənasını anlaması mümkün deyil. Bu baxımdan istər dar elmi terminologiyada, istərsə kütləvi informasiya sahəsində işlənən abbreviaturaların düzgün yazılış və tělləffüz qaydalarını bilmək vacibdir.

«Abbreviatura» sözünün yazılışında olan çoxvariantlılığı da nəzərdən qaçırmaq olmaz. Müşahidələrimizə görə, bu söz bir sıra elmi əsərlərdə üç

formada yazılır: abbreviatura, abreviatura və abreviatur. Sözsüz ki, qəbul olunmuş müəyyən yazılış qaydası olmalıdır. Qeyd etmək lazımdır ki, bu söz Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəşr etdiyi «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə (Bakı-2004-cü il) abbreviatura şəklində verilib. S.Ə.Cəfərov, A.H.Qarayev, K.Ə.Cəfərovanın «Avropa mənşəli sözlərin qısa lüğəti» kitabında bu sözün haqqında yazırlar: Abbreviatura [italyanca a b b r e v i a t u r a < latınca b r e v i s -qısa]- yazıda və ya şifahi nitqdə ixtisaretmə». [91,5]

Elmi anlayışları ifadə etmək üçün sintaktik yolla termin yaradıcılığının artması abbreviaturaların artması ilə düz mütənasibdir. Üç, dörd və daha çox tərəfi olan termin-birləşmələrin ixtisarları tərəflərin sayı baxımından bir neçə qrupa bölünür: 1) Bir sözdən ibarət olan ixtisarlar: A (adres) – ünvan (elektron hesablama maşınında), F – funksiya, İ – indikator,

2) İki sözdən ibarət olan termin-birləşmələrin ixtisarı; AD – assosiativ deskrintor, KB – konstruktor bürosu, ST – sinonim termin, İS – informasiya sistemi, AzPetrol, telefaks.

3) Üç sözdən ibarət olan termin-birləşmələrin ixtisarı: AİS – avtomatlaşdırılmış informasiya sistemi; PTK – proqram-texniki kompleks, SİF – soraq-informasiya fondu, SYQ-sabiq yaddaş qurğusu və s.

4) Dörd sözdən ibarət olan termin birləşmələrin ixtisarı: ATAN – Ağac-torpaq atəş nöqtəsi (hərbi), ABƏS-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və s.

İxtisarların tədqiqatçılar tərəfindən üç əsas növü müəyyənləşdirilir: 1. hərfi ixtisarlar, 2. heca ixtisarları, 3. heca-söz ixtisarları.

1. Hərfi ixtisarlar termin-birləşmələrin yalnız baş hərfləri əsasında yarananlardandır: EHM, ATAN, AİS, İS və s.
2. İxtisarı təşkil edən müxtəlif sözlərin ilk hecaları əsasında yarananlar heca ixtisarları adlanır: Aztelekom, mikroom, mikrokoin.

3. Heca-söz ixtisarları zamanı terminləri təşkil edən sözlərdən birinin başlanğıc hissəsi alınıb bütöv sözə birləşdirilir; avtoservis, teleserial, teledebat, avtomotoklub və s.

Mürəkkəb ixtisarlar tərkibcə daha çox sözdən ibarət olan termin birləşmələrin həm tələffüzünü, həm də yazılışını asanlaşdırır.

Termin-birləşmələrin tərəflərinin ixtisarı ola bilər:

5) tam ixtisarlar. Bu cür ixtisarlar, əsasən, hərfi ixtisar şəklində olur, yəni termin-birləşmələrin ancaq ilk hərfləri saxlanılır: AİS, ATAN və s.
6) yarımçıq ixtisarlar: buraya, əsasən, heca və heca-söz ixtisarları daxildir. Terminin tərkibindəki sözün hecası və ya sözlərdən bir hissəsi saxlanmaqla digərləri ixtisar olunur: BK-3 avtomatik hesablama maşını, teledebat, Azərneftqaz, CMC nömrəsi.

Son dövrlərdə elmi-texniki tərəqqi yeni-yeni çoxsözlü terminlərin meydana gəlməsini və istifadəsini zəruri edir. Bu cür terminlər mənşəyinə görə müxtəlifdir:

1. Azərbaycan dilində olan mürəkkəb ixtisarlar: Azərneftqaz, EHM, KİV,qaçqınkom.
2. Rus dilində olan ixtisarlar: BMM (вычислительная многоклавишная машина) – çoxdüyməli hesablama maşını, BVM (большая вычислительная машина)- iri hesablama maşını,
3. İngilis dilində olan ixtisarlar: MS-DOS Windows, UDC (Universal Dekinal Classification) – Universal Onluq Təsnifatı.

Son dövrlərdə terminologiyasında milliləşmə prosesi gedən hərb sənətində bir sıra mürəkkəb ixtisarlar yaranmışdır.

GTZM – güclü təsirli zərərli maddələr istehsal edən müəssisələr.

NZO – nüvə zədələnmə ocağı

RƏD – radiasiya əleyhinə daldanacaq

ZM – zəhərləyici maddələr

QKKC – qoşun kimyəvi kəşfiyyat cihazı.

«Belə ki, elmi-texniki tərəqqi əsrində sənayenin fasiləsiz inkişafı bir tərəfdən istehsalat leksikasını zənginləşdirir, ikinci bir tərəfdən müxtəlif maşın və avadanlıqların istehsal prosesinin də təkmilləşməsinə, modufikasiyasına, onların nominativ adlarının da leksik təkamülünə gətirib çıxarır». [33,328]

Ümumiyyətlə, elmi-texniki tərəqqinin baş verməsi ilə bağlı müstəqillik illərində mürəkkəb ixtisarların işlənmə tezliyi artmışdır. Bu proses informatika, iqtisadiyyat və ictimai-siyasi həyatda daha çox müşahidə olunur. Elmlərin diferensasiya və inteqrasiyası nəticəsində bir çox yeni elm sahələri meydana gəlir və onların adı, əsasən, mürəkkəb ixtisarlar şəklində olur; geofizika, biofizika, elektrotexnika, fizioterapiya, biotexnologiya, biopsixologiya, elektrokardioqrafiya və s. mürəkkəb ixtisarların son dövrlərdə yaranması və işlənməsi terminologiyanın ümumi inkişafına xidmət edən amillərdəndir.

III FƏSİL

ALINMA VƏ BEYNƏLMİLƏL TERMİNLƏRİN DİLƏ KEÇMƏ YOLLARI VƏ UNİFİKASİYASI

§ 3.1. Müstəqillik illərində dilin lüğət tərkibində alınmaların və beynəlmiləl terminlərin yeri

Müasir dilçiliyin ən mühüm məsələlərindən biri terminologiyanın müxtəlif istiqamətlərdə inkişafıdır. Bu istiqamətlər öyrənilir, tədqiq edilir və terminologiyaya, ümumiyyətlə, dilin lüğət tərkibinin inkişafına təsiri müəyyənləşdirilir. İstər daxili, istərsə xarici faktorların dilə, konkret olaraq terminoloji qata nə dərəcədə təsir etməsi dilin özünün fonetik, lüğəvi və qrammatik cəhətdən sabitləşməsi dərəcəsindən asılıdır. Daxili imkanlar əsasında yaranan yeni sözlər dilin lüğət tərkibində tez bir zamanda özünə yaşamaq hüququ qazanır, xarici faktorlar isə müəyyən tarixi vaxt ərzində sınaqdan keçir, daxil olduğu dilin müəyyən qrammatik və üslubi xüsusiyyətlərini özündə əks etdirə bilir, ya da alındığı dildən hazır şəkildə keçir.

Dilin yeniləşməsində, lüğət tərkibinin zənginləşməsində terminologiyanın mühüm rolu var. Yeni sözlərin dilə daxil olması dilçiliyin digər sahələrinə nisbətən terminologiyada daha tez və məhsuldar baş verir. Terminologiyanın digər mənbələrindən biri olan alınmaların çoxluq təşkil etməsi dilimizin başqa dillərlə qarşılıqlı əlaqədə olması ilə bağlıdır.

«Dilin inkişafının xarici faktorları insan fəaliyyətinin, cəmiyyət tarixinin müəyyən məsələləri ilə bağlıdır. Dilin dəyişməsi və inkişafında xarici faktorların rolu az deyildir.

Əgər dilin daxili inkişaf faktorları onun qatları, layları ilə əlaqədardırsa, xarici faktorlar cəmiyyətin ictimai quruluşu, ideologiyası, xalqların əlaqəsi,

əhalinin etnik tərkibi, bədii ədəbiyyat, elm, sənaye, texnika, və təfəkkür fəaliyyətinin inkişafı ilə bağlıdır. İnsan şüurunda, onun təfəkkürünün müxtəlif sahələrində baş verən hər bir dəyişiklik dildə öz lüğəvi və qrammatik əksini tapır». [47,449]

1980-90-cı illərdə iqtisadiyyat, elm, texnika, mədəniyyət, informatika və kütləvi informasiya sahələrindəki inkişaf bilavasitə dilin, xüsusilə terminologiyamızın kəmiyyət baxımından inkişafı ilə müşaiyət olunur. Sözsüz ki, bu işdə xarici faktorların rolu böyükdür. Qonşu türk dövlətlərinin, Avropa dillərinin lüğət tərkibində işlək olan bir sıra terminlərin dilimizə axını bu gün də fəal şəkildə davam etməkdədir.

«Hər dilin öz ənənələri var, lakin terminologiya yalnız bir dilin öz lüğət ehtiyatı əsasında yaranarsa, bu müxtəlif millətlər arasındakı ünsiyyəti məhdudlaşdırır» [75,183].

Son dövrlərdə dilimizə daxil olan biznes, menecer, şou, şou-biznes, makler, super-market, motorolla, spiker, kompüter, vitse-prezident, lisey kimi yüzlərlə termin yalnız terminoloji qata daxil olmaqla kifayətlənməyib, həm də artıq ümumişləklik qazanır. Bu onu göstərir ki, dillər arasında əlaqə müəyyən tarixi şəraitdə həm güclü, həm də zəif ola bilər. Əvvəllər rus dilindən daha çox yeni söz alınması müşahidə olunsa da, XX əsrin sonlarında bu nisbət dəyişmiş, artıq Qərb dillərinə inteqrasiya üstünlük təşkil etmişdir. Türk dilləri qruplarına daxil olan aqqlütinativ dillərin bir-birindən söz alması üçün tarixi şərait yarandı.

«Dilin inkişafında xüsusi rol oynayan xarici faktorlardan biri dillərin əlaqəsi, kontaktıdır. Bu faktor xalqlar arasında iqtisadi, siyasi, mədəni və digər əlaqələr əsasında meydana çıxır. Dünyada elə bir dilə rast gəlinməz ki, o ancaq öz daxili vasitələrindən ibarət olsun. Bu faktorun əsasında dünya dillərində dil əlaqəsi ənənəsi yaranmışdır. Bu ənənə bütün dünya dillərində mövcuddur». [47,449]

Milli dilin imkanlarından istifadə edilərək yaradılan terminlər çox vaxt öz alınma qarşılığı ilə paralel işlənir, bu isə terminologiyada yol verilməz hal

kimi qəbul olunur. Hüquq terminologiyasında «müəssisədə şeylərin siyahıya alınması»-«inventar», «yüksək qiymətə satmaq»-«möhtəkirlik», «yetərsay»-«əksəriyyət», «nəzəriyyədə rəhbər ideya»-«prinsip» terminləri paralel işlənir və müstəqillik dövründə yaranan «İngiliscə-rusca-türkcə-Azərbaycanca hüquq terminləri lüğəti»ndə də bu cür paralelliklər öz əksini tapmışdır. Nəzərə almaq lazımdır ki, eyni elmi anlayışı bir neçə terminlə ifadə etmək dili ağırlaşdırır, ondan istifadə edən müxtəsislərin işini çətinləşdir və dilimizi artıq sözlərlə yükləyir.

Müşahidələr göstərir ki, hər iki tərəfi sırf milli sözlərdən ibarət olan terminlər azlıq təşkil edir. Bu cür termin-birləşmələr ictimai-siyasi və texniki terminologiyaya nisbətən, humanitar sahələrdə daha çox işlənir. Elmlərin inteqrasiyası, xarici, siyasi, iqtisadi və elmi əlaqələr nəticəsində, xüsusilə son dövrlərdə daha çox alınmaların dilimizə axın etdiyi məlumdur, lakin milli sözlərdən ibarət olan terminlərə də rast gəlmək olar. Bu cür termin-birləşmələrin tərəfləri quruluşca sadə, düzəltmə və mürəkkəb sözlərdən ibarət olur. İnformatika sahəsində işlənən «birbaşa çıxışvermə» termininin hər iki tərəfi quruluşca mürəkkəb olub, «birbaşa» say və isimdən, «çıxışvermə» düzəltmə isimlərdən ibarətdir. Bu termin-birləşmənin hər iki tərəfi milli sözlərdən təşkil olunub.

Həm milli, həm alınma sözlərdən ibarət olan termin-birləşmələr terminologiyada yalnız milli sözlərdən ibarət olan termin-birləşmələrdən daha çoxdur. Sözsüz ki, birləşməni təşkil edən ayrı-ayrı termin və ya sözlərin ədəbi dildə qarşılığı tam şəkildə hər zaman tapıla bilməz. Dilimizin daxili imkanları nə qədər geniş olsa da, beynəlxalq aləmdə qəbul olunmuş və hər hansı elm sahəsində fəaliyyət göstərən terminin uğursuz qarşılığındansa, onun olduğu kimi işlənməsi daha məqsədəuyğundur.

«Dilimizin öz sözləri və qayda-qanunları əsasında yaranmış terminlər də az deyildir. Bu zaman terminləri ancaq ana dili materialı əsasında yaratmaq cəhdi də olmuşdur. Belə bir təşəbbüs isə birtərəflidir. Çünki, ümumiyyətlə, elmin inkişafı və müxtəlif elm sahələrinin artması və ictimai

yüksəlişi, xüsusilə müasir dövrdə ümumbəşəri xarakter daşıyır. Elmin, texnikanın, mədəniyyətin inkişafında dünya xalqlarının, birinci növbədə yüksək mədəniyyətə malik olan xalqların müəyyən rolu vardır. Odur ki, terminoloji leksikanın beynəlmiləl mahiyyəti də mənfi deyil, müsbət bir hadisədir». [14,84]

Tərəfləri milli və alınma terminlərlə ifadə olunan termin-birləşmələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Birinci tərəfi alınma, ikinci tərəfi milli olan; məsələn, maqnit yazısı, qlobal dəyişiklik, sosioloji araşdırma, münaqişə ocaqları və s.
2. Birinci tərəfi milli, ikinci tərəfi alınma olan; məsələn, soraq faylı, paylanmış sistem, tezlik modulyasiyası, ikili standart, keçid dövrü, seçki monitorinqi və s.

Dilimizin terminoloji qatının mühüm bir hissəsini təşkil edən alınma terminlərdir. Ümumiyyətlə, ədəbi dilimizdə alınmaların nisbəti terminologiyadakı alınmaların nisbəti ilə uyğundur, çünki terminologiya da dilin lüğət tərkibinin mühüm bir hissəsini təşkil edir.

«Azərbaycan dilinin müasir mərhələdə terminoloji sisteminin zənginləşməsində, inkişafında və normalaşmasında rus dilindən və rus dili vasitəsilə Avropa dillərindən alınmalar mühüm yer tutur. Bu cür alınmaların miqdarı son illərdə daha da çoxalmış və mətbuat dilində istifadə dairəsi genişlənmişdir. Bu bir həqiqətdir ki, Azərbaycan dili lüğət tərkibini zənginləşdirən vasitələrdən biri başqa dillərdən alınan terminlərdir. İqtisadi-siyasi dəyişikliklər və elmi-texniki inqilablarla səciyyələnən dövrdə Avropa dillərinin təsir dairəsi çox böyükdür». [45,86]

Ümumiyyətlə, elmin elə bir sahəsi yoxdur ki, başqa dillərin təsiri duyulmasın. Bu təsirlər kortəbii deyil, təbii şəkildə gedərsə, dil bütün zaman kəsiyində sözləri süzgəcdən keçirir və yad ünsürləri özündən tədricən uzaqlaşdırır. Komsomol, sovxoz, partiya, manqa, pioner, qrammafon kimi

sözlər vaxtilə ümumişlək olduğu halda, indi passiv dil fonduna daxil olmuşdur.

Dilin ən çox dəyişikliyə uğrayan hissəsinin lüğət tərkibi olduğu qənaətinə gələn alimlər bu dəyişmənin əsas səbəblərini daxili imkanlar əsasında söz yaratma və başqa dillərlə qarşılıqlı əlaqədə yeni nitq vahidlərinin – sözlərin alınması ilə izah edirlər. Sözsüz ki, yalnız daxili dil vasitələrindən istifadə etməklə lüğət tərkibini zənginləşdirmək və yeni söz ehtiyacını ödəmək olmaz. Bu baxımdan alınma və beynəlmiləl terminlərin rolu böyükdür.

Alınma və beynəlmiləl terminlərin hər ikisi xarici faktorlar əsasında dilə keçsə də, onları eyniləşdirmək olmaz. Terminologiya tarixində bu məsələ müxtəlif istiqamətlərdə tədqiq olunmuşdur.

«Terminologiyada beynəlmiləl terminlərlə alınma terminlər arasındakı hüdudu müəyyənləşdirmək, bunları bir-birindən fərqləndirmək ən aktual məsələlərdən biridir. Hər iki ad altında termin dilə əcnəbi dillərdən keçir, bəlkə də, buna görə də tədqiqatçılar bunları eyniləşdirirlər, fərqləndirmirlər. Lakin elmi tərəfinə diqqət etdikdə fərqləndirici əlamətlər görünür və bunları təhlil etmək elmi baxımdan zəruridir». [65,128]

M.Ş.Qasımov yazır ki, «Azərbaycan dilində rus dilindən alınmalar sırasına beynəlmiləl sözlər də daxil edilir». [42,146]

N.A.Baskakov beynəlmiləl terminlər haqqında yazır: «Telefon, teleqraf», «radio», «elektrik» və s. kimi terminləri belə anlayışları ifadə etmək üçün dilin süni terminləri ilə əvəz edilməsini məqsədəuyğun saymaq olarmı?». [74,67]

Doğrudan da, alınma terminlərin kortəbii şəkildə milli sözlərlə əvəzlənməsinə cəhd etmək dilə müsbət yox, mənfi təsirini göstərə bilər.

«Ümumi ədəbi dildən fərqli olaraq, termin yaradıcılığında milli, alınma və beynəlxalq sözyaratma vasitələrinin kombinəsi yolu ilə yaradılan söz-terminlər çox məhsuldardır». [81,21]

Beləliklə, termin yaradıcılığında hər mənbənin öz rolu var.

Müasir dilçilikdə alınma beynəlmiləl sözlərə nisbətən daha geniş anlayış hesab olunur. Alınma adı altında ədəbi dilə daxil olan bütün sözlər nəzərdə tutulur. Bu sözlər yalnız terminologiyaya deyil, elmin müxtəlif sahələrinə aid olur. S.M.Xəlilova alınmaları beynəlmiləl sözlərdən fərqləndirərək yazır: «Alınma sözlər dedikdə mənbə dildən əlavə (əsasən) başqa sistemli bir dildə işlənən vahidlər nəzərdə tutulur. Termin və ya söz yayılma dövrünün ilkin mərhələsində ən azı bir dilə keçdikdə alınma sayılır» [31,141]

Yenə həmin əsərdə müəllif qeyd edir: «Müasir dövrdə alınma və internasional terminlərin müxtəlif dillərdə leksik tərtibatı sistemə salınmışdır və bundan sonra dilə gətirilən əcnəbi mənşəli innovasiyaların tərtibində tarixi dil təcrübəsinə əməl olunur ki, bu da işarə sistemliliyini təmin edir. İndi elə bir dil tapmaq çətindir ki, onda internasionalizmlər fondu dağınıq olsun. Sistemlilik internosional qatın timsalında özünün nümunəvi formasını tapmışdır» [31,29]

Fikrimizcə, alınma və beynilmiləl sözlərin dilə daxil olmasının bir neçə səbəbi var:

1. Hər hansı anlayışı ifadə etmək üçün dilin daxili imkanları kifayət etmədikdə və ya onu ifadə edən söz predmetin, vəziyyətin adlandırılması üçün qənaətbəxş olmadıqda alınmalar dilə daxil olur. Məsələn: «dialoq» alınma sözünü «söhbət» sözü ilə əvəz etmək olmur. «Münaqişə», «insident» alınma sözlərini «mübahisə», «dava» sözləri ilə əvəz etsək, müvəffəqiyyətsiz əvəzetmə olar. Bu həm publisistik, həm də elmi üslub üçün qüsur sayılır. Buna paralelizm demək olmaz. Paralelizmlər eyni məfhumu ifadə edən terminlər olduğu halda, bu sözlər mənaca oxşar olan anlayış və məfhumları ifadə edir.

Yeni alınan termin alındığı dilin terminologiyasında eyni elmi anlayışı ifadə etdiyindən keçdiyi dildə öz leksik mənasını dəyişməməlidir. Eyni terminin müxtəlif elm sahələrində işlənməsində bu prinsip bəzən gözlənilir, bəzən də pozulur.

Alınma terminləri və termin elementləri haqqında araşdırmaların müəllifi N.Məmmədli öz tədqiqatlarında yunan və latın mənşəli bir sıra beynəlmiləl termin elementlərinin terminologiyamızda işlənməsi ilə bağlı tədqiqatlar aparmışdır. [56]

№	Dilçilikdə	Fizikada	Kimyada	Coğrafiyada	Riyaziyyatda
1	Assimilyasiya	assimilyasiya		assimilyasiya	
2.	Amorf	amorf	Amorf	amorf	
3.	Dəyişən				dəyişən
4.	Dərəcə	dərəcə	Dərəcə	dərəcə	Dərəcə
5.	Ritm	ritm			
6.	Unifikasiya	unifikasiya			
7.	Sistem	sistem	Sistem	sistem	Sistem
8.	Metod	metod	Metod	metod	Metod
9.	Forma	forma	Forma	forma	Forma
10.	Təsnifat	təsnifat	Təsnifat	təsnifat	Təsnifat
11.	Obyekt	obyekt	Obyekt	obyekt	Obyekt

Əgər unifikasiya termini dilçilikdə tənzimlənmə, uyğunlaşma mənalarını ifadə edirsə, informatikada bu leksik mənaları ifadə edir; 1. Obyektin vahid formaya, sistemə salınması. 2. İki asılı qiymətin müqayisəsi. 3. Ekspert sistemlərində nümunə ilə qarşılıqlı müqayisə metodu.

Müşahidə olunduğu kimi, eyni terminin müxtəlif elm sahələrində işlənməsi elmi məfhumun ifadəsi zamanı eyni və ya oxşar lüğəvi mənanın adlanması ehtiyacından yaranıb. Amorf dilçilikdə kök dillərin ikinci adıdırsa, kimyada amorf maddənin halıdır.

2. Müstəqillik illərində alınma terminlərin dilə daxil olma səbəblərindən biri də yeni aparat, cihaz, texniki proses və kəşflərin meydana gəlməsi ilə bağlıdır. Elmi-texniki tərəqqinin həyatımıza daxil olması yeni terminlərin terminologiyamıza daxil olması ilə nəticələnir. «Lakin hər halda rus dili vasitəsilə Qərbi Avropa mənşəli terminlərin alınıb işlədilməsi zərurətdən irəli gələn bir haldır. Bu, hər şeydən əvvəl texniki alətlərə, aparat və cihazlara, texniki proseslərə Azərbaycan dilində müvafiq ad verilməsində qarşıya çıxan çətinliklərlə bağlıdır. Bir çox texniki avadanlığı adlandırmaq üçün dilimizin daxili imkanları əsasında müvafiq termin yaratmaq mümkün deyildir. Beləliklə, hazırda Azərbaycan dilində onlarca alınma texniki termin işlənməkdədir». [12,23]

Müstəqillik illərində texniki terminologiyaya alınma terminlərin daxil olunması prosesi davam etməkdədir. İnformatika terminologiyasında son dövrlər işlək olan faks, telefaks, sayt, teletaym, telekonfrans, fayl, elektrofaks, disk, audiodisk, disketa kimi terminlər artıq ümumişləklik qazanmışdır. Bu, informatika texnologiyalarının həyatımıza, məişətimizə daxil olması və istifadə olunması ilə bağlıdır. Mənşəcə alınma olan bu terminlərin lüğəvi mənası publisistika və məişətdə ayrıca olaraq açıqlanmadığı halda, onların istifadəsi, artıq gündəlik həyatımıza daxil olması informatika terminologiyalarının dilimizin işlək leksikasına çevrilməsinə səbəb olan əsas şərtlərdəndir. Hazırda informatikada işlənən bir sıra terminlər artıq dilimizdə işləklik qazanmışdır. Məsələn,

1. bayt-байт-byte

İnformasiyanın, adətən, 8 dərəcəsindən (bitdən) ibarət olan və ardıcıl surətdə ikilik say sistemi ilə ifadə edilən kəmiyyət vahidi. [110,21]

1. fayl –файл-file

Ümumi struktur elementləri və semantik elementləri olan bir neçə fiziki yazının birliyi. [110,150]

2. telekonfrans-телеконференция-teleconferencing

Nitq, mətn informasiyanın və videoinformasiyanın emalı və ötürülməsi əsasında istifadəçilər arasında teleəlaqə (telekommunikasiya) yaradan hesablama şəbəkəsinin inteqral xidmət kompleksi. [110,150]

3. teletayp-teletayp-teletupe, teletupekriter, teletyrer, teleprinter

İnformasiya müəyyən şərti işarələrlə (məs: Morze, beynəlxalq teleqraf kodu və s.) çap edən, rabitə kanalı ilə uzaq məsafəyə ötürən və adi əlifba və rəqəm işarələrinə çevrilərək çap edib verən aparat; adətən, müəyyən hesablama mərkəzinin tərkibinə daxil olur. [110,151]

4. telefaks-telefaks-FAX

Verilənlərin kommunitasiya edilmiş şəbəkəsi vasitəsilə təsvirin (qrafiki və mətni informasiyanın) beynəlxalq ötürmə sistemi. [110,41]

5. disk-disk-disk

İnformasiyanın mühafizə və təkrar yazılmasını, müəyyən qurğularla oxunmasını (displey), çap edilməsini (çap qurğusu, printer, qrafikqurucu) təmin edən, üzərinə maqnit qatı çəkilmiş dairəvi və ya düzbucaqlı formada olan fiziki-informasiya daşıyıcısı. İnformasiya dairəvi (konsentrik) cığırlarla yazılır. Maqnit, maqnitooptik və optik disklər vardır. [110,44]

6. disketa-disketa-diskette, flexible disk

Termin avadanlıqdarında və fərdi elektron hesablama maşınlarında istifadə edilən kiçik formatlı müstəvi maqnit diski. [110,44]

İnformasiya texnologiyalarının terminoloji fonduna daxil olan, bu gün şifahi, yazılı publisistikada tez-tez təsadüf olunan bu sözlərin mənşəcə alınma olduğunu, ingilis dilindən rus dilinə və onun vasitəsilə tərcümə olunmadan dilimizə keçdiyini müşahidə edə bilərik.

Sözsüz ki, beynəlmiləl səciyyə daşıyan alınma terminlər dilimizə mənsub olduğu dilin qrammatik qayda-qanunlarını, morfem və fonetik xüsusiyyətlərini də gətirirlər. İltisaqi dillərə xas olmayan ahəng qanununun pozulması, ön şəkilçilərin işlənməsi, şəkilçilərin ahəng qanununa uyğun olmadan sözlərə qoşulması, quruluşca düzəltmə sözlərdə kökün müstəqil işlənə bilməməsi kimi xüsusiyyətlər başqa dillərdən keçən sözlərin vasitəsilə dilimizə daxil olur. Dil tarixən zəngin və möhkəm fonetik, morfoloji və qrammatik quruluşa malikdirsə, bu yad xüsusiyyətləri öz sözlərinə tətbiq etmir və dilin saflığını və tarixi qrammatik xüsusiyyətlərini qoruyur. Müstəqillik illərində də işlək olan rus mənşəli a, ak, za, (asimmetrik, akkreditə, zabaykalya), Avropa mənşəli tele, avto, eks, anti kimi ön şəkilçilər (teleanons, avtokod, eksspiker, antiterror) türk mənşəli sözlərə artırılmır, əsasən, alınmaların tərkibində işlənir.

Söz birləşməsi formasında dilimizə keçən terminlərin tərəfləri də çox zaman bu cür morfemlərlə işlənir. Tərəfləri alınma olan termin-birləşmələr və ya mürəkkəb terminlər ya hazır şəkildə qəbul olunur, ya da ayrı-ayrı elmi anlayışları və ya leksik mənanı ifadə edən sözlərdən təşkil olunur:

a) hazır şəkildə alınan mürəkkəb terminlər: məsələn; fotoelement, mikrodisk, makrooperator, blok-sxem, kinofilm və s.

b) ayrı-ayrı dillərdən alınaraq yaranan mürəkkəb terminlər: vidiosüjet, supermövqeli, beta-şüalar, mikrosənəd və s.

Bu mürəkkəb birləşmələrin birinci tərəfləri Avropa (super, beta, mikro), ikinci tərəfləri ərəb-fars (mövqe, şüa, sənəd) mənşəlidir.

c) hazır şəkildə alınan termin-söz birləşmələr: məsələn; struktur semantika, struktur linqvistika, informasiya prosesi; elektron sxem, konstruktiv dialoq və s.

Bu cür birləşmələrin tərəfləri alındığı dildə olduğu kimi qəbul edilsə də, dilimizin qayda-qanunlarına uyğun olaraq müəyyən qrammatik dəyişikliyə uğrayır. «İnformasiya prosesi» - birləşməsinin (rusca «informasionnıy proses») ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul etmişdir və ikinci növ təyini söz birləşməsi kimi formalaşmışdır.

Tərəfləri müxtəlif dillərdən alınaraq yaranan termin söz birləşmələr: Bu yolla yaranan terminlərin tərəflərini təşkil edən sözlər mənşəcə fərqlənirlər və aşağıdakı qruplara ayırmaq olar:

1) tərəfləri ərəb-fars mənşəli sözlərdən ibarət olanlar; məsələn: sülhməramlı qüvvələr, əfv fərmanı, mətbuat xidməti, nüfuz dairəsi və s.

2) tərəfləri ərəb-fars və rus-Avropa dillərindən alınanlar: beynəlxalq status, demokratik təsisat, aqressiv mühit, dünya standartları, konstruktiv mövqe, beynəlxalq konvensiya və s.

3) hər iki tərəfi rus-Avropa dillərindən alınan: tender predmeti, immun sistemi, neft strategiyası və s.

Birləşməni təşkil edən sözlərin bəziləri alındığı dildə başqa məna çalarında işlənsə də, dilimizdə ona yaxın mənanı ifadə edə bilir.

«Ümumiyyətlə, alınma sözün mənsub olduğu dildəki mənası keçdiyi dil üçün həmişə əsas götürülə bilməz. Məsələn, abidə ərəb dilində «ibadət edən qadın» mənasını bildirir və yalnız həmin mənada işlənir. Məgər bu gün biz həmin etimologiyaya əsaslanıb dilimizdəki mənada işlətməliyik?

Sözlər bir dildən başqa dilə keçərkən ciddi, fonetik, semantik, hətta qrammatik dəyişikliklərə uğrayır». [4,84-85]

Müstəqillik illərində terminoloji yeniləşmə, lüğət tərkibinin fəal artımı siyasi, iqtisadi, elmi yeniləşmə ilə bağlıdır. Əvvəlki dövrlərdə mövcud olan və fəal şəkildə işlənən bir sıra terminlər yeniləşmə ilə bağlı lüğət tərkibinin qeyri-fəal fonduna keçir. Məsələn, raykom, partkom, kommunist, sosialist, pioner, manqa və s.

Terminologiyada işlənən alınma terminlər aşağıdakı kimi təsnif edilə bilər:

1. başqa dildən yeni alınan və müasir dövrdə terminologiyada elmi anlayışı ifadə edərək normativləşən.
2. vaxtilə başqa dildən alınan və müasir dövrdə terminologiyada işlək olan;
3. tarixi şəraitlə bağlı olaraq dildən çıxan
4. yeni alınan, lakin terminologiyada hələlik işləklik qazanmayan;
5. terminologiyada arxaikləşən, lakin dilin lüğət tərkibində «ilişib qalan»;
6. Avropa və rus mənşəli terminlərlə əvəz olunan ərəb, fars mənşəli olanlar;
7. kök və şəkilçisi müxtəlif dillərdən alınan
8. tərkibindəki sözlər müxtəlif dillərdən alınan quruluşca mürəkkəb və ya söz birləşməsi şəklində olanlar.
9. həm başqa dildən alınan, həm də ana dilində qarşılığı olanlar;
10. başqa dildən alınarkən fonetik tərkibi dəyişməyənlər;
11. başqa dildən alınarkən dilimizin qrammatik quruluşuna, fonetik tərkibinə uyğun olaraq dəyişənlər.

§ 3.2. Terminlərin alınma yolları və mənşəyi

Müasir terminologiyada terminlərin alınma yolları və mənşəyinin tədqiqi tədqiqatçıların diqqətini cəlb edən əsas problemlərdəndir. N.Xudiyev yazır: «Dilin lüğət tərkibinin zənginləşməsi yollarından biri digər kənar dil elementlərinin təsiri ilə yeni terminlərin yaranmasıdır. Əlbəttə, kənar dil elementlərinin təsiri dedikdə zorakı deyil, dilin öz təbii inkişafı tələbatı ilə əlaqədar təsir başa düşülməlidir». [32,20]

Əvvəlki dövrlərdə olduğu kimi, müstəqillik dövründə də elm və texnikanın müxtəlif sahələrində terminologiyanın yaranması üç istiqamətdə təzahür edir:

1. dilin daxili imkanları əsasında terminologiya yaradıcılığı;
2. beynəlxalq terminologiyaya əsaslanan termin yaradıcılığı;
3. türk dillərinin təsiri ilə termin yaradıcılığı.

Birinci və üçüncü istiqamətlərdə termin yaradıcılığı yalnız bir dil əsasında yaranırsa, ikinci istiqamətdə müxtəlif dünya dillərindən istifadə əsasdır. İkinci istiqamətdə termin yaradıcılığı daha çox diqqət və məsuliyyət tələb edir, çünki hər bir dil müxtəlif qrammatik quruluşa malikdir.

S.Sadıqova alınma terminlər haqqında yazır:

«Terminologiyada işlənən alınma terminlərdə aşağıdakı cəhətlər diqqəti cəlb edir:

1. Alınma terminlər ancaq elmi anlayışları ifadə edir və hazırda da elmi dildə işlənir.
2. Tarixi şəraitlə bağlı olaraq alınan terminlər müəyyən dövrdən sonra dildən çıxır. Məsələn, vaxtilə dilimizdə qəliz ərəb və fars sözləri ilə işlənən ahəngrüba əvəzinə maqnit, məhrut əvəzinə konus, hikmət əvəzinə fizika, mizanülhəva əvəzinə

barometr, mizanülhərarət əvəzinə termometr işlənir. Göründüyü kimi, alınma terminlər bir-birini sıxışdırır». [65,140]

Müstəqillik illərində alınmaların terminoloji dil qatlarına fəal daxil olduğu bir vaxtda da bu proses müşahidə olunur. Tarixən işlənən alınmalar ya dilə daxil olan yeni terminlə, ya da onun milli dildəki qarşılığı ilə əvəz olunur.

Aşağıdakı cədvəldə ərəb-fars mənşəli alınma terminlərin müstəqilik illərində Avropa, rus və ingilis mənşəli sözlərlə əvəz olunduğunu və ya əksini müşahidə edə bilərik.

məsafə – interval
quruluş – sistem
ənənə – tendensiya
mövzu – fabula
düstur – formul
ərazi – region
rəmz –simvol
müsbət – plyus
mənfi – minus
jurnal – məcmuə
istilah – termin
praktika – təcrübə
inkişaf – dinamika
məlumat – informasiya
imkan – potensial
layihə – çertyoj
fəal – aktiv

Qeyd etmək lazımdır ki, bu terminlərin çoxu son illərin mətbuatında, kütləvi-informasiya vasitələrində paralel işlənməkdədir. Sözsüz ki, müxtəlif mənbələrdən alınaraq ədəbi dildə işlədilən terminlərin dilə keçmə yolları da müxtəlifdir. Əgər sovet, praktika, jurnal, çertyoj sözləri rus dilindən və rus

dili vasitəsilə Avropa dillərindən alınıbsa, şura, təcrübə, məcmuə, layihə sözləri ərəb-fars dillərindən alınaraq paralel işlənməkdədir. Ədəbi dildə, xüsusilə terminoloji qatda bu cür paralellik yol verilməzdir, lakin müəyyən ictimai-siyasi şəraitdə dilə təsir etməsə də, bunun əksi baş verə bilir. Müstəqillik illərində bu cür paralelliyin yaranmasının səbəbi uzun illər Azərbaycan dilinin Qərb və Şərq təsirlərinə məruz qalmasıdır.

«Müasir Azərbaycan dilində işlənmiş ərəb və fars mənşəli terminlərin struktur-semantik xüsusiyyətlərinin tədqiqi dilimizin köhnə fondu, termin yaradıcılığı, termin sistemi, eləcə də həmin dillərin qarşılıqlı əlaqələrini, münasibətlərini öyrənmək baxımından əhəmiyyət kəsb edir…

İşlənmiş ərəb-fars mənşəli iqtisadiyyat terminləri dilimizin tələblərinə müvafiq assimilyasiyaya uğramışdır». [28,41]

Təbii ki, müəyyən tarixi şərait bu cür paralelliyi aradan qaldıracaq, ya da təbii seçmə nəticəsində uyğun olan variantın işlənməsinə üstünlük veriləcəkdir. Məsələn, «tendensiya» beynəlmiləl termin olaraq dilimizə yad görünsə də, onun tələffüzü çətin olsa da, publisistik üslubda işlənməkdədir. Onunla paralel işlənən «ənənə» ərəb mənşəli söz olaraq dilə daha yatımlıdır. Bu müqayisəni potensial- imkan, interval-məsafə, dinamika-inkişaf, informasiya-məlumat, teoriya-nəzəriyyə terminləri üçün də söyləmək olar. Əgər bu paralellərin ikinci tərəfi həm elm, həm də ümumxalq dilində uğurla işlənirsə, o zaman tələffüzdə çətinlik yaradan, dilin lüğət tərkibini əlavə yükləməklə onu ağırlaşdıran birinci varianta ehtiyac varmı?

«20-30-cu illərdə Azərbaycan dilinin terminologiyası daxili qanunlara əsasən təsbit edilir, terminlər üzərində yaradıcı iş aparılırdı. Sonralar rus dili vasitəsilə alınan internasionalizmlərin xarici formasının rus dilində olduğu kimi saxlanması prosesi başlanmışdı və guya ki, bu, Azərbaycan dilinin necə «inkişaf» etdiyini, onun müasir həyatla necə səsləşməyə başladığını nümayiş etdirirdi. Halbuki həmin terminlərin əksəriyyəti belə canlı danışıq dilinə yol tapmayaraq, ancaq publisistik və elmi üslublarda qalmışdır. Bu

gün də «transilyasiya» terminini səlis tələffüz etmək olmur, səbəbi məhz keçmiş dil siyasəti ilə bağlıdır». [31,92]

Müstəqillik illərində ictimai-siyasi, elmi və iqtisadi inkişafın nəiticəsində bir sıra sahələrin terminologiyası zənginləşir, daha məhsuldar işləkliyə malik olur. İqtisadiyyat da belə sahələrdəndir. Dövlətimizin iqtisadi inkişaf strateqiyayası yeni əsaslarla aparılır, başqa ölkələrlə iqtisadi əlaqələr artır. Bununla bağlı elmi terminologiyaya yeni-yeni iqtisadi terminlər daxil olur. Bu terminlər mənşə baxımından fərqlidir:

1. Milli
2. Türk dillərindən alınan
3. Avropa mənşəli

Dilimizin daxili imkanları əsasında meydana gələn iqtisadi terminlər leksik, morfoloji, sintaktik üsullardan istifadə edilməklə yaradılır. Bu üsullar müxtəlif olduğundan terminlərin dilimizin fonetik, qrammatik quruluşuna uyğun olması, termin üçün səciyyəvi olan yığcamlıq, konkretlik kimi xüsusiyyətləri də gözlənilir. Söz, söz birləşməsi şəklində olan bu terminlər milli, lakin ümumişləklik qazanan sözlərlə ifadə olunur. Bəzi hallarda isə sözlərə yeni məna verməklə, onların leksik mənasını dəyişməklə elmi anlayışı ifadə edən terminlər yaranır. «Kölgə» sözünə yeni məna verməklə «kölgə, iqtisadiyyatı», «pəncərə», sözü ilə «diskron pəncərəsi», «güzəştli kreditlər pəncərəsi», «oyun» sözü ilə «xalis oyun», «birja oyunu» kimi terminlər meydana gəlmişdir.

2005-ci ildə nəşr olunan «İzahlı iqtisadi terminlər lüğəti» [85] müstəqillik illərində yaradılan ən mükəmməl lüğətlərdəndir. Bazar iqtisadiyyatının, maliyyə münasibətlərinin, iqtisadi əlaqələrin inkişaf etdiyi müstəqillik dövründə bu lüğətin yaranmasına ehtiyac duyulurdu. Terminologiyanın zənginləşməsində yeni yaranan və kəmiyyətcə artan iqtisadi terminlərin artıq ümumişləklik qazanması ilə bağlı leksik mənalarının dəqiqləşdirilməsinə ehtiyac var idi. Bunlar nəzərə alınaraq lüğətdə bir çox terminlərin dəqiq izahı verilmişdir. Məsələn :

Avro- 1 yanvar 2002-ci ildən dövriyyəyə buraxılmış yeni pul vahididir. O, 100 avrosentə bərabərdir. Eyni vaxtda avro adlı həm kağız pullar, həm də sikkələr dövriyyəyə buraxıldı. Avropa İttifaqının üzvü olan 12 ölkənin 1999-cu il tarixli qərarı ilə dövriyyəyə buraxılmışdır. [85,74].

Avioipoteka – ipoteka girovu; bu halda kredit üzrə zəmanət qismində təyyarə və ya digər uçuş apparatı çıxış edir. [85,74].

Deponent (latın deponentus sözündəndir- təxirə salmaq mənasını daşıyır) – 1. kredit təşkilatına (banka) pul və ya qiymətli kağızlarını saxlamağa vermiş fiziki və ya hüquqi şəxsdir; 2. bu, ona çatası gəlirləri və ödəmələri vaxtında almayan və bu səbəbdən vəsaiti depozitə çevrilmiş şəxsdir. [85,174].

İpoteka (yun. hupoteka-girov) – ipoteka krediti almaq məqsədilə daşınmaz əmlakın, əsasən, torpaq və tikililərin girovu. İpoteka girovun elə bir növüdür ki, girov qoyulan əmlak kreditora keçmir, borc alanda qalır. [85,382].

Depozit (latın sözü depositum- saxlanmağa verilmiş əşya mənası daşıyır) – 1. banklara qoyulmuş pul əmanətləri (bank depozitləri); 2. kredit təşkilatına saxlanmağa verilmiş qiymətli kağızlar və pul vəsaitləri; 3. tələb olunan ödəmələri təmin etmək üçün, ödəmə vasitəsi kimi həyata keçirilən, müxtəlif təşkilatlara pul vəsaitləri ödənilməsidir; 4. müştərilərin banka tələblərini əks etdirən və ya təsdiq edən bank kitablarındakı qeydlər. [85,174].

Diskreditasiya (fransız discçediter sözündəndər, etibardan salmaq deməkdir) – iqtisadi subyektin ona olan inamdan məhrum edilməsinə, onun nüfuzdan salınmasına və imicinin korlanmasına yönəlmiş qəsdən edilən fəaliyyətdir. [85,186].

Divident (latın dividendus sözündəndir, bölüşdürülməli olan mənasını daşıyır) – səhmdar cəmiyyətinin mənfəətinin bir hissəsidir, o, səhmdarlar (səhm sahibləri) arasında bölüşdürülür və hər il onlara onlarda olan

səhmlərə uyğun olaraq səhmlərin məzənnəsi nəzərə alınaraq ödənilir. [85,190].

Göründüyü kimi, son dövrlərdə işləklik qazanan bir çox iqtisadi terminlərin mənşəyi, geniş leksik izahı verilmişdir.

İki cildli 8183 termini əhatə edən bu lüğət həm iqtisadçılar, həm də digər elm sahələri üzrə çalışan mütəxəssislər üçün faydalıdır. Terminlərin əksər hissəsi mənşəcə milli və ya ümumişlək sözlərdən ibarət olub, asan anlaşılan terminlərdir: dəyişkən büdcə, görünməz idxal, qovuşma dövlət vergiləri, iqtisadi artım, iqtisadi birlik, ikitərəfli bazar və s.

Lüğətdə Avropa mənşəli terminlərin latın, fransız, ingilis, italyan, yunan dillərinə mənsub olduğunu, lakin dilimizin qrammatik quruluşuna uyğun unifikasiya olunduğunu müşahidə etmək olar.

Latın mənşəli: avtarkiya [85,80], avtokratiya [85,80], divident [85, 190], deponent [85,174], depozit [85,174].

Fransız mənşəli: avantura, avers [74], diskreditasiya, departament [84,174], deport [174].

İngilis mənşəli: averaj [85,74], dizayn [85,190], ekkauting [85,211].

İtalyan mənşəli: avesta [85,74], dizajko [85,190], kasko [85,410]

Yunan mənşəli: ekologiya [85,211], avtarkiya [85,80], avtokratiya [85,80], ipoteka [85,382].

Termin yaradıcılığında yunan və latın dillərinə məxsus beynəlmiləl sözdüzəltmə elementlərinə, qrammatik vahidlərə üstünlük verilməsinin müxtəlif səbəbləri vardır. "Əvvəla, bu müəyyən tarixi ənənə ilə bağlıdır; ikincisi, fikir dəqiq, aydın və variantsız ifadə edilir, üçüncüsü, ölü dillər hesab olunan yunan və latın dillərinin kök – şəkilçi sistemi arasındakı daxili əlaqələr inkişafdan qaldığı üçün dil elementləri sabitliyini qoruyub saxlayır və həmin elementlərdən hətta müxtəlif linqvistik sistemli dillərdə eyni şəkildə istifadə edilir; ən başlıcası isə, konkret bir dildə həmin elementlər süni surətdə mexaniki birləşdirilir, lakin düzələn termin həmin dilin öz vahidi hesab olunmur. [56,67]

Lüğətdə morfoloji, leksik-semantik, sintaktik, kalka üsulundan istifadə olunaraq iqtisadiyyat terminologiyasında yaranan terminlər verilmişdir.

İngiliscə «rainbo» kimi işlənən «göy qurşağı» iqtisadi termini kalka yolu ilə yaranmışdır, valyuta riskindən müdafiə etməli olan istiqrazlar mənasında işlənir, ABŞ-da qeydiyyatdan keçmiş, təklif tarixi elan edilməmiş qiymətli kağızların buraxılışları mənasını verir.

«İzahlı iqtisadi terminlər lüğətin»də termin-birləşmə şəklində olan iqtisadi anlayışlar üstünlük təşkil edir. İki, üç, dörd sözlü terminlərin tərəfləri milli və alınma sözlərlə ifadə olunaraq, isim+isim, sifət+isim şəklində qurulmuşdur və əksəriyyəti ismi birləşmələrdən ibarətdir.

Ümumiyyətlə, ən mükəmməl lüğətlərdən olan «İzahlı iqtisadi terminlər lüğəti» son dövrlərin iqtisadi elmi anlayışları özündə tam əks etdirən lüğətlərdəndir.

S.Sadıqova lüğət haqqında yazır: «Lüğətdən aydın olur ki, Azərbaycan dilində iqtisadiyyatla bağlı terminoloji sistem formalaşmışdır. Müsbət haldır ki, lüğətdə bu ixtisasa aid terminlərin böyük bir qismi ana dilimizdə işlənən sözlərlə verilmişdir» [67,321].

Müstəqillik illərində yeni elmi anlayışların terminlərlə ifadəsi üçün lazım olan söz ehtiyatının yaranması və zənginləşməsi prosesi eyni vaxtda baş verir. Bəzən elmi anlayışların ifadəsi üçün yeni terminlər yaranır, bəzən dildə olan sözlərə yeni semantik məna verilir, bəzən də hazır şəkildə başqa dillərdən qəbul olunur. Beləliklə, elmi təfəkkürün ifadəsi üçün lazım olan əsas nitq vahidi olan sözün-terminin yaranmasının müxtəlif üsul və yolları müəyyənləşdirilmişdir.

§ 3.3. Alınma terminlər və onların tənzimlənməsi

Sözsüz ki, dil haqqında elmin-dilçiliyin yarandığı vaxtdan bu günə kimi onun terminoloji sistemi də yaranmış, inkişaf etmiş və formalaşmışdır. Müxtəlif elm sahələrinə məxsus olan terminlər bir elm sahəsində – terminologiyada birləşmişdir. Bu baxımdan dilçilik elminin digər bölmələrinə

nisbətən terminologiyanın, onun lüğət fondunun həm tərkibcə, həm də mənşəcə dəyişməsi təbii prosesdir. Doğrudur, ayrı-ayrı elm sahələrinə məxsus olan terminlər müxtəlif üsullardan istifadə olunaraq yaransa da, onların təkmilləşdirilməsi, unifikasiyası məsələlərinin həlli uzun bir müddət tələb etmişdir.

«Məlumdur ki, Azərbaycan dilinin lüğət tərkibinin bir hissəsini terminoloji leksika təşkil edir. Bu baxımdan termin, terminologiya anlayışları, terminoloji leksikanın təyin sahəsi, zənginləşmə və əmələgəlmə yolları, nomenklatura və termin yaradıcılığı kimi mühüm amillər dilçiliyin mərkəzində duran əsas problemlərə çevrilmişdir». [54,25]

Yenidənqurma, müstəqillik illərində cəmiyyətin həyatında baş verən yeniliklər terminologiyanın lüğət tərkibində həm kəmiyyət, həm də keyfiyyətcə bir sıra dəyişmələrə gətirib çıxardı. Bu dəyişmələr, əsasən, təbii şəkildə baş versə də, bəzən yad dillərin mənfi təsirinə də məruz qalma halları olur. Bu təsirlər, əsasən, aşağıdakı istiqamətlərdə baş verir:

1) ingilis dili və onun vasitəsilə dilimizə keçən terminlər. Məsələn, ingiliscə dublikate sözü rus dilinə dublikat şəklində keçmişdir. [95,72]. Hal-hazırda bu söz hüquq termini kimi Azərbaycan dilində də işlənir. Dublikat termini ilə yanaşı, ikinci nüsxə termini də paralellik təşkil edir. Bizcə, bu terminlərdən biri işlənsə, terminologiya artıq sözlərdən təmizlənər.

Konsensus termini ingilis dilindən alınaraq (ingiliscə consensus) yekdillik sözü ilə paralel işlənir [95,48]. Hüquq termini olan embarqo sözü qadağa termini ilə yanaşı işlənir. Sözsüz ki, ingilis dilinin təsiri nəticəsində dilimizə keçən bu tip terminlər zaman keçdikcə dilimizin lüğət fondunda özünə daimi və qarşılıqsız mövqe tutmamaq üçün unifikasiya zəruridir.

2) rus dilindən dilimizə keçən terminlər. Talon, blank sözləri rus dilindən alınaraq, qarşılığı olmadan dilimizdə işlənir. Agent sözü (rusca aqent) hüquq termini kimi qarşılıqsız işlənməkdədir [95,201]. Bu sözlər ümumişləklik qazanmışdır.

M.Qasımov rus dilindən termin almanın bəzi prinsiplərini göstərir:

1.Terminlər yalnız ehtiyacla əlaqədar, yəni Azərbaycan dilinin daxili imkanları əsasında nəzərdə tutulan anlayışları dəqiq ifadə edən, yaxşı yaddaqalan konkret terminlər yaratmaq mümkün olmadıqda alınmalıdır.

2.Məlum anlayışları ifadə edən və beynəlxalq miqyasda işlədilən terminlər Azərbaycan dilində də bir qayda olaraq tərcüməsiz işlədilməlidir.

3.Rus dilindən terminlər götürülərkən onların derivatları-törəmələri də nəzərə alınmalıdır. Məlumdur ki, terminlərdən hər birinin müxtəlif derivatları vardır. Ona görə də ya əsas terminlə birlikdə derivatlar götürülməli, ya da həmin əsas termin üçün Azərbaycan dilində müvafiq qarşılıq müəyyənləşdirilməlidir. Rus dilindən elə terminləri almaq lazımdır ki, Azərbaycan dilində onların derivatlarını düzəltmək mümkün olsun. Məsələn, Azərbaycan dilində norma sözündən normal, normallıq; dialekt sözündən dialektoloq, dealektoloji; kollektiv sözündən kollektivləşmə, kollektivləşdirmə, kollektivlik, kollektilivçilik kimi derivatlar düzələ bildiyi halda, industriya, puls, klimat terminlərindən derivat yaratmaq mümkün deyildir.

Müstəqillik illərində meydana çıxan bəzi rus mənşəli terminlər ya derivatları ilə birlikdə dilimizin lüğət fonduna daxil olur, ya da derivatlar sonradan yaradılır: Məsələn, terror sözünün derivatları - terrorizm, terrorist, terrorçu, terrorçuluq, antiterror dilimizdə işlənməkdədir.

4. Rus dilindən terminlər alınarkən Azərbaycan dilindəki mövcud ənənələrlə hesablaşmaq zəruridir. Rus dilindən alınan yeni terminlər mövcud terminlərlə unifikasiya edilmək şərti ilə Azərbaycan dilinə üzvi surətdə daxil olmalıdır. [42,161-164]

Müəllifin rus dilindən alınan terminlərlə bağlı verdiyi bu prinsiplər müstəqillik dövründə də qüvvədə qalır, lakin son dövrlərdə baş verən siyasi dəyişmələr, Rusiya imperiyasından azad olmağınız rus dilindən terminlərin alınmasını da məhdudlaşdırır.

«Müstəqillik illərində terminalma mənbələri də dilin əvvəlki inkişaf dövründən xeyli dərəcədə fərqlənməyə başlanmışdır ki, bu da bilavasitə

cəmiyyətdə gedən proseslərlə birbaşa bağlı şəkildə üzə çıxır. Yəni, əgər sovetlər birliyi dövründə digər müttəfiq respublika xalqlarının dillərində olduğu kimi, Azərbaycan dilində də alınma terminlər, əksər hallarda terminin hansı dilə mənsub olmasından asılı olmayaraq rus dilindən alınırdısa (bu, qaçılmaz ictimai-siyasi fakt idi), müstəqillik illərində artıq cəmiyyətin müasir inkişaf durumuna uyğun olaraq rus dilindən uzaqlaşma meyli güclənmiş və termin mübadiləsində üstünlük daha çox müxtəlif səpkili əlaqələrin qurulduğu Avropa dillərinə verilmişdir». [26,86]

Qeyd olunduğu kimi, hər bir tarixi şərait dilin lüğət tərkibinə, onun formalaşmasına, xüsusilə onun terminoloji sisteminə təsir edir. Avropa ölkələrinə inteqrasiya rus dilindən və onun vasitəsilə dilimizə keçən elmi anlayışların ifadəsi üçün lazım olan terminlərin güclü axının qarşısını almış ya da sürətinin azaldılmasına gətirib çıxarmışdır. Tarixən terminoloji qata daxil olan, onun əsas fondunu təşkil edən rus mənşəli terminlər indi də işlənməkdədir. Onların bəziləri dilimizin daxili imkanları əsasında yeniləri ilə əvəz olunsa da, xeyli miqdarda termin öz işləkliyini saxlamışdır. Plan, enerji, formul, kvartal, aqressiv, novator kimi rus dilində işlənən terminlərin bəzilərinin qarşılığı olsa da, milli mətbuatda, elmi terminologiyada işlənməkdədir.

Mirzə İbrahimov yazır: «Terminologiyanın zənginləşdirilməsi və təkmilləşdirilməsi işində qəbul olunmuş beynəlmiləl terminlərdən düzgün istifadə etmək də vacibdir. Həqiqətən, ehtiyac duyduğumuz beynəlmiləl söz və terminlərin dilimizə keçməsinin qarşısını süni surətdə almaq, onları yerli-yersiz tərcümə etmək düzgün deyildir». [35,80]

«Son zamanlar mətbuatda tez-tez rast gəldiyimiz «proqnoz», «antipod», «erudisiya», «inteqrasiya», «konservasiya» terminlərinin işlənməsi məgər təsadüfidir? Xeyr, müasir təfəkkür və tərəqqi belə tələb edir. Bəlkə də, bu cür beynəlmiləl terminlərin bəzisini tərcümə etmək və əvəzliyini tapmaq mümkündür. Mənanı tam ifadə edən sözlər tapıldıqda onları əvəz etmək olar. Lakin elə terminlər də vardır ki, onları əvəzliyində

daha genişmənalıdır və hətta yerinə görə çalarları dəyişir. Məsələn, latın köklü «intuitsiya» sözünü bütün hallarda «duyğu», «hissiyyat» sözləri ilə əvəz etmək mümkün deyil. Məhz buna görə də «rusca-Azərbaycanca» lüğətdə həmin sözlərlə yanaşı, «intuitsiya» da saxlanmışdır və «intuitivno»-«intuitiv» kimi tərcümə olunmuşdur. «İntuisiya» işlətməyib, əvəzinə hər yerdə «duyğu», «hissiyyat» yazsaq, onun fəlsəfi və estetik mənasını tam təhrif etmiş olarıq. Fəlsəfədə «intuitisiya» həqiqətin bilavasitə, yəni elmi təcrübənin və məntiqi düşüncənin köməyi olmadan dərk edilməsi deməkdir.

Məhz buna görə də rus dilində «cutye», «doqadka», «proniüatelğnostğ» kimi qarşılığı olduğu halda, «intuitsiya» da işlədilir. Çünki bizim dildə olan kimi, rus sözlərinin də heç biri onun tam mənasını ifadə etmir». [35, 87-88]

Müstəqillik illərində baş verən bir sıra siyasi dəyişmələr dilimizin lüğət tərkibindən də yan keçməmişdir. Başqa ölkələrlə olan müxtəlifyönlü əlaqələrlə bağlı dilimizə çoxlu sayda alınma və beynəlmiləl sözlər daxil olunmuşdur. Nəzərə almaq lazımdır ki, reseptor dillər bu terminləri bəzən dilimizin fonetik, leksik, qrammatik normalarına uyğun olaraq dəyişikliklərlə, bəzən də heç bir dəyişiklik olmadan - eynilə qəbul edir. Bu zaman dilimizin normalarına uyğun olmadan qəbul edilən terminlər terminoloji qatda öz mövqeyini ləng möhkəmləndirir, ya da müəyyən vaxt kəsiyində dilin daxili imkanları əsasında yaranan və ya dil üçün daha uğurlu olan terminlərlə əvəz olunur.

M.Qasımov yazır: «Azərbaycan dili terminologiyasının əsas mənbələrindən birini rus dilindən alınmalar təşkil edir. Rus dilindən alınma terminlərin bir qismi Azərbaycan dilinə yalnız onun modifikasiya, adaptasiya normalarına müvafiq şəkildə daxil olur, bir qisim terminlərdə isə struktur dəyişmə müşahidə edilir. Belə ki, rus dili modelində müəyyən terminin bu və ya digər komponentinin Azərbaycan dilində özünəməxsus əvəzedici varsa, həmin element Azərbaycan dili sözü ilə ifadə olunur, bu da terminoloji səciyyə daşıyan həmin tipli alınmaların mənaca ümumişlək söz

yerinə keçməsində mühüm rol oynayır: «yarımfinal» (polufinal), «yarımkeçirici» (poluprovodnik), «tammetrajlı» (polometrajnıy), «qısametrajlı» (kratkometrajnıy), telekörpü (telemost), «fotomüxbir» (fotokorrespendent). [42, 84-85]

Bütün deyilənlərə əsasən belə qənaətə gəlmək olar ki, termin hansı dildən alınmağına baxmayaraq, bir sıra mühüm şərtləri özündə əks etdirməlidir:

1. Alındığı dilin fonetik, leksik, qrammatik normaların termin özündə təcəssüm etdirir.
2. Reseptor dil terminlə birlikdə bu qaydaları qəbul edir.
3. Reseptor dildə alınan termin unifikasiya edilir.
4. Alınma termin unifikasiya edilmədən qəbul edilir.
5. Qohum olmayan dillərdən alınan terminlər unifikasiya edilir.
6. Qohum olan dillərdən alınan terminlər unifikasiya edilir.

Birinci bənddə verilən şərt-alınma terminin fonetik, leksik, qrammatik normaları özündə əks etdirməsi həm morfoloji quruluşuna görə eyni, həm də fərqli olan dillərə aid edilə bilər. Müstəqillik illərində ingilis, fransız, rus, Türkiyə türkcəsindən alınan terminlərin əsas hissəsi heç bir dəyişiklik edilmədən – alındığı dildə olduğu kimi qəbul olunub. Məsələn: konsersus, lobbizm, sammit, status, menecer, valyuta, transfer, mesaj, spiker və s.

Bu terminlər heç bir çətinlik törətmədən şifahi və yazılı publisistikada da işlənməkdədir. Alındığı dildən olduğu kimi qəbul edilən bu terminlərin bəziləri az müddət ərzində ümumişlək sözlərə çevrilmişlər, məsələn: spiker, menecer, valyuta, biznes, kredit, dizayn və s.

Vaxtilə Ö.F.Nemanzadə yazırdı: «Tərəqqi etmək istəyən millətlərin özlərindən daha mədəni millətlərdən bir çox sözlər alıb dillərini genişləndirdiklərini və bu dünyada təbii bir qanun olduğunu indiki məktəb uşaqlarımız da bilir. Lakin dərd bundadır ki, bizim almağımız ilə özgələrin almağı arasında dağlar qədər fərq var: biz özgələrdən söz almaqla öz

dilimizi həqir və bərbad eləmişik; amma özgələr dillərini məntiq dairəsində genişlətmişlər… Ehtiyac gördüklərini, özlərində olmayan sözləri almışlar…

Biz ərəblərin, farsların sözləri ilə bərabər sərf və nəhf qaydalarını da bədbəxtcəsinə qəbul eləmişik». [70, 1]

Son illərdə dilimizin terminoloji qatına olan axın bəzən tənzimlənməmiş, terminlər saf-cürük edilmədən lüğət tərkibimizə, ədəbi dilimizə daxil olunmuşdur. İstər Avropa, istərsə də türk dillərindən alınan terminlər həyatımızın bütün sahələrini əhatə edir.

Yalnız elmi üslubda deyil, publisistik, rəsmi-işgüzar, bədii və hətta məişət üslubunda da yeni alınan terminlərdən tez-tez istifadə olunur, məsələn: hərbdə işlənən bakterioloji silah, gözyaşardıcı qaz, xəbərdarlıq siqnalları, radiasiya kimi terminlər publisistik üslubda fəal şəkildə işlənməkdədir.

Yeni alınan sözlər daha çox milli mətbuatımızda, elmi-kütləvi tirajlarda ilk dəfə funksionallaşır. Bu baxımdan onların alınmalardan daha effektli və seçmə üsulu ilə istifadə etmək imkanı var. Kütləvi –informasiya vasitələri hamı üçün aydın ola bilən, gələcəkdə ümumişləklik qazana bilən terminlərdən istifadə etsələr, daha məqsədəuyğun olar. Məsələn; ajiotaj, qeyri-leqitim, regional struktur, koalisiya, blok, akkreditə, inteqrasiya və s. terminlər ümumişləklik qazanmamışdır. Məsələn, «Ajiotaja söz ola bilməzdi» [59]. «İstər gücünə, istər regional strukturlarına, istər ideoloji xəttinə, istərsə də əksəriyyət tərəfindən qəbul edilən liderinin olmasına görə». [60] «Mətbuat konfransında müxtəlif ölkələrdən olan kütləvi informasiya vasitələrinin Avropa şurasında akkreditə olunmuş nümayəndələri iştirak edirlər». [29]. «Azərbaycanın Avropa ailəsinə sıx inteqrasiyası ardıcıl surətdə davam etdiriləcəkdir». [29].

Dünya svilizasiyasının aynası olan terminoloji lüğət fondu müxtəlif elm sahələrini birləşdirdiyi kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə birləşdirir. İstər qədim tarixə malik olan latın, yunan, çin, ərəb-fars dilləri, istərsə də son dövrlərdə dilimizin lüğət

fonduna təsiri aydın şəkildə müşahidə olunan ingilis, fransız dilləri terminoloji anlayışları adlandırmaq ilə yanaşı, onların dilimizin qayda-qanunlarına uyğunlaşması, unifikasiya məsələlərinin də dilçiliyin problemlərindən biri kimi meydana çıxmasına səbəb olur. Son dövrlərin terminologiyasında müşahidə olunan alınma və beynəlmiləl termin axını dilə daxil olan terminlərin tənzimlənməsi, dilimizin tələblərinə nə səviyyədə cavab verməsi məsələlərini ortaya qoyur. Alınmaların unifikasiyası haqqında bir sıra alim və mütəxəssislərin tədqiqatları, fikirləri olmuşdur. A.A.Reformatski unifikasiyanın iki formasını göstərir: xarici (başqa dillər hesabına), daxili (dilin öz imkanları hesabına şəkilçilər, sözlər vasitəsilə). [82,67]

Müəllif qeyd edir ki, terminlərin xarici unifikasiyası onların normalarına uyğun, daha uğurlu paralel istifadə olunanların içindən termin anlayışının məzmununa cavab verən terminlərin seçilməsi yolu ilə həyata keçirilməlidir. [82,69]

Müstəqillik illərində terminlərin unifikasiyası daha böyük əhəmiyyət daşıyır. Avropa ölkələri ilə əlaqələr, türk xalqları ilə yaxınlaşma, eyni anlayışı ifadə edən sözlərin bir neçə dildən alınaraq termin kimi işlənməsi bu dövrdə daha çox özünü göstərir. Bu zaman aşağıdakı hallar müşahidə olunur.

1. Bir termin bir neçə məna verir:

mübahisə - diskusiya / dispub / debat ;

rayon - bölgə / ərazi ;

2. Bir mənanı bir neçə termin ifadə edə bilər.

arqument, fakt - dəlil / sübut ;

proqress - tərəqqi / inkişaf ;

Ayrı-ayrı morfoloji quruluşa malik olan dillərdən dilimizə keçərək paralel işlənən terminlərin istifadə olunmasının qarşısını almaq üçün onların tənzimlənməsi zəruridir. Bu cür tənzimlənmə müxtəlif elmi terminologiyalarda müşahidə edilsə də, sistemli və ardıcıl şəkildə həyata

keçirilmir. Sözsüz ki, başqa dillərdən terminlər alınarkən dilimizin bugünkü ənənələri ilə hesablaşmaq lazımdır. Dilimizin lüğət tərkibinə daxil olan termin daxili unifikasiyasiyanın tələblərinə və digər elm sahələrindəki terminologiyanın unifikasiya qanunauyğunluqlarına əsasən tənzimlənməlidir.

Müşahidələr göstərir ki, unifikasiya əsasən, iki cür özünü göstərir: a) təbii , b) kortəbii

Təbii unifikasiya zamanı alınan termin təbii «seçmə» nəticəsində fonetik, morfoloji, lüğəvi məna dəyişməsinə məruz qalır. Bu zaman dilin öz daxili imkanları nəzərə alınmaqla sözlər müəyyən zaman kəsiyində formalaşır, cilalanır və dilimizin sözləri ilə qaynayıb-qarışır. Doğrudur, bu proses uzun müddət tələb edir, lakin onun işlənmə mövqeyi möhkəm olur. Hələ orta yüzillikdən başlayaraq dilimizə fəal şəkildə daxil olan ərəb-fars sözlərinin tənzimlənməsi hadisəsi baş vermişdir, məsələn: faidə - fayda, saət - saat, şəm – şam;

XIX əsrdən başlayaraq dilimizə keçən bir sıra rus-Avropa mənşəli sözlər də müəyyən fonetik dəyişmələrə məruz qalmışdır, məsələn: qazeta-qəzet, maşina-maşın, vedro-vedrə və s.

Bu cür unifikasiyada Azərbaycan dilinin həm fonemlər sistemi, həm də dilimiz üçün əsas morfoloji hadisə sayılan ahəng qanunu nəzərə alınmışdır.

Sevinc Xəlilova yazır: «Dil öz obyektiv şəkildə seçmə və əvəzetmə əməliyyatını yerinə yetirir: ümumməqbul variantlar yaşama əsası qazanaraq dildə qalır, digər variantlar terminologiyadan çıxarılmış olur. Məqbul dözülməyən terminləri tək-tək fərdlər işlətməyə cəhd göstərsələr də, bütövlükdə cəmiyyət həmin terminin işlədilməsinin, yayılmasının qarşısını alır. Terminoloji sistemin dövlət tərəfindən standartlaşdırılması isə milli ədəbi dilin ehtiyatlarından bu şəkildə istifadəsinə qarşı mübarizə aparmaq üçün hüquqi əsas verir». [31,153].

Müəllifin bu fikri ilə razılaşaraq onu qeyd etmək olar ki, terminologiyanın saflığı uğrunda mübarizənin tərkib hissəsidir və bu məsələ həm də dövlət səviyyəsində xüsusi nəzarətlə tənzimlənməlidir.

Məsud Mahmudov dilçilik terminlərinin unifikasiyası ilə bağlı olaraq yazır: «Dil haqqında elmin yarandığı ilk günlərdən onun özünəməxsus terminoloji sistemi də təşəkkül tapmış, müəyyən təkamül dövrü keçərək formalaşmış və sabitləşmişdir. Lakin təbii ki, ilk vaxtlar dilçilik terminləri sistemsiz, kortəbii olaraq yaranırdı. Ayrı-ayrı elm sahələrində olduğu kimi, dilçilikdə də terminlərin toplanması, təkmilləşdirilməsi, unifikasiyası məsələlərinin həlli üçün hələ çox əsrlər keçməli idi» [49,11].

Fikrimizcə, kortəbii şəkildə unifikasiya müəyyən zərurət üzündən yaranır. Bunlar, əsasən, aşağıdakılarla bağlıdır:

1. Alınma sözlər dilimizin qayda-qanununa uyuşmur.
2. Alınma sözlərin dilimizdə qarşılığı olduğu üçün istifadəsi qeyri-fəal olur.

«-izasiya-asiya alınma şəkilçilər müasir türk dillərinə-laşdırma//-leşdirmə,-lama//-leme morfoloji göstəriciləri ilə tərcümə olunur. Məs: industriyalaşdırma, kolonizasiya-koloniyalaşdırma, mobilizasiya-mobilizeme (türkmən).

-nik, -cik (-hik) şəkilçiləri türk dillərinə –çı//-çi formasında tərcümə olunur. Məs.: desantnik-desantçı, razvetçik-razvedkaçı, tabelnik-tabelçi (türkmən)

-stvo, -ostğ şəkilçisi türk dillərinə –lıq//-lık//-lik (abstraktlik, aktivlik, aktuallıq, reallık, universallık, liderlik (türkmən)…

Türk dillərindən keçmiş rus-Avropa mənşəli alınmalar həmin dilin fonetik normalarına uyğun olaraq mənimsənilmişdir.

Alınmaların mənimsənilməsində türk dilləri bir-birindən fərqlənir. Məsələn, türkmən, qazax, qaraqalpaq, qırğız və s. türk dillərində mənimsənilməsinə, əsasən, alınan dildə (rus dilində) olduğu kimidir. Müasir Azərbaycan dilində isə dilin öz qayda-qanunlarına, morfoloji normasına

uyğunlaşdırılmış şəkildə yeni alınmalar unifikasiya olunur. Məsələn, müqayisə et: insident (Azərb.)- inisident (türkm.). Müstəqillik qazanmış türk xalqlarının mətbuatında inisident termini olay, hadisə mənasında geniş şəkildə işlənməkdədir.

Lakin elə alınma sözlər də vardır ki, etimon dildə necədirsə, o cür də mənimsənilir. Məsələn: kontrakt (baqlaşmaq-türkm.), kredit, kreditor, krizis, kriminalist və s. [36, 317-318]

Məhəbbət Mirzəliyeva müstəqillik illərində alınma terminlər haqqında yazır: «Türk dillərinin leksikasının son 10 ildə müstəqil türk dövlətlərinin yaranması ilə səciyyələnən xüsusiyyətləri məhz bu baxımdan böyük maraq kəsb edir. Müstəqillik dövrünün ilk illəri türk dillərinin inkişafında yeni bir mərhələdir. Bu mərhələdə ictimai-iqtisadi həyat, elmi-siyasi və mədəni durumla bağlı proseslərin bu və ya digər türk dillərinə təsiri danılmazdır. İstər şifahi, istərsə də yazılı nitqdə, həm bədii, həm elmi, həm də rəsmi üslubda ciddi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər, sözsüz ki, özünü ilk növbədə dilin leksik qatında göstərir. Bu isə təbidir.

Türk dillərinin lüğət tərkibində son dövrdə baş verən dəyişikliklər aşağıda göstərildiyi kimi qruplaşdırıla bilər:

1. türk dillərinin fonetik, morfoloji normalarına müvafiq yeni sözlər yaranır;
2. dilin passiv fondunda qalmış söz və terminlər (xüsusilə arxaik və dialekt sözlər) yeni mənada dilə daxil olur;
3. dünyaya inteqrasiya ilə əlaqədar iqtisadiyyat, mədəniyyət, elm və siyasətlə bağlı əcnəbi söz və terminlərin müstəqillik dövründə türk dillərinə birbaşa güclü axını baş verir. [57, 293]

Fikrimizcə, türk dillərinin fonetik, morfoloji normalarına müvafiq yeni sözlərin yaranması əvvəllər də baş verməsinə baxmayaraq, müstəqillik illərində daha çox müşahidə olunur; məsələn, duyum, soyad, soyqırım, özəlləşdirimə və s. Vaxtilə dilimizdə işlənən çavuş, taqım, gizir, nisançı, alay, arxaikləşmiş sözlər indii hərbi terminologiyada fəal şəkildə

işlənməkdədir. Hələ XX əsrin əvvəllərində çağdaş sözü müasir sözünün qarşılığı kimi işlənmişdir. Müstəqillik illərində çağdaş sözü dilimizdə yenidən işlənməyə başladı.

Müstəqillik illərində yaranan bir sıra terminoloji lüğətlərin tərtibində alınma və beynəlmiləl terminlər verilərkən onların unifikasiyası məsələləri də nəzərə alınmalı, istər fonetik, istər morfoloji, istərsə də lüğəvi məna baxımdan lüğətdə əks olunmasına nail olmaq lazımdır.

2001-ci ildə nəşr olunmuş «Qərbi Avropa mənşəli alınma sözlərin izahlı lüğəti» kitabında yazılır: «İzahlı lüğətdə öz əksini tapmış Qərbi Avropa dillərinə məxsus söz və terminlərin ifadə edilməsi aşağıdakı prinsiplərə əsaslandırılmışdır»:

a) Qərbi Avropa dillərinə məxsus söz və terminləri düzgün və səlis ifadə etmək;

b) Onların məna və incəliklərini açıb göstərmək;

c) Hər hansı bir Qərbi Avropa dillərinə məxsus sözün və ya onun mənasının hüdud və çərçivəsini müəyyən etmək;

d) Qərbi Avropa dillərinə məxsus söz və terminlərin fonetik və qrammatik dəyişikliyə uğramasını lüğətdə verilən Azərbaycan dili söz və ifadələrdə müəyyənləşdirmək. [90,7]

Lüğətdə verilən terminlərin bir hissəsi alındığı dildə olduğu kimi, bir hissəsi isə unifikasiya edilərək verilmişdir: Məsələn:

veksel (alm.) – qanuna uyğun olaraq düzəldilmiş pul sənədi; bu sənəddə ona sahib olan adam borcludan müəyyən məbləğdə borcunu ala bilər. [90,39]

villa (lat.) – şəhər kənarında bağ-bağat içərisində qəşəng ev, köşk. [90,41]

viza (lat.) – 1. xarici ölkəyə getmək üçün həmin dövlətin əlaqədar təşkilatı tərəfindən verilən icazə vərəqəsi. [90,41]

referendum – çox mühüm dövlət məsələsini həll etmək üçün səsə qoyma, xalqın rəyini öyrənmə. [90,213]

1998-ci ildə çap olunan «Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti»ndə bir sıra terminlər alındıqdan sonra müəyyən fonetik dəyişmələrə məruz qalmışdır. Məsələn: kalori (lat. calor-istilik)- istiliyin sistemdənkənar vahidi, kal və ya cal ilə işarə olunur. [89,59].

temperatur (lat. tempratura – düzgün nisbət mütənasiblik, normal hal)

- makroskopik sistemin termodinamik tarazlıq halını xarakterizə edən fiziki kəmiyyət. [89,93]

1994-cü ildə nəşr olunmuş «Azərbaycan türkcəsi sözlüyü» lüğətində verilən alınma terminlərin unifikasiyası nəzərə alınmışdır, məsələn: reportyorluq, normaçı, kreditor, mikroklimat (mikroiqlim) və s. [112,65]

Müstəqillik illərində termin yaradıcılığında müşahidə olunan bir sıra yeni morfemlər alındığı sözlə birlikdə dilimizə keçir, ya olduğu kimi verilir, ya da fonetik dəyişikliyə məruz qalır.

«Yunan və latın mənşəli beynəlmiləl termin elementləri» [56] kitabında termin elementlər haqqında məlumat verilmişdir. Azərbaycan dilçiliyində ilk dəfə olaraq yunan və latın mənşəli beynəlmiləl termin elementlərin rus və Azərbaycan dillərində söz və morfem qarşılıqları göstərilmiş, beynəlmiləl terminlərə ekvivalent olan Azərbaycan, rus dilləri söz və morfemləri lüğəti tərtib edilmişdir. Lüğətdə termin elementlərdə fonetik variantlar, səs əvəzlənməsi, dəyişkən səslər xüsusi işarələrlə qeyd olunmuşdur.

Məmmədli Nadir öz tədqiqatında qeyd edir: «Azərbaycan dilində xeyli sayda prefiks, suffiks, termin element işlənir. Hərçənd bu formatlardan bəzilərinin Azərbaycan dili sözlərinə qoşulması faktları müşahidə edilir (məsələn, *antimüharibə, protoulduz, hunonüvə* və s.), lakin bu hələ o demək deyildir ki, alınma morfoformantlar, elementlər Azərbaycan dilində müntəzəm surətdə yeni sözlər yaratmaq qabiliyyətinə malikdir. Dilimizdə ən işlək *-l, -ik, -or, -on, -ator, -at, -iat, -ial, -it, -oz, -ist, -izm, -atik, -mik, -iv, -al, -ant, -er* və s. alınma formantlar söz tərkibində üzvlənmir, yalnız bağlı çıxış edir: *klinika, anarxizm, idealist, vulqarizm, praqmatik, obyektiv,*

fundamental, koksit və s. Onlar ,əsasən, Avropa mənbəli isim və sifətlərin tərkibində olur». [56,5]

Müstəqillik illərində Azərbaycan dilində beynəlmiləl termin elementlər termin yaradıcılığında mühüm əhəmiyyət kəsb edir. Bu termin elementlər ya sözün tərkibində dilimizə daxil olur, ya da sonradan terminlərə qoşularaq yeni mənalı elmi anlayışları ifadə etməyə xidmət edirlər. İşlənmə yerinə görə termin elementlər fərqlidirlər.

Azərbaycan dili termin sistemlərində işlənən termin elementləri funksionallığına görə iki qrupa ayırmaq olar: 1. Prepozitiv (söz əvəzinə qoşulan) elementlər; 2. Postpozitiv (söz sonuna qoşulan) elementlər. Avropa mənbəli termin elementlərin sistem analizində iki əsas məsələnin həllini vacib bilirik: a) prepozitiv formaların sistemliyinin, yəni elementlərarası münasibət, kompozisiya qanunlarının modelləşdirilməsi; b) müvafiq obyektin aid olduğu sistemin təyin edilməsi. [56,7]

Müəllif *avia-, avto-, aqro-, anti-, arxe-, astro-, vibro-, vidio-, ekzo-, etno-, elektro-, inter-, makro-, mikro-, mono-, moto-, milli-, radio-, foto-, ferro- mele-* və s. prepozitiv termin elementləri göstərilmişdir. Bu prepozitiv elementlər termin tərkibində müstəqilliyini saxladığı üçün konservativ səciyyəli elementlər adlanır.

Bəzi termin elementlər isə şəkilçi xarakteri daşıdığı üçün deformativ elementlər sayılır. Məsələn: *dez-, de-, an-, bi-, bio-, re-, epi-, zoo-, dia-, sub-, neo-, iro-, a-* və s.

Nadir Məmmədlinin konservativ prepozitiv termin elementləri onların ifadə etdikləri anlayışa görə aşağıdakı kimi qruplaşdırır:

1. Yaxın məna bildirən termin elementlər.
2. Zidd məna bildirən termin elementlər.
3. Forma, həcm, uzunluq, məsafə bildirən termin elementlər.
4. Spesifik məna xüsusiyyətləri bildirən termin elementlər.
5. Nomenklatur xarakterli termin elementlər. [56,13]

Termin yaradıcılığının ən mühüm vəzifələrindən biri də postnozitiv derivasiya elementləridir. Bu elementlər indiki dövrdə də söz sonuna qoşularaq müəyyən elmi anlayışın ifadəsinə xidmət edən yeni terminlər yaradırlar. *–İzm, -yor, -yoj, -er, -ant, -as, -tor, -ura, -nim, -nom, -qraf, -loq, -uk, -fon, -qrafiya, -drom* və s. başqa sözdüzəldici elementlər beynəlmiləl və alınma terminlərlə birlikdə dilimizə keçir. Məsələn, *kardioqraf, fonoteka, roportyor, politoloq, sosioloq, anonim, klaviatura, motodrom, missioner, kserokopiya* və başqa sözlər bu elementlər vasitəsilə formalaşıb.

Bəzi alınma termin elementlərlə yaranan sözlər müstəqillik illərində kalka və ya tərcümə yolu ilə yaranan qarşıqları ilə əvəz olunmuşdur: məsələn, politoloq-siyasətşünas, kserokopiya-surətçıxarma.

Başqa ölkələrlə müxtəlif sahələr üzrə olan əlaqələr bir çox termin elementləri terminologiyada işlənməsinə səbəb olunmuşdur. Azərbaycan dilinin fonetik, leksik, qrammatik qayda-qanunlarını nəzərə almaqla dilimizə daxil olmuş alınma və beynəlmiləl terminlər dilimizin terminoloji qatını zənginləşdirməyə, elmi üslubun ifadə imkanlarını genişləndirməyə xidmət edir.

NƏTİCƏ

1. Müstəqillik illərində Azərbaycan dilində terminologiyanın yeniləşməsi, elm və texnikanın inkişafı ilə bağlı yeni terminlərin yaranması iki istiqamətdə baş vermişdir: Azərbaycan dilinin daxili imkanları əsasında və başqa dillərdən termin alınması yolu ilə;

2. Dilin daxili imkanları əsasında termin yaradılması prosesi müstəqillik illərində də davam etmiş, terminlər daha çox bu mənbəyə istinad olunaraq yaradılmışdır.

3. Avropa dillərindən alınaraq dilimizdə işlənən terminlərin kəmiyyətcə artımı müstəqillik illərində daha çox müşahidə olunur. Müxtəlif sahələri əhatə edən bu yeni terminlər, əsasən, dilimizin fonetik, leksik, qrammatik normalarına uyğun olaraq işlənir; 1920-ci ildən 1990-cı ilədək termin yaradıcılığında rus dilindən və onun vasitəsilə başqa dillərdən termin alınması prosesi güclü idisə, 1990-cı ildən sonra Qərbi Avropa, xüsusilə ingilis dilindən alınan terminlər üstünlük təşkil edir.

4. Müstəqillik dövründə dildə özləşmə, yəni alınma sözlərin milli sözlərlə əvəz olunması meyli müşahidə olunur. Bu baxımdan digər türk dillərinin, xüsusilə Türkiyə türkcəsinin təsiri hiss olunur.

5. Müstəqillik dövründə termin yaradıcılığının mənbələri və üsulları (leksik-semantik, morfoloji, sintaktik və kalka) müəyyənləşdirilmişdir. Müstəqillik illərində meydana gələn yeni terminlərin morfoloji üsulla yaradılması isə daha çox müşahidə olunur. Morfoloji üsul termin yaradıcılığında ən məhsuldar üsuldur. Bu, ilk növbədə, Azərbaycan dilinin sözdüzəldici şəkilçilərlə zəngin olması ilə şərtlənir. Lakin bu şəkilçilərin hamısı termin yaradıcılığında eyni dərəcədə fəal iştirak etmir.

6. Müşahidələr göstərir ki, əvvəlki dövrlərdən fərqli olaraq terminologiyada çoxkomponentli termin-birləşmələrin yaranması daha üstünlük təşkil edir. Çoxkomponentli terminlərin mütəxəssis və dil daşıyıcısı üçün çətinlik törətməsi halları da müşahidə olunur. Başqa dillərdən alınan

və dilin daxili imkanları əsasında yaranan çoxkomponentli terminlərin daha sadə leksik dubletləri ilə əvəz olunmasına və ya sinonim terminlərdən ən uğurlusundan istifadə olunmasına diqqət yetirilməlidir.

7. Elmi-texniki tərəqqinin baş verməsi ilə bağlı müstəqillik illərində mürəkkəb ixtisarların işlənmə tezliyi artmışdır. Bu proses informatika, iqtisadiyyat və ictimai-siyasi həyatda daha çox müşahidə olunur. Elmlərin inteqrasiyası nəticəsində bir çox yeni elmi anlayışları meydana gəlir və onların adı, əsasən, mürəkkəb ixtisarlar şəklində olur. Mürəkkəb ixtisarların son dövrlərdə yaranması və işlənməsi terminologiyanın ümumi inkişafına xidmət edən amillərdəndir.

8. Eyni elmi anlayışı ifadə edən terminlərin paralel işlənməsi, həm milli, həm də alınma sözlə ifadə olunması dilin lüğət tərkibinin artıq sözlərlə yüklənməsinə səbəb olur. Terminologiyada bu vəziyyət nizamlanmalıdır. Purizmə yol vermədən alınma terminlərin həm istifadə edilməsi, həm də dilmizin qanunauyğunluğu mənafeyi baxımından dəyişdirilməsi həyata keçirilə bilər. Son dövrlərdə bir sıra terminologiya sahələrində bu istiqamət hiss olunmaqdadır. Yeni yaranan və mövcud olan terminlər ayrı-ayrı ixtisas və elm sahələri üzrə toplanıb sistemləşdirilməlidir.

9. Müxtəlif elm sahələrində, xüsusilə informasiya texnologiyaları, iqtisadiyyat sahələrində yaranan terminlərin intensiv işlənməsi, onların kütləvi informasiya vasitələrində tez-tez istifadə olunması ümumişləklik qazanmasına səbəb olur. Müasir informasiya vasitələrində işlənən terminlərin anlaşıqlı, aydın olması vacib şərtlərdəndir.

10. Müstəqillik illərində termin yaradıcılığının məhsuldar olması müxtəlif elm sahələrinə aid izahlı, tərcümə lüğətlərinin yaradılmasını zəruri etdi, lakin bu lüğətlərin bütün sahələri əhatə etmədiyini və azlıq təşkil etdiyini müşahidə edirik. İki və daha çox dilləri əhatə edən lüğətlərin yaradılmasına ehtiyac var.

11. Unifikasiya məsələləri xüsusi əhəmiyyət daşıdığı üçün başqa dillərdən alınan terminlərin dilimizin fonetik, leksik və qrammatik quruluşuna uyğunluğu nəzərə alınmalıdır.

12. Araşdırmalarımız göstərir ki, yalnız əvvəlki dövrlərdə deyil, ana dilimizin dövlət dili səviyyəsinə yüksəldiyi, saflığının qorunub saxlanması uğrunda mübarizə aparıldığı bir dövrdə Azərbaycan dilinin daxili imkanlar əsasında termin yaratmaq, hətta ən mürəkkəb elmi anlayışları belə ifadə etmək mümkündür. Müstəqillik illərində bu proses davam edir.

13. Cəmiyyətin siyasi-iqtisadi, mədəni həyatında baş verən dəyişmələr dilə öz təsirini göstərmiş, yeni terminlərin meydana çıxmasına səbəb olmuşdur. Bu, yeni yaranan terminlərin hərtərəfli öyrənilməsinə, mənbə və üsullarının tədqiqinə, yeni terminoloji lüğətlərin yaranmasına ehtiyac yaradır. Lüğətlərin yaranması üçün kifayət qədər yeni termin ehtiyatı mövcuddur.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1985.
2. Abdullayeva İ. XX əsrin 80-ci illərində Azərbaycan terminologiyasının inkişafı (terminoloji lüğətin əsasında)// Terminologiya məsələləri, Bakı 2004, səh. 42-46
3. Adilov M.İ. Müasir Azərbaycan dilində abbreviasiya. fil.elm.dok-dis. Bakı, 1986.
4. Axundov A.A. Dil və mədəniyyət. Bakı, Yazıçı, 1992
5. Azərbaycan klassik ədəbiyyatı Məhəmməd Füzuli; 20 cilddə, 7-ci cild. Bakı, Elm, 1986
6. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər. 20 cilddə, 5-ci cild, Bakı, Elm, 1984
7. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Nəsimi 20 cilddə, 5-ci cild, Bakı, Elm, 1985
8. «Azərbaycan XXI əsrdə» qəzeti. №6 (22), 20-27 oktyabr, 2005-ci il, səh. 8
9. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978.
10. Cavadova M. XIX əsr Azərbaycan ədəbi dilində işlənmiş bəzi elmi terminlər haqqında (ədəbiyyat, dil, incəsənət seriyası)//Azərbaycan SSR EA Xəbərləri, Bakı, 1977, №1, səh. 30
11. Cahangirov M. Milli dilin təşəkkülü ilə bağlı olan bəzi dilçilik terminləri və anlayış adları haqqında. Ədəbiyyat və

incəsənət//Azərbaycan SSR EA Xəbərləri, Bakı, 1977, №1, səh. 30

12. Cəfərov R. Azərbaycan dilinin terminologiyasında Qərbi Avropa alınmaları//Terminologiya məsələləri, Bakı, Elm, 1990, səh. 35
13. Cəfərov S. Müasir Azərbaycan dili; Leksika II hissə, Bakı, Maarif, 1982.
14. Cəfərova B. Terminoloji lüğətçilik məsələləri, Bakı, AİMU nəşri, 1997.
15. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı, Bakı, Azərtədris nəşr, 1962
16. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dili tarixi, I hissə, Bakı, Maarif, 1979
17. Dəmirçizadə Ə.M. Kitabi-Dədə Qorqud dastanlarının dili. Bakı, Azərnəşr, 1969.
18. Ədilov V.Z. XIX əsr Azərbaycan ədəbi dilində tibb terminləri. AzSSR EA Xəbərləri; 1977, №1.
19. Əliyeva F. Mətbuat səhifələrində ümumişlək olmayan sözlərin işlənməsi haqqında//Tədqiqlər, Bakı-2004, səh. 70-80
20. Əlizadə S. Oğuznamə. Bakı, Yazıçı, 1987
21. «Əkinçi» qəzetində istilah yaratmaq məsələsi haqqında. Ə.Orucov, Bakı, EA Məruzələri, 1947, №4, III cild.
22. Fərzəliyeva M. Müasir Azərbaycan dilində bazar iqtisadiyyatı terminlərinin yaranma prosesi//Dil və ədəbiyyat. Bakı, ADİ-nun nəşriyyatı, 2004
23. Hacıyev K. Dilin təmizliyi uğrunda mübarizə əbədi və bəşəri problemdir. Tədqiqlər, Bakı, 2004, səh. 80-88
24. Hacıyev T., Cəfərov N., Xudiyev N., Abbasova Ə. Azərbaycan dili, X-XI siniflər üçün dərslik, Bakı, Təhsil, 2004.
25. Həsən bəy Zərdabi, Seçilmiş əsərləri, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, «Əkinçi» qəzeti №1, 22 iyun, 1975.

26. Hüseynova N. Terminologiya vahidlərinin əvəzlənməsi prinsipləri. //Terminologiya məsələləri, Bakı, Elm, 2004, səh. 84-87
27. Hüseynova N. Müasir Azərbaycan dilində işlənən ərəb-fars mənşəli iqtisadiyyat terminləri//Terminologiya məsələləri, Bakı, Elm, 2005, s. 41-45
28. Hüseynzadə M. Müasir Azərbaycan dili, Morfologiya, III hissə, Bakı, Maarif, 1983
29. «Xalq qəzeti 2 may, 2004-cü il №101 (24668), 13 avqust, 2004-cü il, №186 (24753).
30. Xaqani Şirvani Seçilmiş əsərləri, Bakı. Yazıçı, 1987
31. Xəlilova S. İnternasional terminlər, Bakı, Maarif, 1991
32. Xudiyev N. Rus dilindən alınan düzəltmə terminlərin fonetik-morfoloji xüsusiyyətləri.//Terminologiya məsələləri, 1990, №3, səh.92
33. Xudiyev N. Azərbaycan ədəbi dilinin Sovet dövrü, Bakı, Maarif, 1989
34. Xudiyev N. Azərbaycan ədəbi dil tarixi: Bakı, Maarif, 1995.
35. İbrahimov M. Ana dili-hikmət xəzinəsi: Bakı, Azərnəşr, 1991.
36. Kazımov İ. Müstəqillik qazanmış türk xalqlarının dilində alınma leksika. Türk dillərinin tarixi-müqayisəli leksikologiya məsələləri, I cild, Bakı, BSU, «Kitab aləmi», 2004
37. Kazımov İ. Müstəqillik şəraitində Azərbaycan dilində Avropa mənşəli terminlərin milliləşməsi (türkləşməsi) prosesi//Terminologiya məsələləri //Bakı, Elm, 2005, s.10-15.
38. Kərimov S.Q. Texniki elmlər üzrə Azərbaycan dilində terminologiyanın indiki vəziyyəti və təkmilləşdirilməsi yolları// Terminologiya məsələləri. Bakı, Elm, 2003, s. 16-19
39. «Kredo» qəzeti, 2 aprel 2005-ci il №29-30 (305-306).
40. Kitabi-Dədə Qorqud, Bakı, Gənclik, 1977.

41. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları, Bakı, Elm, 1973
42. Qasımov M. Azəri dilində terminlər necə yaranır? Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1967
43. Qasımov İ. Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları, Bakı, Nurlan, 2000
44. Quliyeva S. Mətbuat dilində işlənən alınma terminlər.//Terminologiya məsələləri; Bakı, Elm, 2003, səh.184
45. Quliyeva S. Azərbaycan dilində ədəbiyyatşünaslıq terminologiyasının nəzəri məsələləri (formalaşması və inkişafı), Bakı, Nurlan, 2003
46. Quliyeva X. Dildə alınmaların yeri.//Terminologiya məsələləri; Bakı: Elm, 2003, səh. 93-94
47. Qurbanov A. Ümumi dilçilik, I cild, Bakı, 2004
48. Quliyeva S. Yeni lüğətlər haqqında.//Terminologiya məsələləri; Bakı, 2004, səh. 77-78
49. Mahmudov M. Dilçilik terminləri və onların tənzimlənməsi. // Terminologiya məsələləri; Bakı, 2003, səh. 184
50. Məmmədov N., Axundov A. Dilçiliyə giriş, Bakı, Maarif, 1980
51. Məmmədov M.M. Müasir Azərbaycan dilində termin yaradıcılığı və terminlərin işlənməsi haqqında.//Terminologiya məsələləri, Bakı, Elm, 2003, səh. 20-27
52. Məmmədquluzadə C. Əsərləri 6 cilddə, 6-cı cild, Bakı, 1985.
53. Məmmədquluzadə C. «Molla Nəsrəddin»in birinci nömrəsi, 1906.
54. Məşədiyev Q.İ. Onomastik vahidlərin termin yaradıcılığında rolu//Terminologiya məsələləri, Bakı: Elm, 2002, səh. 24-28
55. Məmmədov N. Dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarına dair, Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1958

56. Məmmədli N. Yunan və latın mənşəli beynəlmiləl termin elementləri. Bakı, Elm, 1989
57. Mirzəliyeva M. Dilin lüğət tərkibi, təşəkkül, inkişaf, təkmilləşmə (mülahizə və düşüncələr), Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri, I cild, Bakı, BSU, «Kitab aləmi» 2004
58. Müasir Azərbaycan dili 3 cilddə, I cild, Bakı, Elm, 1978
59. «Musavat» qəzeti; 23 sentyabr, 2002-ci il №216 (11590).
60. «Müsavat» qəzeti; 12 aprel 2001-ci il 381 (1322).
61. Orucov Ə.Ə.Müasir Azərbaycan dilində termin yaradıcılığı məsələləri//Terminologiya məsələləri. Bakı, Elm, 1984, səh. 30
62. Rəxşanlı R.M. Müxtəlif istiqamətlərdə tərcüməyə imkan verən çoxdilli lüğətlərin tərtibi məsələləri. Dil və ədəbiyyat 2 (40), Bakı, BDU, 2004, səh. 42-45
63. «Respublika» qəzeti №206, (2447), 6 sentyabr, 2005-ci il, səh.1.
64. Rüstəmzadə A. Nizami Gəncəvi, Bakı: Elm, 1980
65. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının nəzəri problemləri; Bakı, Elm, 2002
66. Sadıqova S.A. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşma və inkişafı. Bakı, 1997
67. Sadıqova S.A. «Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı», Bakı, Elm, 2005
68. Sadıqova S.A. Definitiv terminlərin yaranması.//Terminologiya məsələləri, Bakı, Elm, 2002, səh. 136
69. «Şərq qəzeti» №179 (1772), 17 sentyabr, 2005-ci il, s.1.
70. «Tərəqqi» qəzeti, Bakı, 1909, №47.
71. Verdiyeva Z., Ağayeva F.M., Adilov M.S. Dilçilik problemləri, I cild, Bakı, Azərnəşr, 1982
72. «Vergilər» qəzeti №35 (277), 6 sentyabr, 2005-ci il s.1.

73.Yaqubova T. Azərbaycan mətbuatında rus və Avropa mənşəli morfemlər (1920-2000-ci illər)//Tədqiqlər №2, Bakı: Elm, 2003, səh. 107-109.

Rus dilində

74. Баскаков Н.А. Современное состояние терминологии в языках народов СССР//Вопросы терминологии Москва: Из-во Академии Наук СССР, 1961, с.55-71.

75. Балакаев М.В. Вопросы терминологии, Москва, Из-во Академия Наук СССР, 1961, 230 с.

76. Будагов Р.А. Что такое развитие и совершенствование языка, Москва, Наука, 1977.

77. Велиев А.Г. Доклад//Материалы Всесоюзного терминологического совешания. Москва: Из-во Академия Наук СССР, 1961, 131-132.

78. Винокур Г.Г. О некоторых направлениях образования русской технической терминологии. Москва: 1939 стр.11-19.

79. Гаджиева Н.З. Основные пути развития синтаксической структуры языков. Москва, 1873, стр.59-60.

80. Дямирчизаде А.М. О периодезации и истории Азербайджанского литературного языка. Структура и история тюркских языков. Москва; 1971, 311 с.

81. Джоглидзе Л.И. Новые слова в современном языке. АКД «Тбилиси», 1976.

82. Реформатский А.А. Что такое термин и терминология?//Вопросы терминологии, Москва: Из-во АН СССР, 1961 стр.47-70.

83. Садыгова С.А. Терминологические словосочетания в Азербайджанском литературном языке. Дисс. на соиск. учен. степении канд. филол. Наука, Баку, 1986, 161 с.

Lüğətlər

Azərbaycan dilində

84. Abbasov Ə.M., Əliyev F.Ə., Əliyev Ə.Ə. və b. İnformatika, telekommunikasiya, radioelektronika üzrə ingiliscə-rusca-Azərbaycanca terminoloji lüğət. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2003

85. Abbasov Ə.M., Bağırov M.M., Bağırov D.A. və b. İzahlı iqtisadi terminlər lüğəti, I cild, Bakı, «Nurlan», 2005

86. Adilov M.İ. Verdiyeva Z.M, Ağayeva. İzahlı dilçilik terminləri (sorğu lüğəti) Bakı, Maarif, 1989

87. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına Dilçilik İnstitutu. Bakı, Lider nəşriyyatı, 2004

88. Allahverdiyev S.E., Hacıyev A.N., Əhmədova N.M. Azərbaycanca-türkcə-rusca-ingiliscə ehtimal nəzəriyyəsi və riyazi statistika lüğəti. Bakı, Gənclik nəşriyyatı, Bakı, 2002

89. Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti, Bakı, 1998.

90. Cəfərov R. Qərbi Avropa alınma sözlərin izahlı lüğəti; Bakı, Nurlan nəşriyyatı, 2001

91. Cəfərov S.Ə., Qarayev N.A., Cəfərova K.Ə. Avropa mənşəli sözlərin qısa lüğəti. Bakı, Maarif, 1981

92. Dini terminlər lüğəti. Bakı, «Bilik», 1996

93. Əliyev H.H. Qaynaq istehsalına aid izahlı terminlər lüğəti, Bakı: Elm, 2004

94. Əliyev T., Kərimzadə S. Rusca-Azərbacanca informasiya-ölçmə texnika terminləri lüğəti, Bakı, Maarif, 1980

95. İbrahimov A. İngiliscə-rusca-türkcə-azərbaycanca hüquq terminləri lüğəti, Bakı, BDU nəşriyyatı, 2004
96. Qocayeva G. Rusca-Azərbaycanca texniki terminlərin izahlı lüğəti. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2004
97. Məmmədov Nazim. Rusca-azərbaycanca fövqəladə hallarla bağlı terminlərin izahlı lüğəti. Bakı: Yeni nəsil, 2003
98. Məhərrəmli Q. Kino-televiziya, radio terminləri izahlı lüğəti. Bakı, Azərbaycan Milli Ensiklopediyası «Nəşriyyat-Poliqrafiya birliyi» 2002
99. Məhsəti Əşrəf. Azərbaycan kənd təsərrüfatı terminləri. Bakı, 1998
100. Məhərrəmov M.C. İzahlı psixoloji lüğət. Azərnəşr, Bakı, 1999
101. Nəcəfzadə A. Azərbaycan çalğı alətləri izahlı lüğəti. Bakı El-Alliance, 2004
102. Nəsibov O.İ., Məmmədov Ə.Ə. Kimya terminlərinin izahlı lüğəti, Bakı, «Şuşa» nəşriyyatı, 2000, 384 s.
103. Paşayev T., Allahverdiyev M., Kərimov X., Abdullayev A. İqtisadiyyat terminləri lüğəti. Bakı, Elm, 1994
104. Priyev A.Y., Cəfərov Q.H., Hacıyev A.S. Texniki terminlər lüğəti (rusca-Azərbaycanca-ingiliscə) Azərbaycan Bədii Tərcümə və ədəbi əlaqələr Mərkəzi, Bakı, 2004
105. Rabitə terminləri lüğəti.Az. MEA nəşriyyatı, Bakı, 2004
106. Rusca-Azərbaycanca elektrotexnika terminləri lüğəti. Bakı, BDU nəşriyyatı, 1991
107. Rusca-azərbaycanca bazar iqtisadiyyatı terminləri lüğəti, Bakı, Azərnəşr, 1993
108. Rusca-azərbaycanca dəftərxana və mühasibat terminləri lüğəti. Bakı, 1982.
109. Rusca-azərbaycanca izahlı hərbi terminlər lüğəti, Bakı, 1993.

110. Rüstəmov Ə.M., Hüseynov E.M. İnformatika Azərbacan, rus və ingilis dillərində izahlı terminlər lüğəti, Bakı: BDU nəşriyyatı, 1996
111. Şərifov K.M. Rusca-Azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti. Bakı, Çaşıoğlu, 2004

Türk dilində

112. Altaylı S. Azərbaycan türkcəsi sözlüyü, II hissə, İstambul, 1994

Rus dilində

113. Aliev T., Kerimzade S. Russko-azerbaydjanskiy slovarğ terminov po informaüionno-izmeritelğnoy texnike. Baku: İz-vo Maarif, 1980
114. Dalğ Vladimir. Tolkovıy slovarğ. IItom, Moskva, 1935

MÜNDƏRİCAT

Ön söz……...s.2-4

Giriş…….....s.5-7

I Fəsil **Azərbaycan dilində terminologiyanın inkişaf meyilləri**

1.1. Azərbaycan dilində terminologiyanın inkişafı…….s.8-27

1.2. Müstəqillik illərində terminologiyanın inkişafı istiqamətləri…s.28-33

1.3. Müstəqillik illərində yaranan terminoloji lüğətlər……...s.33-46

II Fəsil **Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının mənbə və üsulları**

2.1. Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığı mənbələri…….. …….s.46-57

2.2. Semantik üsulla yaranan terminlər.....s.58-60

2.3. Morfoloji üsul yaranan terminlər……..s.62-67

2.4. Sintaktik üsul yaranan terminlər.. ……...s.67-81

2.5. Kalka üsulu ilə yaranan terminlər……..s.81-88

2.6. Abreviaturalar (ixtisarlar)……..s.88-90

III Fəsil **Alınma terminlərin dilə keçmə yolları və unifikasiyası**

3.1. Müstəqillik illərində dilin lüğət tərkibində alınmaların və beynəlmiləl terminlərin yeri….....s.90-106

3.2. Terminlərin alınma yolları və mənşəyi…… s.107-113

3.3. Alınma terminlər və onların unifikasiyası……...s.113-127

Nəticə…….s.128-130

İstifadə olunmuş ədəbiyyat……....s.131-139